AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGIYA VƏ ETNOQRAFIYA İNSTITUTU

KÖNÜL ƏSƏDLİ

# XIX-XX ƏSRLƏRDƏ ŞİRVAN BÖLGƏSİNİN ETNOQRAFİK SƏCİYYƏSİ

*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun
Elmi Şurasının 2017-ci il 24 fevral tarixli iclasının
qərarı ilə çap olunur (Protokol № 4).*

**"Elm və təhsil"**

**BAKI – 2017**

**Redaktor:**

***T.ü.e.d., professor N.M. Quliyeva***

**Rəyçilər:**

***T.ü.e.d., professor M.T. Paşayeva***

***T.ü.e.d. N.A. Əliyeva***

**Könül Əsədli. XIX-XX ƏSRLƏRDƏ ŞİRVAN BÖLGƏSİNİN ETNOQRAFİK SƏCİYYƏSİ. Bakı, “Elm və təhsil”, 2017, 172 s.**

Azərbaycanın Şirvan bölgəsi tarixən zəngin mədəniyyət ənənələrinə malik olmuş, min illər ərzində yaratdığı maddi və mənəvi irsi, özünəməxsusluğu ilə fərqlənmişdir. Tədqiq olunan bölgənin etnoqrafik səciyyəsi ümumAzərbaycan xüsusiyyətləri daşısada, oxşar və fərqli cəhətləri ilə başqa bölgələrdən fərqlənir.

Monoqrafiyanın ayrıca elmi problem kimi araşdırılması, toxunulan məsələlərin ümumiləşdirilməsi və tədqiqat obyektinin müxtəlif aspektdən araşdırılması milli mədəni dəyərlərin öyrənilməsi üçün olduqca böyük əhəmiyyət kəsb edir. Əsər işlənilərkən dəyərli mənbələrdən, arxiv materiallarından, arxeoloji, etnoqrafik və ədəbiyyat materiallarından, həmçinin mövzuya həsr olunmuş ümumiləşdirilmiş əsərlərdən istifadə olunması, bölgənin müxtəlif rayonlarından toplanılan çöl etnoq rafik materiallarının tədqiqata cəlb edilməsi də əhəmiyyətli və vacib faktorlardan biridir.

## MÜNDƏRİCAT

**Giriş** ....................................................................................................3-5

**I fəsil. ŞİRVANIN QISA ETNOQRAFİK OÇERKİ**

1. XIX-XX əsr tarixşünaslığında bölgənin etnoqrafik cəhətdən öyrənilməsi..... 6-16
2. Azərbaycanın ictimai – siyasi və mədəni həyatında Şirvanın rolu................17-51
3. Milli dəyərlərin təbliğində bölgə diyarşünaslıq muzeylərinin rolu................52-57

**II fəsil. XALQ YARADICILIĞI VƏ İCTİMAİ MƏİŞƏT**

1. Xalq musiqisi.................................................................................. 58-71
2. Bayramlar ...................................................................................... 72-87
3. Oyun və əyləncələr.......................................................................... 88-91
4. Ənənəvi qonaqpərvərlik .....................................................................92-100

**III fəsil. DİNİ İNAMLAR**

1. İbtidai dini təsəvvürlərin qalıqları..............................................101-128
2. İslam və onun lokal xüsusiyyətləri..............................................129-143

**Nəticə** .................................................................................................144-147

**İxtisarların siyahısı**..........................................................................................148

**Ədəbiyyat** ...........................................................................................149-161

**Məlumatçılar**.......................................................................................162-163

**Summary** ............................................................................................164-169

**İllüstrasiyalar**..........................................................................................170

## *Giriş*

Şirvan bölgəsi Azərbaycanın tarixi, qədim bölgələrindən biridir. Əkinçilik və maldarlıq bölgə əhalisinin başlıca məşğuliyyəti sayılmış, ipəkçilik, bağçılıq və üzümçülük, arıçılıq kənd təsərrüfatının əsasını təşkil etmişdi.

Uzun tarixi dövr ərzində böyük inkişaf yolu keçmiş, yüksək sənətkarlıq cizgilərini özündə əks etdirən Şirvan bölgəsinə məxsus maddi və mənəvi mədəniyyət elementlərinin tədqiqi göstərir ki, bu mədəniyyət Azərbaycan xalqının mədəniyyəti sahəsində baş verən mühüm yeniliklərin intişar etməsində əhəmiyyətli dərəcədə rol oynamış, zəngin Azərbaycan mədəniyyətinin formalaşmasında önəmli yer tutmuşdur.

Mövcud elmi araşdırmalar, dəyərli mənbələr və ümumiləşdirilmiş əsərlər onu deməyə əsas verir ki, Şirvan ərazisi qədim mədəniyyət mərkəzlərindən biri olaraq zəngin və çoxəsrlik mədəniyyəti ilə nəinki Azərbaycanda, eləcə də qədim Şərqin mədəni həyatında ənənəvi rolunu və əhəmiyyətini itirməmişdir.

Mövzunun ayrıca elmi problem kimi araşdırılması, toxunulan məsələlərin ümumiləşdirilməsi və tədqiqat obyektinin müxtəlif aspektdən araşdırılması milli mədəni dəyərlərin öyrənilməsi üçün olduqca böyük əhəmiyyət kəsb edir. Əsər işlənilərkən dəyərli mənbələrdən, arxiv materiallarından, arxeoloji, etnoqrafik və ədəbiyyat materiallarından, həmçinin mövzuya həsr olunmuş ümumiləşdirilmiş əsərlərdən istifadə olunması, bölgənin müxtəlif rayonlarından toplanılan çöl etnoqrafik materiallarının tədqiqata cəlb edilməsi də əhəmiyyətli və vacib faktorlardan biridir.

Bölgədə hökm sürən dini vəziyyətin araşdırılması, mənəvi həyatda, məişətdə baş verən təbəddülatların təhlil olunması mənəvi mədəniyyətin tərkib hissələrinin və onun ayrı – ayrı sferalarının öyrənilməsinə müsbət təsir göstərə bilər.

Maddi mədəniyyət elementlərinin araşdırılıb, incələnməsi isə tarixin müəyyən dönəmlərində bölgənin etnoqrafiyasının,onun lokal xüsusiyyətlərinin öyrənilməsi yönündə önəml faktorlardan biridir.

M. Nemətovanın “Kürdəmir və Ağsu rayonu ərazisindəki epiqrafik abidələr”, A. Qasımovun “Şirvan kitabələri” və S. Qəniyevin“Şirvan folklor mühiti”, F. Osmanovun “Ağsu ərazisində arxeoloji tədqiqatlar”, M. Hüseynovun “Basqal əcdadlarımızın əks sədasıdır” əsərlərində qismən Şirvan bölgəsinin etnoqrafiyasına aid maraqlı məlumatlara rast gəlmək mümkündür.

Rus müəlliflərin məlumatlarında adı keçən bölgə haqqında birbaşa və ya dolayısı ilə dəyərli məlumatlar verilmişdir: Bronevski S.M., Butkov P.G., Qaniç A.A. və b. [1] “Qafqaz Təqvimi” nin 1845, 1847, 1848, 1849, 1850 və 1851-ci illərdə nəşr olunan məcmuələrində, ayrı – ayrı məqalələrdə etnoqrafik aspektdən işıqlandırılan Şirvan bölgəsi, onun bəzi şəhərləri, kəndləri haqqında maraqlı məlumatlar əks olunmuş-dur.

Türkiyə Türkcəsində olan ədəbiyyat mövzunun zənginləşməsi və müqayisəli təhlilinin aparılması baxımından dəyərli mənbə hesab olunur. Beləki Küçük M.A., İnan A., Gadirzade T., Kalafat Y. və digər müəlliflərin əsərləri bu baxımdan maraqlı və dolğun məlumatlarla zəngindir. [2]

---

**[1]Броневский С.М. Новейшие географические и исторические известия о Кавказе. Москва, 1823. Часть вторая. Типография С.Селивановскаго. Русский архив. Алфавитный каталог. Путешествия и описания земель.**
**Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 годь. Часть II. С.Петербург Типография Императорской Академии Наук, 1869, 602 с.**
**Ганич А.А. Поучение Закавказского муфтия и председателя Закавказского мусульманского духовного правления суннитского учения (1892).**
**Актуальные проблемы истории и этнографии народов Кавказа. Сборник статей к 60-летию В. Х. Кажарова. Нальчик, 2009, s.328-346.**

**2 Küçük M.A. Geleneksel Türk dini’ndeki ana/dişil Ruhlar’a mitolojik acıdan bakış. Iğdır Üniversitesi İlahiyat Fakültesi Dergisi. Sayı 1, Nisan 2013, s. 105-134.**
**İnan A.Tarihte ve bu gün şamanizm. Materyaller ve araştırmalar. Ankara, 2013**
**Gadirzade T. Iğdır ve çevresinde koçbaşlı mezar abideleri ile ilgili inançlar ve karşılaştırmalar. Yeşil İğdır Gazetesi. 2013-03-06/ Kategori: Genel Haber.**
**İnan A.Tarihte ve bu gün şamanizm. Materyaller ve araştırmalar. Ankara,Diyanat Vakfı Matbaası, 2013. 229 s.**
**Kalafat Y. Dadalı Türk halk inançları. http://turkoloji.cu.edu.tr/HALKBİLİM/kalafat_dadali., s.1-14.**
**Kalafat Y. “Kazakistan’daki Türk halk inançları”. Milli Folkor, 2001, sayi 41., s. 66-71.**

Alman tarixşünaslığında Azərbaycanın bəzi bölgələri, şəhərləri sırasında Şirvan və Şamaxının da adı epizodik olaraq çəkilir.

A. Petşoldt Azərbaycanın (Şirvanın) bəzi adət və ənənələrindən bəhs etmişdir. Onun məlumatlarında bölgəyə, ümumiyyətlə Azərbaycana xas olan milli adət və ənənələrin əks olunması əvəzolunmaz mənbə kimi dəyərləndirilməlidir (124, 802). F. Roymer 1821-ci ildə qədim alman şəhəri Leypsiqdə nəşr olunan "Qədim tarix haqqında mülahizələr" əsərində epizodik olaraq Xəzər dənizi və Şirvanın adını çəkir. (125, 101).

"Bir dəfə Qafqaz və Xəzər dənizinin cənub sahillərinə elmi səyahət haqqında qeyd. 1860-1861-ci illər" əsərində B. Dorn Şirvanşahları zəngin adlandırır, Şirvan vilayətinin Mədrəsə kəndində şərab hazırlandığını qeyd edir (123, 28). Əsərdə Şirvan və Şirvan xanı Mustafa xanın adı çəkilir (123, 105). Dorn XVII əsr hadisələri fonunda Dərbənd, Bakı və Şamaxı şəhərlərini epizodik olaraq göstərir (123, 148).

B. Dorn "Xəzər. Qədim Rusiyanın Tabarıstanı işğal etməsi haqqında" əsərində isə Bakı xanı Hüseynqulu xan, Quba xanı Şeyxəli xan, Dərbənd hakimi Surxay xan, Şirvan xanı Mustafa xan və Şamaxını xatırladır (122, 4-5).

XXI əsrin əvvəllərində mədəni dəyərlərin qorunub saxlanılması zərurəti, bu sferada elmi – tədqiqat işlərinə diqqət nəzərə çarpacaq qədər artmışdır. Son vaxtlar maddi və mənəvi irsimizi tanıtmaq, xalqımızın çoxəsrlik, zəngin mədəniyyətinin səciyyəvi mənzərəsini canlandırmaq istiqamətində hərtərəfli işlər görülməkdədir.

Məlumdur ki, etnos, etnik psixologiya, dini dünyagörüş, sənətkarlıq, təsərrüfat, ailə məişəti məsələləri bilavasitə etnoqrafiya– xalqşünaslıq elminin əsas, köklü bazasını təşkil edir. Toplanılan etnoqrafik materiallar əsas obyekt sayılan xalqın etnoqrafiyasını, onun ənənəvi formalarını işıqlandırmağa və şərh etməyə imkan yaradır. Monoqrafiyada XIX-XX əsrlərə aid çöl etnoqrafik materiallardan və zəngin arxiv sənədlərindən, özündə bölgənin etnoqrafik xüsusiyyətlərini əks etdirən ədəbiyyat və mənbədən səmərəli şəkildə istifadə edilərək Şirvan bölgəsinin etnoqrafik səciyyəsi şərh edilmiş, xüsusi tədqiqat obyekti kimi araşdırılmaya cəlb edilmişdir .

# I fəsil. ŞİRVANIN QISA ETNOQRAFİK OÇERKİ

## 1. XIX -XX əsr tarixşünaslığında bölgənin etnoqrafik cəhətdən öyrənilməsi

Şirvan bölgəsinin tarixi, maddi və mənəvi mədəniyyətinin müxtəlif məsələləri haqqında məlumatlara rus tədqiqatçılarının təsvirlərində əhəmiyyətli dərəcədə rast gəlmək olar. Bu məlumatların xeyli hissəsində etnoqrafik baxımdan müvafiq və maraqlı faktlar tapmaq mümkündür.

S.M.Bronevski "Qafqazın coğrafiyası və tarixinin ən yeni xəbərləri" əsərinin "Bakı şəhərinin təsviri" adlı bölməsində qeyd etmişdir ki, göstərilmiş bütün bölgələr içərisində Şirvan bölgəsi daha geniş əyalətdir (87, 349).

"Bakı şəhərinin təsviri" başlıqlı yazısında S.M. Bronevski Bakıda Şirvanlıların da yaşadığını qeyd etmişdir (87, 401).

Müəllifin XIX əsrə aid bu əsərində ipəkçiliyin Şirvanın kənd təsərrüfatının əsas sahəsi olduğu qeyd olunmuşdur (87, 434-435).

Məlumdur ki, ipəkçilik Şirvan bölgəsi əhalisinin qədim və ənənəvi təsərrüfat sahələrindən biri olmuşdur. XIX əsrə aid əhəmiyyətli mənbələri nəzərdən keçirərkən məşhur Şamaxı ipəyi haqqında yazılmış etnoqrafik qeydlərdən bəhrələnmək olar. Mənbədə Şamaxı ipəyinin əhəmiyyəti və bütün Şirvanı təchiz etməsi məsələsi vurğulanır:

"Yelizavetpolun ən vacib manufaktura istehsalı ipək parça istehsalı idi, sənayenin bu sahəsinin tənəzzülə uğramasının səbəblərindən biri isə Şamaxının ipək istehsalı ilə rəqabətə davam gətirə bilməməsi olmuşdur. Belə ki, Şamaxı özünün ipək istehsalı ilə bütün Şirvanı təchiz edirdi" (106, 139).

Şirvan bölgəsində əlverişli təbii – coğrafi və iqlim şəraiti barama qurdunun yetişdirilməsinə rəvac verən əsas səbəblərdən biri olmuşdur. Barama qurdunun bəslənməsi üçün bölgədə tut bağları və ya çəkilliklər geniş yayılmışdı, belə ki, qurdların yemlənməsi üçün bol tut yarpaqlarının olması həlledici amillərdən idi.

İpəkçilik Şamaxı camaatının əhəmiyyətli və əsas məşğuliyyətlərindən biri olmuşdur. 1868- ci ildə Şamaxı qəzasında 600, Göyçay qəzasında isə 200 pud ipək istehsal olunmuşdu. Bu dövrdə Şirvanda sahəsi 2600 desyatin olan 3100 tut bağı hesablanmışdı. Burada illik ipək məhsulu 3875 pud təşkil edirdi. İpək məmulatları fabrik Şamaxıda çoxdan mövcud idi. Hələ xanlıq dövründə Şamaxıda Tarayev qardaşlarının ipək fabriki fəaliyyət göstərirdi (116, 111-112).

Adı çəkilən bölgədə tut bağları təlabata uyğun olaraq nəzərə çarpacaq dərəcədə böyük sahələri əhatə etmişdi. Verilən məlumata görə Şamaxı xanlığında 70- ə qədər tut bağı olan bəylər var idi.

Apardığımız etnoqrafik müşahidələr zamanı belə qənaətə gəlmək olar ki, Ağsu və Şamaxı rayonlarında ipək istehsalı keçmişdən günümüzə qədər mühüm əhəmiyyət daşımışdır.Əhalinin verdiyi məlumata görə ipək istehsalının inkişafı və bolluğu 19- əsrdə Şəkiyə xam ipək göndərilməsinə səbəb olmuşdur.

Mənbələrdə həmçinin Şamaxının Kələxana və Mədrəsə kəndlərinin adları çəkilir (8 7, 433). Əsərdə adları qeyd olunan bu kəndlər hazırda Şamaxı rayonunda mövcud böyük kəndlərdən hesab olunur.

Arxiv materiallarında qeyd edilmişdir ki, XIX-XX əsrin əvvəllərində Göyçay qəzasında əhalinin oturaq və köçəri həyat tərzi müşayiət (yaylaq, qışlaq) edilmişdir.

Göyçay qəzasının 107 kəndində 118. 990.59 desyatin xəzinə torpağı, Şamaxı qəzasının 107 kəndində isə 222.622.59 desyatin xəzinə torpağı hesablanmışdı (130, 58-59).

S.M.Bronevski əsərdə Şirvanın hansı qəza və mülklərə böləndüyünü də göstərmişdir: Gerblərə görə Şirvan aşağıdakı qəzaları özündə birləşdirir:

Dərbənd, Müşkür, Niyazabad, Şabran, Rustau, Şeşpər, Beş Barmaq, Şamaxı, Qəbələ, Ağdaş, Bakı, Salyan, Cavad (87, 351).

Mənbədə göstərilmişdir ki, hazırda Şirvan aşağıdakı mülklərə bölünür:

Quba xanlığı, Bakı xanlığı, Salyan dairəsi, Şamaxı xanlığı, Şəki xanlığı (87, 351).

Şirvanın– Şamaxının beynəlxalq ticarət əlaqələri geniş idi. Nəzərdən keçirilən

mənbədə Şirvanın Rusiya bazarları və Həştərxan ticarət mərkəzlərində oynadığı rolu görmək mümkündür:

“Bakıdan Şirvana bütün istehsal olunan mallardan göndərilirdi. Həştərxan malları da Şirvana göndərilirdi. Eyni zamanda Şirvan mallarının böyük hissəsi Həştərxan və Qızlara aparılırdı” (87, 402- 403).

Tranzit ticarəti həm Rusiya, həm də Şirvan tacirləri üçün bütövlükdə sərfəli idi (87, 403-404).

S.M.Bronevskinin Şirvan haqqında (hazırda Şirvan bölgəsi hesab olunur) verdiyi müxtəlif və lazımi məlumatlarını nəzərdən keçirərkən mənbənin nə qədər böyük əhəmiyyət daşıdığını görmək olar.

Rusiya imperiyasının Qafqazda, o cümlədən Şivan bölgəsində həyata keçirdiyi dini siyasətin və qanunun xarakterinin müəyyənləşdirilməsi baxımından P.Q. Butkovun əsəri dəyəli mənbə hesab oluna bilər:

XIX əsrin birinci yarısında Rusiya hökumət orqanlarının Qafqazdakı təsdiqindən sonra imperiyanın müsəlmanlar yaşayan hissəsində müsəlman əhali və müsəlman dini elitası üzərində tədbirlər görülməsi və nəzarət etmək ehtiyacı yarandı (89, 328) Bu sahədə ilk strateji fəaliyyəti Gürcüstanda baş idarə rəhbəri, infanter general A.P.Yermolov (1816-1827) həyata keçirdi. Belə ki, 1824-cü ildə Quba komendantı K.K.fon Qrabbenin sərəncamına əsasən dini şəxslər, onların vəzifəsi, habelə onların say ilə (hökümətə loyallığı baxımından) qeydiyyata alınması nəzərdə tutulurdu. Bundan əlavə onların ruhani, seyid, şeyx və dərviş kimi kateqoriyalara bölünməsi nəzərdə tutulurdu (90, 328). Sufi təriqətinin fəaliyyəti Azərbaycanda əhalinin çar Rusiyasına qarşı milli – azadlıq mübarizəsində mühüm rol oynamışdır. Nəzərə almaq lazımdır ki, hər bir dövrdə həmin zamana xas olan mənəvi mədəniyyətin tərkib hissəsi –din, ideologiya, inam və etiqadların xalqın tərbiyə və şüuruna böyük təsiri olmuşdur. Şirvanda sufi şeyxlərinin, dərvişlərin, ruhani alimlərin camaat arasında təsir gücü əhəmiyyətli dərəcədə idi. Onların toplaşdığı xanəgahlar isə müqəd-

dəs yerlər hesab olunmaqla bərabər, həm də elm və mədəniyyət mərkəzi kimi diqqəti cəlb etmişdir.

Əhalinin dini dünyagörüşü, əsrlərlə ziyarət edilən pirlər haqqında bəzi məlumatlar konkret bir şəkildə qeyd edilmişdir. Verilən məlumata görə Yeddi Günbəz Bakı quberniyasının Şamaxı qəzasındadır. Tikililər yeddi günbəzdən ibarət olduğu üçün belə adlanır (92, 236).

Əsasən, Yeddi günbəzlər, Pirsaat, Dədəgünəş, Sofu baba, Diri baba, Şeyx Eyyub pir və ziyarətgahları əsrlərlə xalqın inanc yerinə çevrilmiş, nəinki keçmişdə, hətta indinin özündə də Şirvan camaatının, eləcə də Azərbaycan əhalisinin ziyarət edib, nəzir verdikləri ziyarətgahlar hesab olunur. Ağsu şəhəri yaxınlığında "Şeyx Dursun" piri, həmçinin rayonun Qaraqoyunlu kəndində "Ağ Günbəz" və "Qırmızı Günbəz", Şamaxı rayonunda "Pirsaat piri",rayonun Dədə Günəş kəndində "Dədə Günəş" piri, Göylər kəndində "Piri Mərdəkan", Mərəzə rayonunda "Diribaba" piri, Kürdəmir rayonunun Şahsevən kəndində "Şeyx Hacı Mahmud" piri Şirvan bölgəsində əhali arasında müstəsna olaraq ziyarət edilən və şəfa dilənən ziyarətgahlar idi

İsmayıllı rayonunun Aşıqbayram, Diyallı, Mican, Yeniyol, Topçu, Tağlabiyan kəndlərində XIX-XX əsrlərə aid məscidlər sovet hakimiyyəti dövründə yox edilməsi üçün cəhd olunmasına baxmayaraq öz varlığını qoruyub saxlamağı bacarmışdı. Şamaxı rayonunda Dədə Günəş piri xalq arasında güclü dini əhəmiyyətə malik idi.

P.Q.Butkov 1869-cu ildə Sankt–Peterburqda nəşr olunan "Qafqazın yeni tarixinin materiallarına dair. 1722-ci ildən 1803-cü ilə dək" əsərində göstərmişdir ki, Şirvan əslində Şamaxı xanlığı adlandırılmışdır (88, 130).

P.Q.Butkovun mülahizəsini Rusiya tarixşünaslığında Şamaxı xanlığının bəzən Şirvan xanlığı adlandırılması ilə izah etmək olar.

Müəllif Şirvan əhalisinin zənginliyindən bəhs edərək yazır ki, bizim furajirlər boş kəndlərdə belə sadə kəndli evlərindən ingilis fayans qablar tapmışlar. Bu isə onların bolluq və dəbdəbə içərisində yaşadığını sübut edir (119, 222).

Şirvan torpaqlarının əlverişli təbii coğrafi şəraiti, mülayim iqlimi, zəngin faydalı qazıntıları təsərrüfat fəaliyyətinin və sənətkarlığın inkişaf etməsinə rəvac vermişdi. Bu amil isə yuxarıda qeyd olunduğu kimi əhalinin bolluq içərisində yaşamasına səbəb olmuşdur.

N.Kalaşyev Şamaxını Kaspi vilayətinin Şirvan qəzasına aid edərək vilayət şəhəri olaraq göstərir,əhalisinin isə ipəkçilik və digər sənətkarlıq sahələri ilə məşğul olduğunu yazır (99, 53-54).

1840-cı ildə Şirvan əyaləti və Salyan torpaqları əsasında yaradılmış mərkəzi Şamaxı şəhəri olan Şamaxı qəzası 1841-1846-cı illərdə Kaspi vilayətinin tərkibinə daxil idi.

1847- ci ildə Tiflisdə nəşr olunmuş "Qafqaz təqvimi"ndə Şamaxı quberniyasının inzibati idarə sistemi və idarə üzvlərinin geniş siyahısı verilmişdir. Verilən idarə sistemi Şirvan bölgəsinin etnoqrafiyası ilə birbaşa olmasa da, bilavasitə bağlıdır. Xalqın yaşayış yerləri, həyat tərzi, təhsili və s. məsələlər birbaşa bu inzibati idarə sistemindən asılı idi:

***Şamaxı Quberniyasında, Şamaxı Şəhərində***

Dövlət Mülkiyyəti Palatası:

Palata idarə müdürü – Mülkü məsləhətçi – Feodor Yevstafyeviç Koçebu

Məsləhətçi – Ananiy Lukiç Tutkovski

Quberniya meşəbəyi – Adolf Adolfoviç Lesser (94, 21-22).

Mühəndis – Viktor Martınoviç Yaremkeviç

Xüsusi tapşırıqlar üzrə məmur – Mixail İvanoviç Rudnyev

Nəzarətçi – Nikolay Petroviç Yadimirski (94, 22).

Quberniya həkimi – Pyotr Dmitriyeviç Leviski

Həkim köməkçisi – Xristofor Xristoforoviç Bos

Quberniya yer ölçəni – Konstantin Qriqoryeviç Kravçinski

Quberniya arxitektoru – Lyudviq Valentinoviç Kambiacio (94, 22).

Təhsil idarəsi:

*Şamaxı üzrə*

Ştat nəzarətçisi vəzifəsinin icraçısı – Lyudviq Karloviç Kun

Şəriət müəllimləri:

Pravoslav dini üzrə keşiş – Dmitri Zotikov

Məhəmməd dini üzrə – Mirzə Süleyman Molla Manaf oğlu

Müəllimlər:

İvan Yelisbaroviç Mosidze

Nikita Artyomyeviç Yevreimov (95, 57).

XIX əsrə aid mənbədə yazılmışdır ki, hazırkı vaxtda Şamaxıda çoxlu gözəl binalar var. Onların böyük hissəsi daşdan tikilmiş, düz damlıdırlar. Burada 3213 ev, 11 məscid, 217 fabrik və zavod (onlardan 187- dən çoxu ipək parça toxuyur) var.

Gözəl binalardan xanın keçmiş sarayını göstərmək olar. Bu tikili indiyə qədər yaxşı qalmış, özündə zəngin bəzəkləri cəmləşdirmişdir. Şəhərdə 900- dən çox dükan, 16 hamam, 4 karvansara mövcuddur (96, 94).

Rus tədqiqatçılarının diqqət yetirdiyi məsələlər sırasına statistika da daxildir. Faktlar Azərbaycanda statistikanın daha dərindən araşdırılmasına əlverişli zəmin yaradır.

Mənbələrin təhlil olunması nəticəsində Şamaxıda əhalinin yerləşməsi məsələsinədə toxunmaq olar. Belə ki, şəhərdə hər iki cins aid olmaqla 20150 nəfər adam hesablanmışdır. Onlardan 1035- i kişi, 9798- i isə qadındır.

Əhali bəylərdən, ruhanilərdən, tacirlərdən və sənətkarlardan ibarətdir. Rus təriqətçilərindən duxoborlar, malakanlar və digərləri 300, müsəlmanlar 16250, yəhudilər 25 nəfər təşkil edirdilər (hər iki cinsi daxil olmaqla). 1848- ci ildə 272 oğlan, 199 qız doğulmuşdu. Ölənlərdən 145-i kişi, 92-i qadın idi (94, 94).

Digər bir məlumata əsasən Şamaxıda hər iki cins daxil olmaqla əhalinin sayı 20000 nəfərə qədər çatır, onlardan ¾ müsəlmanlardan ibarətdir.

Bakı quberniyasının Göyçay qəzasının sahəsi 4,156 kvadrat verst və ya 86 kvadrat mil, Bakı qəzasının sahəsi 5,768 kvadrat verst və ya 118 kvadrat mil təşkil edirdi.

Nəticə etibarilə Göyçay qəzası bütün quberniyanın 12,22 %- i, Şamaxı qəzası isə 16,73 % - i təşkil edirdi (116, 2).

Müəllif Şamaxı qəzasına aid olan vacib, əhəmiyyətli etnoqrafik məlumatları ətraflı olaraq göstərmişdir. Şamaxı əhalisinin əkinçilik və maldarlıqla məşğul olduqlarını, arıçılıq, ipəkçilik, həmçinin üzümçülük sahələrinin əsas məşğuliyyət növü olduğunu nəzərdən keçirilən mənbələrdən görmək olar (116, 112-114).

Qəbul edilmiş qərarın icrasına görə Şamaxı quberniyasının şəhər təsərrüfatı, həmçinin 1853-cü il üçün şəhərin gəlir və xərcləri barədə məlumat verilməsi nəzərdə tutulmuşdu (132, 13).

1853-cü il üçün şəhərin gəlir və xərcləri barədə məlumat verilərkən dükan və karvansaraylar, zavod və dəyirmanlar, bağça və şəhərlər, boyaqxana və ticarət obyektlərinin adları çəkilir (133, 15).

Digər mənbədə Kürdəmir pristavlığında fabrik və zavodların mövcudluğu barədə məlumat verilmişdir (134, 45).

Araşdırılan problemlə bağlı olan mənbələrdə Şirvanın inzibati və təhsil binalarının göstərilməsi labüd və zəruridir:

Şamaxıda yeni yaradılmış şəhər bağı, qəza məktəbi və tədris müəssisəsi Müqəddəs Nina məktəbi, biri şiə, digəri sünnü olmaqla Məhəmməd məktəbi, hospital, ərzaq dükanı vardır (97,125).

Fabriklərdə öz ucuzluğu və keyfiyyətinə görə bu yerlərdə, hətta Rusiyada böyük satış bazarına malik olan movi adlı yaxşı parça toxuyurdular (97, 125).

Şamaxı quberniya şəhəri olaraq dəniz səviyyəsindən 1921 fut yüksəklikdə yerləşir ,plan əsasında tikilib, yeni adlanır. Yeni şəhər köhnənin xarabalığı üzərində salınıb (96, 125).

Şirvanın əsas çaylarının və yaşayış yerlərinin diqqətə çatdırılması bölgənin özünəməxsus rolunu müəyyənləşdirmək baxımından əhəmiyyətlidir:

Bölgədə Göyçay, Ağsu və Girdiman, Pirsaat çayları əsas çaylar, Ağsu, Şamaxı, Lahıc, Basqal və Xançobanı isə yaşayış yerləri olaraq göstərilir (98, 405 - 409). Payız

və yayda tez – tez baş verən daşqınlar nəticəsində Girdimançayın suyu lilli və bulanıq olur (121, 64).

Nəzərdən keçirdiyimiz mənbələrdə Ağsunun adı önə çıxarılır (97,125).

Verilən məlumata görə məlum olur ki, İvanovka kəndi əhalisinin böyük hissəsini kəndlilər təşkil edir, hansı ki, məhkəmə qərarı əsasında növbə ilə Avropa Rusiyasının Cənub Şərqindən köçürülmüşlər (99, 18).

Paxileviç S. isə inzibati cəhətdən Şamaxı qəzasına daxil olan Altıağac kəndinin (hazırda Xızı rayonunun inzibati ərazi vahidində qəsəbə) təbiəti, fauna və florasından əlavə, təhsil sahəsi haqqında da məlumat vermişdir. Araşdırmalara görə adı çəkilən yerdə 1879- cu ildə normal bir sinifli peşə məktəbi açılmşdı

Peşə məktəbinin ştatında  müəllim, qanunşünaslıq  müəllimi, yerli ruhani fəaliyyət göstərir (109, 94).

XIX əsrdə Bakı quberniyasının Şamaxı qəzasına daxil olan Lahıc kəndi hazırda İsmayıllı rayonunun inzibati ərazi vahidində qəsəbədir. Azərbaycanın əsas misgərlik mərkəzlərindən biri olan Lahıc qəsəbəsində hələ XIX əsrdə misdən hazırlanmış müxtəlif məmulatlar və onların  üzərini incə naxışlarla bəzəyən məşhur Şamaxı ustaları rus məmurlarının gözündən yayınmamışdır:

“5000 nəfər əhalidən,600 həyətdən ibarət Lahıc bütün Şərqi Zaqafqaziyada məşhur olan mis qablar istehsalı ilə məşğuldur. Şamaxı  şəhərinin ustaları isə onların üzərini Şərq zövqünə uyğun olaraq bəzəyirlər” (116, 113).

Rusiya tədqiqatçılarının məlumat xarakterli siyahılarında toponimlərdən az da olsa bəhs olunur: “Göyçay qəzasında Qaraqoyunlu adında türklər tərəfindən məskunlaşmış kənd mövcuddur” (116, 86).

Qeyd olunmalıdır ki, XIX əsrə aid mənbədə adı çəkilən Qaraqoyunlu kəndi hazırda Ağsu rayonunda mövcud iri kəndlərdən biridir.

Mənbədə göstərilmişdir ki, Kürdəmirdə bu və ya digər vaxtlarda mövcud olmuş güclü dini fanatizm yeni sektanın yaranmasının sübutu idi (müridizm, zikrin öyrənilməsi) (116, 98 - 99). Lakin bu doğru deyildir. Şirvanın, o cümlədən Kürdəmir

əhalisinin mənəvi həyatlarında dini fanatizm mövcud deyildi. Bölgənin mənəvi mədəniyyətində, dəyərlərində bəşəriyyətin sivil dini olan İslam dini xüsusi yer tuturdu.

Siyahıdakı statistik bölmə o dövrün şəhər həyatı haqqında da müəyyən məlumat toplamağa və qismən demoqrafik faktların üzə çıxarılmasına kömək edə bilər. Məlumatları nəzərdən keçirdikdə dolğun statistik faktların əks olunduğunu görmək olar:

Bakı quberniyasının Şamaxı şəhərində evlərin sayı 4972,əhalinin sayı 25,087 nəfər idi (onlardan 13999 nəfəri kişi, 11,088 nəfəri isə qadındır). Göyçay qəzasında 9990 həyət var idi, 50,053 nəfər əhali (onlardan 27,509 nəfəri kişi, 22,544 nəfəri isə qadındır) yaşayırdı. Şamaxı qəzasında 10,854 həyət, 71,216 nəfər əhali (38,354 nəfəri kişi, 32,862) siyahıya alınmışdı (116, 100).

Göyçay və Şamaxı qəzalarında kəndlərdə əhalinin (hər iki cins daxil olmaqla) yerləşməsinə nəzər yetirsək, Göyçay qəzasında (şəhərsiz) 1 həyətə orta hesabla 5,01, Şamaxı qəzasında (şəhərsiz) isə 6,57 nəfərin düşdüyünü görərik (116,103).

1869- cu ildə quberniyada cəmi 19 həkim var idi, belə ki, hər 25000- dən çox əhaliyə demək olar ki, 1 həkim düşürdü. Onlardan Şamaxının payına 3 həkim düşürdü, Göyçay qəzasında isə həkim yox idi. Aptek isə yalnız Bakıda və əhəmiyyətsiz dərəcədə Qubada mövcud idi (116, 131). Şamaxı rayonu Çarhan kənd sakini Narınc İsgəndərova valideynlərindən eşitdiyi məlumat əsasında söyləyir ki, XIX əsrdə Şamaxıda həkim yox dərəcəsində idi. Apteklərin mövcudluğu barəsində isə söz açmağa belə dəyməz (136).

1869- cu ildə Bakı quberniyasında mövcud olmuş Şamaxı qəza məktəbi Xalq Maarif Nazirliyinin tabeliyinə daxil idi. Bu məktəbdə isə 7 müəllim işləyirdi, 61 şagird təhsil alırdı. Şamaxı şəhərində isə 3 müəllimin dərs dediyi və 26 şagirdin təhsil aldığı 3 sinifli şəxsi məktəb fəaliyyət göstərirdi. Bundan əlavə Şamaxı şəhərində bəzi dünyəvi məktəblər mövcud idi. Qeyd olunmalıdır ki, Mərəzə kəndində molakan uşaqları üçün məktəb təşkil olunmuşdu. Şamaxı qəza məktəbində təhsil

alanlardan 10- u rus, 17- i azərbaycanl şagird idi. Şamaxıda Pirbudaq məktəbi adlanan məktəb fəaliyyət göstərirdi. Buna baxmayaraq, Azərbaycan kəndlərində məscidlərdə təhsil alan şagirdlər yalnız ərəb dilində təhsil alırdılar (116, 132-133).
1917- ci ilə aid olan təhsil məlumatına görə Şamaxı realnı məktəbində hazırlıq və ibtidai sinifləri yox idi. Pedaqoji şura hazırlıq sinfinin milliləşdirilməsi məsələsini mövcud olmayan məktəb komitəsinin öhdəsinə buraxdı (135, 58).
Azərbaycan Rusiyaya birləşdirildikdən sonra ilk dövrdə Gülüstan və Türkmənçay müqavilələrinə görə Rusiyanın tərkibinə keçmiş xanlıqların başında komendantlar dururdu. Komendant idarəçiliyi dövründə Azərbaycan 6 əyalətə bölünmüşdü. Bu əyalətlərdən biri də Şirvan idi. Şirvan əyalətinin iqamətgahı Şuşa şəhərində olan "Müsəlman əyalətləri"nin hərbi müdirinə tabe idi (131, 1-3).
Bütün Yaxın və Orta Şərqdə olduğu kimi, Azərbaycanda, o cümlədən Şirvan bölgəsində də İslam dini ictimai – siyasi həyatda mühüm rol oynayırdı. XIX-XX əsrin əvvəllərində Şirvanda fəaliyyət göstərən mədrəsələr təhsil və təlim ocaqları hesab olunurdular.
XIX əsrə aid Rusiya tarixşünaslığında Şamaxı qəzasında yaşayan əhalinin təsərrüfat məişəti haqqında bəzi məlumatlar yer almaqdadır. Şamaxı şəhər məktəbinin müdir müavininin verdiyi məlumata görə Şamaxı qəzasının bütün məskunlaşmış yerlərində torpaq, həmçinin iqlim şəraiti kənd təsərrüfatının əksər sahələri ilə məşğul olmaq üçün əlverişli şərait yaratmışdır (103, 31).

İnformatordan aldığımız məlumata görə əkinçilik, maldarlıq Şamaxı və Ağsu rayonlarında kənd təsərrüfatının əsas sahələrindən biri olmuşdur (137).
Rusiyada fəaliyyət göstərən, yazıb – yardan XVIII əsrin məşhur alman səyyahı S.Q.Qmelin epizodik olaraq sənətkarlıq və ticarət baxımından inkişaf etmiş Şamaxı şəhərinin adını çəkmişdir (91, 692).

İ.P.Petruşevskinin qeydlərinə görə Şirvan vilayətində köçəri tayfalar mövcud deyildi (111, 137). Müəllifin Şirvan vilayəti haqqında yazdıqlarından belə məlum olur ki, Salyan və Mahmudabad adı çəkilən vilayətin asılı mahallarıdır (111, 192).

Məlumdur ki, Cənub – Şərqi Şirvan düzündə yerləşən Salyan qəza və quberniya mərkəzinə çevrilmiş Şamaxının tərkibində mahal olaraq mövcud olmuşdur.
İ.P.Petruşevski yazmışdır ki, ... burada (Şirvanda) daha çox Azərbaycan vətənpərvərliyinin qəhrəmanlıq ənənəsi qalmışdır (110, 8).

## 2. Azərbaycanın ictimai – siyasi və mədəni həyatında Şirvanın rolu

Azərbaycan mədəniyyətinin maddi və mənəvi qolları özünəməxsus bölgə xüsusiyyətlərinə malikdir. Tədqiq olunan bölgənin XIX-XX əsrlərdə maddi mədəniyyət, mənəvi mədəniyyət və dünyagörüş dairəsi yüksək inkişaf, məhəlli xüsusiyyət, bəzi spektrlər və səciyyəvi cəhətləri ilə müşahidə olunur.

Şirvan vilayəti, şərq tərəfdən Xəzər dənizi ilə, cənub – qərbdən onu Muğan və Ermənistan (İrəvan) vilayətlərindən ayıran Kür çayı ilə, şimal – qərbdən Qanıq (Alazan) çayı ilə İlisu nahiyəsindən keçən qeyri müəyyən xətlə Qafqaz sıra dağları, Kür və Təbərsəran nahiyələrini Qazıqumuq və Qaytaq məmləkətlərindən ayıran dağ silsiləsi ilə, oradan da, Dərvaq çayı yatağından onun Xəzər dənizinə qovuşduğu yerə qədər uzanan sahə ilə məhduddur (10, 5).

Tarixə nəzər saldıqda görərik ki, Abbasilər xilafətinin zəiflədiyi dövrdə Azərbaycanın quzey torpaqlarında müstəqil Şirvanşahlar dövlətinin meydana gəlməsi mütərəqqi tarixi hadisə idi. Bu dövlətin yaranması Azərbaycanın başqa yerlərində də qədim dövlət ənənələrinin dirçəlməsinə təsir göstərdi (2, 206). Mənbələrin verdiyi məlumata görə, IX əsrin II yarısında xilafətn zəifləməsi nəticəsində Şirvanşahların hakimiyyətinin bərpa edilməsindən sonra yeni hakim sülalənin şərəfinə əl Yəzidiyyə adını almış qədim Şamaxı (Şəmaxiyə) çox keçmədən "binaları daşdan və gipsdən, axar suları, bağları, seyrəngahları olan" (əl Müqəddəsi) bir şəhərə çevrildi (62, 111).

Burada şəhərlər orta əsrlərdə digər Şərq ölkələrinə xas memarlıq xüsusiyyəti daşıyırdı. Şirvanda inşa edilmiş binalar– saraylar, iqamətgahlar, məscid və ziyarətgahlar üslub və bədii tərtibat baxımından Şərq sənət ənənələrinin güclü təsirini özündə əks etdirmişdir, bununla yanaşı bu sahədə özünəməxsusluğun qorunub saxlanıldığını da qeyd etmək lazımdır. Tədqiqatçılar orta əsrlərdə Şirvanşahların paytaxtı Şamaxının Şirvanın mühüm şəhərlərindən birinə çevrildiyini qeyd edirlər (6, 125).

Təsadüfi deyildir ki, bölgənin çiçəklənməsi, iqtidadi yüksəlişi və s. məsələləri XIX

yüzillikdə yaşayıb – yaratmış Məhəmməd Zahid Şirvani öz şeirində ahəngdar bir şəkildə ifadə etmişdir:

Ay ağalar gəlin bir ərz eyləyim,
Ölkələr sütunu bizim Şirvandı.
Gəzməli yerləri, gen oylaqları,
Bütün bağçaları tamam gülşəndi.

Tarixən keşməkeşli həyat yolu keçmiş Şirvan torpağı dəfələrlə yadelli işğallara, basqınlara məruz qalmışdır. Şamaxı, Ağsu şəhərləri dəfələrlə dağıdılmış, yandırılmış, yerlə yeksan edilmişdir. Bu məsələlər dövrünün tarixi hadisələrini öz gözləri ilə görmüş, talan, qırğın və qətllərin canlı şahidi olmuş şairlərin şeir, ağı, bayatı örnəklərində parlaq şəkildə öz əksini tapmışdır. Şirvanın XIX əsrdə yaşamış qadın sənətkarlarından biri Gövhər Şirvaninin şeirində izahlı olaraq deyilir:

... Zalım fələk, səni görüm yanasan,
Qanlara boyandı daşı Şirvanın.
Duman gəlib Fit dağını bürüdü,
Bəlalar çəkibdi başı Şirvanın.

Mirzə Aslan oğlu Rəfiyevin şeirlərindəki nümunələrdə ürək yanğısı ilə deyilir:

Ay ağalar, sizə tərif eyləyim,
Bahar olcaq açır gülü Şirvanın.
Bu yaz qara gəlib, millət ah çəkir,
Düşübdür tapırğa eli Şirvanın.

...Top − topxana gəlir Gəncə elindən,
Ermənini dara çəkin dilindən,
Namus, qeyrət, dövlət gedib
Gör kimə qalıbdı malı Şirvanın?!

Əkinçilik və maldarlıq bölgə əhalisinin başlıca məşğuliyyəti sayılmış, bağçılıq və üzümçülük, arıçılıq kənd təsərrüfatının əsasını təşkil etmişdi. Belə ki, nəzərdən keçirdiyimiz arxiv materialında yazılmışdır ki, Şirvan vilayətində xalqın milli sərvətinin əsas mənbəyini ipəkçilik, sonra isə üzüm, meyvə bağları təşkil edirdi (128, 13). Uzun tarixi dövr ərzində böyük inkişaf yolu keçmiş, yüksək sənətkarlıq cizgilərini özündə əks etdirən Şirvan bölgəsinə məxsus maddi mədəniyyət elementlərinin tədqiqi göstərir ki, bu mədəniyyət Azərbaycan xalqının mədəniyyəti sahəsində baş verən mühüm yeniliklərin intişar etməsində əhəmiyyətli dərəcədə rol oynamış,zəngin Azərbaycan mədəniyyətinin formalaşmasında önəmli yer tutmuşdur.

Şirvan dövrünün elm, mədəniyyət, sənətkarlıq və ticarət mərkəzlərindən bir olmuşdur. Zəngin xammal mənbəyi, bitki və heyvanat aləmi müxtəlif sənətkarlıq və təsərrüfat sahələrinin inkişafına şərait yaratmışdır.

Bölgədə toxuculuq, ipəkçilik, xalçaçılıq, həmçinin, metalişləmə sənəti– dəmirçilik, misgərlik, zərgərlik, daşişləmə, silahqayırma və dulusçuluq sənətləri yüksək səviyyədə inkişaf etmişdir.

Lahıc qəsəbəsi əsasən mis məmulatların istehsalı ilə məşhurlaşmışdı. IX-XII əsrlərdə Şamaxısında şüşə istehsalı çox geniş yayılmışdır, yararlı xammal ehtiyatına malik olan ustalar şüşə qablarla yanaşı, pəncərə şüşəsi də (XII əsrdən başlayaraq) hazırlamışlar (34, 138). Dağlıq Şirvanı açıq səma altında daş əsərlərin memarlıq və memorial muzeyi adlandırmaq olar (105, 4).

Orta əsrlərdə Şirvanda xalçaçılıq sənəti özünün yüksək inkişaf mərhələsinə çatmış, qədim nümunələr dövrümüzədək gəlib çatmışdır.Belə ki, bölgənin xovlu və xovsuz xalça növləri öz bəzək – naxış xüsusiyyəti və istehsal texnikasına görə bir – birindən əsaslı şəkildə fərqlənmiş, əhalinin ev məişətinin əsas müxəlləfatına çevrilmişdir.

Məlumdur ki, xovsuz xalça növlərinə kilim, palaz, şəddə, məfrəş, vərni, heybə, xurcun, xovlu xalça məmulatına isə gəbə, xalı, xalça, canamaz növləri daxildir. Zəngin bədii ornamental xüsusiyyətlərə malik olan Şirvan xalçalarının "Şirvan

buta” motivli bəzək nümunəsi ilə yanaşı bala buta, şah buta, badamı buta, çiçəkli buta, gülabdan buta növləri üstünlük təşkil etmişdir.

Xalçaçılıq sənətinin əsas istehsal ləvazimatlarından biri olan darağın hazırlanmasında dəmirçilər tərəfindən hasilə gətirilən dəmir dişlərdən istifadə olunurdu. 2010-cu ildə Ağsu ərazisində tapılmış yun darağının dəmir dişləri və qalpaq buna əyani sübutdur. IV sahənin 4-cü kvadratından tapıln dəmir dişlər və qalpaq torpaq altında qaldığından oksidləşərək formasını itirmiş, ağac hissə isə çürüyərək məhv olmuşdur. Tapılmış daraq hissələri həm xalçaçılıq sənətinin tarixini, həm də onun texnologiyası və yayılma arealını izləmək baxımından əhəmiyyətlidir (6, 159-160).

Bədii – texniki xüsusiyyətlərinə görə Azərbaycanda mövcud olan dörd böyük xalçaçılıq məktəbindən biri də Quba – Şirvan xalçaçılıq məktəbidir. Şirvan xalçalarının 25-ə qədər çeşnisi vardır. Çeşni rəngarəngliyinə görə xalçalar bir – birindən fərqlənir: “Şirvan”, “Şamaxı”, “Ərçiman”, “Mərəzə”, “Şilyan”, “Bəndirumi”, “Namazlıq”.

Bölgədə rəngarəng və zəngin xüsusiyyətlərə malik olan tikmə sənəti peşəkar Şirvan sənətkarları arasında geniş yayılmışdır. Qədim ənənələrə malik bədii tikmə sənəti Şamaxı qadınlarının əsas peşələrindən birinə çevrilmişdir. Güləbətin, pilək, zərənduz, təkəlduz, xanduz, pilək, oturtma və muncuqlu bədii tikmə növləri öz orijinallığı ilə seçilərək Şirvan əhalisinin geyim və məişət örtüklərinin əsas bəzəyini təşkil edirdi. Belə ki, verilən məlumata əsasən, XVII əsrdə bədii parça istehsalının Şamaxı əhalisinin əsas peşələrindən birinə çevrildiyini Avropa səyyahı Adam Oleari də xəbər verir. Orta əsr bədii tikmə sənətinin istehsal mərkəzləri arasında ..., Şamaxı və s. şəhərlər mühüm yer tuturdu. XIX əsrdə Azərbaycan tikmə sənəti əsasən Şamaxı, ...şəhərlərində cəmləşirdi. Azərbaycan bədii tikmə sənəti XIX əsrdə başlıca olaraq iki istiqamətdə: Şəkidə – qüllabduzluq, Bakı və Şamaxıda isə güləbətin tikmə üzrə inkişaf edirdi. Güləbətin tikmə üsulu Şamaxı, ... şəhərlərində inkişaf etmişdi. XIX əsrdə zərənduz tikmə sənəti ilə daha çox..., Şamaxı və Lahıcda məşğul olurmuşlar (3, 496-500).

Orta əsr tarixçiləri də öz əsərlərində Azərbaycanda, xüsusilə..., Şirvan əyalətlərində əhalinin ipəkçiliklə məşğul olduğunu yazmışlar. Ipək baramasının bolluğu Şamaxını mühüm ipəkçilik mərkəzinə çevirmişdi. O zaman ipək Azərbaycanı Böyük İpək yoluna bağlayan bir vasitə, ölkə ixracının başlıca göstəricisi idi. Azərbaycan şəhərləri..., Şamaxı xilafətin şimal və şərq ölkələrini birləşdirən beynəlxalq ticarət yollarında yerləşirdi (25, 43).

Şirvanın beynəlxalq ticarət əlaqələri geniş idi, bölgənin Şərqdəki satış bazarlarında nüfuzu və rolunun iqtisadi və siyasi amillərə təsir etdiyini də qeyd etmək yerinə düşərdi. Ərəb mənbələrinin "Şirvan ölkəsinin baş şəhəri" adlandırdıqları Şamaxı o dövrün beynəlxalq əhəmiyyətli ticarət mərkəzlərindən biri sayılırdı (25, 43). Kontariniyə görə, Şamaxı ipəyi Venesiyada Talaman ipəyi adı ilə tanınırdı. Şamaxıda saya çeşidli toxuma ipək parçalar istehsal edilirdi. Şirvanşah dövlətinin paytaxtı Şamaxı həm də beynəlxalq ipək ticarəti mərkəzlərindən biri olmuşdur. Şirvanşah dövlətində istehsal olunan ipək Venesiyada, Bursada, Dəməşqdə, Kaşanda, bir sıra başqa ölkələrdə satılırdı (2, 307). Şirvanda şarbaflıq sənəti də qədim tarixə malikdir. Tədqiq olunan dövrdə əksər ailələr evlərində şəxsi ehtiyaclarını ödəmək üçün ipək və ya yun parça istehsal edirdilər. Bununla yanaşı ayrı – ayrı şəxslərin xüsusi ipək karxanası da var idi. 1841- ci ilə aid sənədlərin birində Şirvan qəzasında 74 ipək karxanasının olduğu xəbər verilir. K.A.Satuninin yazdığına görə,1895-1896- cı illərdə Basqalda11 ipək karxanası qalmaqda idi (25, 58). Arxeoloqlar tərəfindən ipək parçaların daha erkən dövrə aid qalıqları Azərbaycan ərazisində I əsrə aid Şamaxıda küp qəbirdə tapılmışdır.

Şirvan öz əlverişli mövqeyi ilə Azərbaycanın ictimai – siyasi və mədəni həyatında, Şərqin müsəlman ölkələri ilə hərtərəfli əlaqəsində, Azərbaycanda, eləcə də Qafqazda sufizmin inkişafında əhəmiyyətli rol oynamışdır. Azərbaycanda, o cümlədən, Şirvanda mövcud olan sufi mərkəzlərindəki epiqrafik materiallar bunu aydın şəkildə sübut edir. Bəlli olduğu kimi Şirvanda sufizmin nəqşibəndilik təriqəti Kürdəmir rayonunda meydana çıxmış və formalaşmışdır. 1847- ci ildə vəfat edən Şeyx İsma-

yıl Siracəddin Şirvaninin türbəsi Amasiyanın Şamlar məhəlləsindədir. Təsadüfi deyildir ki, Şirvan bölgəsinin adını daşıyan Şirvan camesi Amasiyada inşa olunmuşdur. Şeyx İsmayıl Siracəddin 9 il Şirvanda sufizmi təbliğ edir. Şeyx İsmayılın vasitəsilə müridizm Azərbaycanda, ... geniş yayılmış və xalqın çar Rusiyasının ağır müstəmləkəçilik siyasətinə qarşı illərlə mübarizə aparmasına rəhbərlik etmişdir(53, 165). Qeyd etmək yerinə düşərdi ki göstərilən dövrdə Şirvan əhalisi İslami dəyərlərə üstünlük verir, dinin bütün qayda və qanunlarına sözsüz əməl edirdilər.

Məlumdur ki, XII əsrdə yaşayıb – yaratmış şair Əfzələddin Xaqaninin əmisi məşhur təbib və filosof Kafiəddin Ömər ibn Osmanın Şamaxıda – Məlhəm kəndində tibb mərkəzi olmuşdur. Bəzi məlumatlara görə həmin tibb mərkəzi Şərqin məşhur tibb mərkəzlərindən biri– Məlhəm Tibb Akademiyası kimi şöhrət qazanmışdır. Kafiəddin Ömər ibn Osmanın Məlhəmdə yaratdığı Mədrəseyi –Tibb (Tibb Mədrəsəsi) şəfa ocağı dövrünün əhəmiyyətli tibb stasionarı olmuşdur.

Səsi, sözü ilə şairlər, xanəndələr, aşıqlar məkanı olan Şirvan bölgəsi Azərbaycanın ədəbiyyat aləminə qüdrətli dühalar bəxş etmişdir. Bədii – fəlsəfi və poetik düşüncə sahəsində Əfzələddin Xaqani Şirvani, Fələki Şirvani, İzzəddin Şirvani və Zülfüqar Şirvani, İmadəddin Nəsimi, Bədr Şirvani, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir son dərəcə, zəngin bir ədəbi irs qoyub getmişlər. Azərbaycan etnoqrafiyası əsərində (3) yazılmışdır ki, Xaqani Şirvani vətəni ana ilə eyniləşdirir: "Şirvan ki, var, ülviyyətin anasıdır" adlandırır. Vətəni sevməyi, onu qorumağı və qoynunda qərar tutmağı xoşbəxtlik sayır. O, bir tərəfdən Yaxın və Orta Şərq ədəbiyyatında saray şerinin gözəl nümunələrini yaratmış və dövrünün hökmdarlarına mübaliğəli təriflərlə dolu şeirlər həsr etmiş, digər tərəfdən saraylara, qolu və hökmü güclülərə qarşı mübarizə ruhlu,coşqun etiraz, üsyan səciyyəli əsərlər yazmışdır (3, 308).

Şirvan söz sənətinin istedadlı yetişdirmələrindən biri olan Bədr Şirvaninin türkcə yaratdığı bədii incilər çox dəyərli və əvəzsiz ədəbi – tarixi nümunədir. Nəsimi və onun kiçik çağdaşı Bədrin, Şirvan torpağının bu iki böyük yetirməsinin yaradıcılığı bu bölgənin Azərbaycan türk mədəniyyətinin başlıca beşiklərindən biri və əsası ol-

duğunu göstərməkdədir (2, 348).

Şamaxılı Hacı Zeynalabdin ibn Axund İskəndər Şirvani dövrünün məşhur səyyah və coğrafiyaşünası, filosof və etnoqrafı olmuşdur. Zeynalabdin Şirvani 1780-ci ildə Şamaxıda anadan olmuşdur.İlk təhsilini Kərbəla şəhərində almış, mükəmməl təhsil almaq üçün isə Bağdad şəhərinə yollanmışdır. Şamaxılı Zeynalabdin Şirvani 40 il davam edən səyahəti zamanı İran, Kiçik Asiya, Orta Asiya, Ərəbistan, Sudan, Cənubi Afrika və Hindistanda tədqiqatlar aparmış, bu ölkələrin coğrafi təsvirinə ciddi önəm vermişdir.

Şirvan elinin istedadlı alimi Zeynalabdin Şirvani özünün"Riyazüs–səyahət", ("Səyahət bağçaları"), "Hədaiqüs– səyahət" ("Səyahət bağları") və "Bustanus–səyahət" ("Səyahət gülzarı") əsərlərində bu ölkələrin tarixi, etnoqrafiyası, coğrafiya və memarlığı barədə olduqca dəyərli və faktik məlumatlar vermişdir.

Şirvan ədəbi aləminin maarifçi təbiət keyfiyyətlərindən irəli gələn mənəvi – əxlaqi, sosial – siyasi və ideya – estetik prinsipləri əsərlərin çalarlarında aydın şəkildə nəzərə çarpır. Əsərləri yüksək elmi və sənətkarlıq səviyyəsində yazılan bu şair və ictimai xadimlərin hər birinin dövrünə görə Azərbaycanın ədəbi mühitinin inkişafında öz yeri vardır. XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın ədəbi – ictimai aləminə yeni düşüncəli birziyalı təbəqəsi gəlməkdə idi. Bu ədəbi – ictimai aləmdə Şirvan bölgəsinin ədəbi mühitinin də önəmli yeri olmuşdur. Bu dövrdə bölgədə S.Ə.Şirvani, M.Ə.Sabir, H.Zərdabi, S.Ünsizadə, M.Hadi və b. qüdrətli yazıçı və şair nümayəndələr yetişmişdilər. Zəmanəsinə görə yeni tipli məktəbi Seyid Əzim Şirvani hələ 1870-1871- ci illərdə Şamaxıda açmışdı. Səid Əfəndi Ünsizadənin təşəbbüsü və vasitəçiliyi ilə Şamaxı ruhani məclisinin nəzdində 1875-ci ildən fəaliyyətə başlayan "Məclis məktəbi"ndə də dünyəvi elmlərə (o dövrdə mövcud olan digər məktəblərə nisbətən) geniş yer verilirdi. S.Ünsizadə Şamaxıda məscid məktəblərini, ruhani məclisini qaydaya salır, eyni zamanda dünyəvi elmlərin yayılması və mənimsənilməsi üçün tədbirlər tökürdü.

M.Ə.Sabir milli – mənəvi həyatın tərəqqi etməsi, cəhalət və nöqsanların aradan

qalxması üçün öz şeirləri ilə insanlara hərtərəfli təsir etməyə çalışır, bütövlükdə, ictimaiyyətin əxlaqına mənfi təsir göstərən amilləri sərrast, kəskin bir hədəflə, satira üslubu ilə göstərməyə çalışırdı. Şair maarifin və mədəniyyətin yüksəlişini yalnız elmdə görürdü:

Elmin izzəti payidar olur,
Cəhlin nisbəti canşikar olur;
Hər kəs elm oxur, bəxtiyar olur,
Millət elm ilə bərqərar olur.
Oxuyun, əzizlər, oxumaq zamanıdır!
Oxumaq hər adamın ədəbi nişanıdır!
Elm ilə sərəfraz olmasaq biz,
Cümlədən biniyaz olmasaq biz,
Bizdə fəxrü mübahat olurmu?
Qeyrilərə müsavat olurmu? (11, 127)

Sabir maariflə əlaqədar tövsiyə xarakterli şeirlər də yazırdı. O, 1907- ci ilin avqustun 25- dən sentyabrın 5- dək keçirilən II Müəllimlər qurultayı haqqında yazdığı "Müəllimlər siyezdi" adlı satirasını Molla Nəsrəddin jurnalına göndərdi:

Zənnimcə mənim, iş bu yığıncaqda həmana
Bildirki məsail yenə təkrar olacaqdır.
Təşkil edəcəklər kişilər məktəbi – nisvan,
Qızlar oxuyub cümlə şərəfdar olacaqdır.

Hər şəhrdə bir məktəbi – sənət açacaqlar,
Oğlanlar alıb həndəsə, memar olacaqdır.
Tətbiq edəcəklər yazını şiveyi – türkə,
Sibyan da sühulətlə xəbərdar olacaqdır.

Təsnif olunub tazə kütubtürk dilində,
Hər kəs oxuyub elmlə bidar olacaqdır (11, 158).

Ədəbi mühit bütövlükdə, xalqın mənəvi dünyasının tərkib hissəsidir. Belə ki, ədəbi mühitin öyrənilməsi onun mənəvi mədəniyyətdə oynadığı rola aydınlıq gətirməyə, xalqın milli təfəkkürünün ifadəsini əks etdirməyə imkan verir.

Qədim Azərbaycan mədəniyyətinin, onun mənəvi aləminin, ədəbi və tarixi–mədəni ruhunun yaranması və formalaşmasında şübhəsiz zəngin ədəbi ənənələrə malik Şirvan bölgəsinin də rolu vardır. Həmin dövrdə Şirvan ədəbi mühiti ümum Azərbaycan ədəbi mühitinin tərkib hissəsi olmaqla yanaşı, sözün geniş mənasında milli təfəkkür, ədəbiyyat, məktəb və maarif, qəzetçilik sahələrində təkzibedilməz rol oynamışdır. Heç təsadüfi deyildir ki, XIX əsrdə Azərbaycanın ictimai mühitində və mədəni həyatında silinməz izlər buraxan və Azərbaycanda nəşr olunan "Əkinçi", "Kəşkül", "Ziya" (Ziyayi – Qafqasiyyə) adlı əsas mətbuat orqanlarının təsisçiləri, baş redaktor və naşirləri Şirvan mühitindən çıxmış ziyalılar idi. Şübhəsiz ki, bölgənin qabaqcıl ziyalıları vəziyyətdən çıxış yolunu konkret olaraq mətbuat şəbəkəsinin genişləndirilməsində görürdülər. Şirvan ədiblərindən və ziyalılarından əsasən S.Ə. Şirvani, M.Ə.Sabir, M.H.Didə, M.Hadi, A.Səhhət, S.M.Qənizadə, S.Ünsizadə və C.Ünsizadə qardaşları, H.Zərdabi, M.Mahmudbəyov öz fəaliyyət dairələri ilə Azərbaycanın milli – mədəni həyatında və ictimai– psixoloji sferanın tərəqqisində müstəsna rol oynamışlar. Onlar yalnız ədəbi fəaliyyətlə və yazıb – yaratmaqla məşğul olmurdular, elmi – nəzəri və əməli şəkildə əsaslı fəaliyyət göstərir, həm də praktik olaraq yeniliyə can atırdılar. Demək olar ki, qeyd olunan məsələlərdə qabaqcıl dünyagörüşləri, istedadları, mədəni tərəqqi naminə faydalı fəaliyyətləri, məktəb və maarif sahələrində əldə etdikləri nailiyyətləri ilə seçilən bu ziyalılar o dövrki Azərbaycan cəmiyyətində aparıcı rol oynamış şəxsiyyətlərdən hesab olunurdular.

Onların qabaqcıl fəaliyyətlərinin səciyyəvi cəhətləri elmi, maarifi yaymaq, mövhumatdan uzaq durmaq, məktəb və təlim – tərbiyə üsulunda yenilik yaratmaq,

mədəniyyət sahəsində zamanın tələbinə uyğun olan islahat aparmaqdan ibarət idi. Qeyd olunmalıdır ki, bu məsələlərin üzə çıxarılıb öyrənilməsi şübhəsiz ədəbi – ictimai fikir tarixinin araşdırılmasında daha geniş tədqiqatlara yol aça bilər.

XIX əsrin ikinci yarısında görkəmli Azərbaycan maarifpərvərləri S.Ə.Şirvani, H.Zərdabi, M.Ə.Sabir və M.Hadi mütərəqqi çıxışları ilə seçilirdilər (126, 23).

XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif şəhərlərində ...Şamaxıda dövlət tərəfindən açılmış müəyyən cəmiyyətlər, xüsusi şəxslər tərəfindən açılmış ibtidai və orta məktəblər, kişi və qadın gimnaziyaları, progimnaziyalar, texniki məktəblər, “Russki − tatarski”, “realni uçilişe” adlanan məktəblər, “Rus – müsəlman qız məktəbləri” və s. haqqında məlumat vermişdir (127, 1). ...H.B.Zərdabinin tariximizlə bağlı bəzi məqalələri, S.Ə.Şirvaninin Şirvan xanlığının tarixi haqqında əsərləri də tarix elminin inkişafında əhəmiyyətli rol oynadı (3, 292-293).

Adı çəkilən ziyalılardan S.M.Qənizadə və M.Mahmudbəyov Qori müəllimlər semi -naryasının məzunları olmuşlar. Həmin dövrdə Şirvan bölgəsində mədəni − maarif, tədris, təlim − tərbiyə, kitabxana və s. sahələrdə müəyyən qədər irəliləyiş nəzərə çarpır, milli − mədəni şüur səviyyəsinin yüksəldilməsinə yönəlik tədbirlər həyata keçirilirdi. Belə ki, “Şamaxının Əliməmməd Mustafayev, Baba bəy Səfərəlibəyov kimi ziyalıları Bakıda və digər yerlərdə işləsələr də, öz ana yurdlarının inkişafı üçün əllərindən gələni edir, yerli həvəskarlar tərəfindən müsəlman qiraətxanasının mənfəətinə verilən tamaşanın və kitabxana− qiraətxana təşkilində digər işlərdə çalışmaqla bərabər, oradakı yeni tipli məktəblərdəki dərslərdə iştirak edib müəllimlərə elmi – pedaqoji məsləhətlər verir, özləri də nümunə dərsi deyirdilər (11, 33).

Bu ziyalıların təşkil etdikləri cəmiyyətlərdən biri də Şamaxıda açılan ilk müsəlman kitabxana− qiraətxanasının fəaliyyətinin tənzimlənməsinə və digər mədəni− kütləvi tədbirlər keçirilməsinə xidmət edirdi. Həmin cəmiyyət Ə.Mustafayevin göstərdiyinə görə, 1908-1909- cu illərdə yaradılmışdır” (11, 133).

XIX-XX əsrin əvvəllərində Şirvan bölgəsində yeni tipli məktəblər açılır, mədrəsələr qaydaya salınır, kitabxana və qiraətxanalar təşkil olunur, elmin müxtəlif müxtəlif sahələrinə aid dərsliklər nəşr olunurdu. Qabaqcıl və vətənpərvər ziyalıların sistemli fəaliyyəti nəticəsində maarif və mədəniyyət tərəqqi etmişdi.

Bu dövrdə Azərbaycanda biologiya, kənd təsərrüfatı və təbabət sahələri üzrə elmi biliklərin yayılması və inkişafında Moskva universitetini fərqlənmə diplomu ilə bitirmiş və alimlik dərəcəsi almış Həsən bəy Məlikov Zərdabi böyük rol oynadı.

Onun elmi yaradıcılığı müasiri olduğu rus və Avropa alimlərinin təbiət elmləri üzrə tədqiqatları ilə sıx bağlı idi. H. Zərdabi Azərbaycan milli mətbuatın yaradılması, inkişafı, həmçinin yayılması istiqamətində mühüm xidmətləri olan şəxsiyyət olaraq bu sahədə geniş fəaliyyət göstərən qəzetçi kimi şöhrət qazanmışdı. O, Azərbaycanda milli mətbuatın banisi, mütərəqqi, qabaqcıl fikirli insan və görkəmli maarifpərvər olaraq tanınmışdı. 1875- ci ildə Azərbaycan mədəniyyətində mühüm hadisə baş verdi: Həsən bəy Zərdabinin səyi nəticəsində "Əkinçi" qəzeti təsis edildi. Qəzetdə cəmiyyətin tərəqqisi üçün xeyli səmərəli məqalələr nəşr olunur, xalqın dünyagörüş dairəsinin inkişafına yönəlik məsələlər işıqlandırılırdı. 1875-1877- ci illərdə qəzetin cəmi 56 nömrəsi çıxdı (1, 618).

Çar Rusiyasında 1865-ci ildə qəbul olunmuş "Senzura haqqında qəti qanun"dan sonra mətbu nəşrinin qeydə alınması və çapı olduqca çətin iş idi. Çar idarələrindəki süründürməçilik, hərc – mərclik Zərdabinin qəzet nəşr etmək arzusunu uzun müddət çin olmağa qoymadı. Zərdabinin rəsmi orqanlara ilk müraciəti 1873- cü ilin aprel ayında oldu. Maliyyə vəsaiti əldə etdikdən sonra H.Zərdabi Bakının qubernatoru, general – mayor D.S.Staroselskiyə ərizə ilə müraciət edərək qəzet nəşrinə icazə istədi (3, 16). Bu məsələyə toxunan Zərdabi yazır: "Mən ona (yəni Staroselskiyə – red) fərzimi deyəndən sonra məsləhət gördü ki, qəzetin adını "Əkinçi" qoyum ki, guya, məhz əkin və ziraətdən danışacaq və özü də boynuna çəkdi ki, senzorluğunu qəbul eləsin. Bu tövr ərizə verib icazə aldım". Azərbaycan milli mətbuatının əsasını təşkil edən bu mətbu nəşrin adının "Əkinçi" olması, şübhəsiz ki, çar rejiminin

fikrini qəzetin daşıyacağı əsas ideya istiqamətindən yayındırmaq məqsədi güdürdü (7, 16-17).

Hansı məsələlərin qəzetdə əksini tapacağı sualına "Əkinçi"nin ilk nömrəsində Zərdabi cavab verdi və bəlli oldu ki, qəzetin məramnaməsi belə olacaqdır:

1. Daxiliyyə – buradakı məqalələr qəzetin münşisi tərəfindən yazılacaqdır.

2. Əkin və ziraət xəbərləri – yəni, bizim, ya qeyri vilayətlərdə olan əkinçilərdən. Onları becərmək, vaxtında işlədilən əsbablardan, əkin yerini şum etməkdən, əkin yerini qüvvətli etməkdən ötrü o yerə qeyri şeylər qarışdırmaqdan, xülasə, əkindən və əkini biçib, götürüb, qurudub, döyüb saxlamaqdan danışıq olacaqdır. Həmçinin bu ikinci fəsildə maldarlıqdan, mallardan əmələ gələn şeylərdən danışıq olacaqdır, yəni bizim və qeyri– vilayətlərdə nə qisim mallar saxlamaqdan və ya nə tövr saxlamaqdan və onlardan əmələ gələn şeyləri nə tövr yaxşıraq əmələ gətirməkdən danışılacaqdır.

3. Elm xəbərləri – yəni elm və imtahan yolu ilə aşkar olan, məsələn, insanın bədəninə və malına nəfi olan xəbərlərdən danışılacaqdır.

4. Tazə xəbərlər – bir neçə qism olacaqdır, əvvələn ticarət xəbərləri olacaq, yəni, bizim vilayətimizdə və qeyri vilayətlərdə bir şey, məsələn, buğda– filan şəhərdə, ya filan kənddə nə qiymətə və nə tövr satılmaqdan xəbər verəcəkdir və s (7, 17) .

"Əkinçi" Bakıda çap olunsa da, tezliklə ümumrusiya müsəlmanlarının qəzetinə çevrildi. Onu Dağıstanda və Volqaboyunda, Mərkəzi Asiya və Sibirdə oxuyurdular. Hənifə xanım Abayeva öz xatiratında "Əkinçi"nin yayıldığı geniş coğrafiyaya toxunaraq yazırdı: "Qəzet Rusiyadakı bütün müsəlmanları yerindən tərpətmişdi. O, bir elektrik cərəyanı kimi bütün müsəlman aləminin içərisindən keçmişdi... Qəzetin ilk abunəçiləri, onu birincilər sırasında salamlayanlar Omskdan, Tümendən, Cistopoldan olan sibirlilər, Orenburq, Ufa, Volqaboyu tatarları idilər" (7, 17). "Əkinçi" nin sorağı Londona da gedib çıxmışdı. Bakıya gələn bir fransız müxbiri isə H.Zərdabinin təkbaşına qəzet çap etdiyini öyrənib onun ziyarətinə getmiş və demişdir: "Siz həqiqi qəhrəmansınız. Bizdə belə bir kasıb qəzetdə işləməyə razı olan bir nə-

fər də tapılmazdı. Sizin enerjinizə heyranam. Görünür, öz xalqınızı ürəkdən sevirsiniz” (7, 17-18).

Böyük Azərbaycan şairi Mirzə Ələkbər Zeynalabdin oğlu Tahirzadə (1862-1911) qədim Şamaxı şəhərində anadan olmuşdur. Azərbaycanın ədəbiyyat aləmində böyük xidmətləri olan mübariz ruhlu şair satira və tənqid yağan şeirlərini “İrşad”, “Həyat”, “Şərqi Rus”, “Zənbur” və s. mətbu orqanlarında nəşr etdirmişdir. M.Ə.Sabir H.Zərdabinin mətbuat və tərəqqi sahəsində çəkdiyi zəhməti öz şeirlərində canlandırmağa müvəffəq olmuşdur:

Məlikov, o Həsən bəyi − zişan,
O əmini − xazineyi − ehsan,
Elmü fəhmü kəmalilən mümtaz.
Sineyi − safi kafi − löloi − raz;
Hünəri fəzldir, ədəb kari,
Əqli pakizə, hüccət iqrari.

Göründüyü kimi Sabirin şeirlərində daima satira görürük, lakin bununla bərabər, maarifpərvər və fəzilətli şəxslərə qarşı rəğbət və yüksək qiymətləndirmə hisslərinin əks olunduğu şeir nümunələrinə də rast gəlmək olar.

Sabirin poetikasında həm də bir yanğı görünür. Şairə görə xalqın tərəqqisi, inkişafı və mərifət kəsb etməsi üçün ancaq və ancaq elm öyrənmək və fəzilət sahibi olmaq gərəkdir. Bu meyli vətən övladlarında qüvvətləndirmək və dərk etdirmək üçün böyük şair yazırdı:

...Var ümidim ki, əxtəri − iqbal
Övci məqsuddə tuta məva;
Ola bidar talei − məsud,
Açə minbəd dideyi − şəhla;
Ola kəsbi − ülumə səyi − bəliğ,
Qıla təhsili − elm sübhi − məsa.

İndi bir əsrdir ki, elm gərək!
Dolub alati – elmnən dünya (4, 106).

Şairin bu xüsusda başqa şeirləri də nəzərə çarpır:

Ah kim, xabi – qəflət ilə bizim
Ömri – pürmayəmiz keçibdi rəna.
Dolub elm ilə sahəti – aləm,
Bizə yox bəhrə elmdən əsla.
Rəmz həl – yəstəvi müdəlləldir,
Bir deyil şəxsi – gurlən bina.
Kəsbi – elmə səbəb fərahəmdir,
Sabira, bir zaman ayıl, yatma! (11, 107).

Sabirin satira üslubu bir tərəfdən cəmiyyətin eybəcərliklərini və geriliyi açıb göstərməyə yönəlmişdisə də, digər tərəfdən də cəhalət və mövhumatın aradan qalxması, ictimai əxlaqın saflaşması, xalqın savadlanması və dünyəvi elmlərin mənimsənilməsi üçün bir çağırış, vasitə idi.

M.Ə.Sabirin satira ilə əks olunmuş şeirlərinə nəzər yetirsək, bu şeirlərdə istehzalı gülüşdən daha çox hüzn dolu qəh – qəhlərin əks olunduğunu görərik:

Bilməm nə görübdür bizim oğlan oxumaqdan?!
Dəng oldu qulağım.
Jurnal, qəzetə, hərzəvü hədyan oxumaqdan
İncəldi uşağım.
...Heyhat ki, tədbir ola bu xanəxərabə,
Zail olub əqli.
Dərsə, qəzetə, məktəbə, jurnalə, kitabə
Mail olub əqli.
...Quldurluğa yox, elmə tərəf eşqə düşübsən,
Bu qübhü qanaydın!
Ey nuri – duçeşmim, oxumaqdan həzər eylə,

Saleh vələd ol, gəl!
At min, hünər öyrəş, məni də bəxtəvər eylə,
İşdə bələd ol, gəl!
Bəsdir oxudun, az qala canın tələf oldu,
Bu kardan əl çək! (58, 30-33).

Şeirdə dərin məzəmmət, kəskin istehza, cəhalət və ətalət ruhu bir daha nəzərə çatdırılır:

Yazmaq, oxumaq, başına əngəl − kələf oldu,
Əşardən əl çək!
Min elm oxuyub söz biləsən, hörmətin olmaz
Bu dari − cahanda;
Söz bəhrinə gövhər olasan, qiymətin olmaz
Xasə bu zamanda.
Yox, yox, baxıram fikrinə, səndən oğul olmaz,
Canın bəcəhənnəm!
Mırt − mırt oxumaqdan, kişi, bir qan ki, pul olmaz!
Mırtılda dəmadəm,
Qıl elm fərahəm,
Ol qüssəyə həmdəm;
Ömrün olacaq kəm (58, 33).

Şeirlərini əsasən "Hophop" imzası ilə çap etdirən şairin yaradıcılığı Azərbaycanın elmi ictimaiyyət mühitində rəğbətlə qarşılanmışdı. Yaradıcılığı türkdilli və farsdilli xalqlar ədəbiyyatına qüvvətli təsir göstərmişdir (56, 156).

Adları çəkilən ədiblər yalnız ədəbi fəaliyyətlə məşğul olmurdular, məktəb və təlim − tərbiyə sahəsində də əsaslı işlər görür, əhalinin savadlanmasında və dünyəvi elmlərin yayılmasında da bir xeyli çaba sərf etmişdilər. Azərbaycanda yeni üsullu orta məktəblərin yaradılması istiqamətində də quberniya mərkəzi kimi Şamaxı ön plana keçdi. Belə ki, 1854- cü ildə Şamaxıda dörd sinifli ali ibtidai məktəbin açıl-

ması buradakı gənclərin və yeniyetmələrin orta təhsil almaları üçün mükəmməl şərait yaratmışdı. Qeyd etmək yerinə düşərdi ki, görkəmli təbiətşünas alim H.B. Zərdabi məhz bu məktəbdə pərvazlanmış və inkişaf etmişdir. Quberniya mərkəzinin Bakıya köçürülməsi məsələsi bu məktəbin də istər – istəməz Bakıya köçürülməsini labüd etdi və Bakıda 1865- ci ildə bu məktəbin bazası əsasında Azərbaycanda qabaqcıl, ilk orta məktəb – gimnaziya yaradıldı (56, 157).

1869- cu ildə Seyid Əzim Şirvani Şamaxıda üsuli – cədid məktəbi açmağa nail oldu. Bu məktəbdə də təlim ana dilində aparılırdı, eyni zamanda fars və rus dilləri də tədris edilirdi. S.Ə.Şirvani həm də uşaqlar üçün dərslik tərtib etmişdi. Bu dərsliyin bəzi hissələri A.Çernyayevskinin Vətən dili dərsliyinə daxil edilmişdi (3, 291).

Şamaxıda 1847- ci ildə "Müqəddəs Nina" qız məktəbinin açılması azərbaycanlı qızların maariflənməsi, qızların geniş miqyasda təhsilə cəlb edilməsi yönündə əhəmiyyətli rol oynadı. Lakin 1859- cu ildə Şamaxıda baş vermiş zəlzələ quberniya mərkəzinin Bakıya köçməsinə rəvac verdi və bununla əlaqədar olaraq "Müqəddəs Nina" qız məktəbi də Şamaxıdan Bakıya köçürüldü. XIX əsrin ikinci yarısına aid materiallarda qeyd olunmuşdur:

Göyçay qəzasının İvanovka kəndində 1887-ci ilə qədər ictimai məktəb mövcud idi. Məktəbdə yalnız oğlanlar deyil, qızlar da təhsil alırdılar. Bu məktəbin nəzdində 1 sentyabr 1887- ci ildə birsinifli kənd peşə məktəbi təşkil olunmuşdu. Bu peşə məktəbində fundamental kitabxana da təşkil olunmuşdu (99, 286-287).

Azərbaycanın məktəb tarixində çox mühüm yer tutan rus – Azərbaycan məktəbinin yaradılması və inkişafı isə Şamaxılı Sultanməcid Qənizadənin, Həbib bəy Mahmudbəyovun adları ilə bağlıdır. Tiflis Aleksandrovsk Müəllimlər İnstitutunun məzunu olan bu iki gənc müəllim 1887- ci ildə Bakıda birsinifli xüsusi rus – Azərbaycan məktəbi təşkil etdilər. Məktəbin Qafqaz təhsil dairəsi tərəfindən təsdiq edilmiş tədris planında rus olmayan əhali arasında ibtidai məktəbin tədris planının rəhbər tutulması və rus dilinin tədris edilməsi vacib şərt kimi qoyulmuşdu (3, 286).

Göstərilən dövrdə Şirvan bölgəsində yeni üsullu məktəblər açılırdı, lakin bununla

bərabər köhnə məktəblərdə də islahatlar aparılır, istedadlı və qabiliyyətli mütəxəssislər dəvət olunur və tədrisin keyfiyyətini yüksəltməyə fikir verilirdi. Bununla əlaqədar olaraq bəzi məlumatlarda deyilir: "... Şamaxı Cümə məscidinin təəllüqündə olan təlimin səviyyəsini yüksəltmək üçün qabil müəllimlər olmadığına görə Göyçay uyezdinin Diyallı kəndində yaşayan Hacı Əbdülməcid əfəndi Hacı Mustafa Əfəndizadəni dərs deməyə dəvət ediblər. Qəzet ümid edirdi ki, Hacı Məcid Əfəndi kimi alim – fazil bir adam şamaxılılara əlindən gələn köməyi edəcək, bunun müqabilində Şamaxı əhli də daim minnətdarlıqla onun hörmətini saxlayacaqdır. Sonralar Şamaxı qazisi kimi yüksək hörmət və nüfuz qazanan bu adamın 1880- ci ildə şəhərə yüksək ixtisaslı bir kadr kimi dəvət olunması faktı, Hacı Məcid Əfəndi Şamaxıya bir ruhani mütəxəssis kimi çağırılması, şamaxılıların o dövrdə mövcud olan hər hansı tədris ocağında təlimin keyfiyyətini yüksəltməyə xüsusi fikir verdiklərini göstərməkdədir" (11, 44-45).

Seyid Əzim Şirvani (1835-1888) Şamaxıda ruhani ailəsində anadan olmuşdur. Seyid Əzim Şirvanini yalnız xalqı cəhalətdən qurtarmağa çalışan istedadlı şair kimi deyil, həm də pedaqoji fəaliyyətlə məşğul olan mükəmməl məktəbdar və dərslik yazan yaradıcı alim, qabaqcıl, tərəqqipərvər çıxışları ilə mətbuatda çıxış edən ictimai xadim kimi xarakterizə etmək olar. Bütün bunları nəzərə alaraq qeyd etməliyik ki, Şamaxının bu böyük şair və ictimai xadimi nəinki Şirvan bölgəsi mühitində və bütövlükdə ümum Azərbaycan mühitində milli – mənəvi tərəqqi prosesinin inkişafında bir aydın rolunu oynamışdır. Şairin yaradıcılığının əsas mərhələsində lirika, tənqidi satirik şeirləri üstünlük təşkil etmişdir. Azərbaycanda, uşaqlar üçün ədəbi əsərlər hələ orta əsrlərdə yaradılmışdır. Yeni dövrdə– bu sahədə fəal çalışanlardan biri də Seyid Əzim idi. Onun tərtib etdiyi dərsliklər və yazdığı əsərlərlə ədəbiyyatımızda sistemli uşaq ədəbiyyatının əsası qoyuldu. Bu sistem, pedaqoq şairin uşaqların yaş psixologiyasını, ətraf aləmə maraq və qavrayış xüsusuyyətlərini və s. cəhətləri nəzərə almasından ibarətdir (11, 39).

İstedadlı şair S.Ə.Şirvani şeirlərinin birində tərəqqidən geri qaldığımızı satira şəklində nəzərə çatdırmağa çalışmışdır, həmçinin bu sətirlərdə təəssüf dolu fikirlərin yürüdüyünü görmək olar:

Oxuyuruq biz qəzetlər əhvalın,
Ta bilək əhli − aləmin halın
Ki, görək xalq nə kəmaldadır,
Qeyr nə fikrü, nə xayaldadır.
Özgələr eyləyib tərəqqiyi − tam,
Niyə biz qalmışıq bu növ avam?
Niyə biz bunca bikamal olduq?
Ayaq altında payimal olduq?
Bəsdi tədrisi dərsi − "Kürbəvü muş",
"Leyli − Məcnun", "Bəsfi − badəfüruş" (11, 74).

Göründüyü kimi şairin yaradıcılığında yeniliyə və tərəqqiyə meyl, yenilikləri xalq arasında yaymaq, köhnə və zərərli vərdişləri aradan qaldırmaq istiqamətləri özünü açıq şəkildə göstərir. S.Ə.Şirvani də məsləkdaşı M.Ə.Sabir kimi qabaqcıl ictimai mətbu orqanı olan "Əkinçi"ni yüksək şövqlə təbliğ və tərənnüm edərək yazırdı:

Bəs "Əkinçi" cəlalımızdır bizim,
Nasehi xoşməqalımızdır bizim.
Səy edək, ey guruhi − niksifat,
Etməsin ta bizim "Əkinçi" vəfat.

S.Ə.Şirvaninin qəsidəsində S.Ünsizadənin Şamaxı üçün məktəb sahəsində gördüyü mütərəqqi və maarifpərvər işlərindən bəhs olunduğu açıq şəkildə görünür:

Düşüb ol fikrə kim, Şirvanı darülfünün eyləsin,
Qiraətxana açsın, nəşr qılsın elmü ədyani.

Bilibdir kim, cəhalət mayeyi − fəğrü kəsrətdir,
Təriqi − elmə tərğib eyləmək vacibdir insani.

Bu rümuzu guş qıldım ol əzizin öz zəbanından
Açıb dürci − dəhanın eylədi. Belədir əfşani (11, 60).

Mərifət, kamal və elm kimi məziyyətləri ruhuna hopdurmuş S.Ə.Şirvani Şamaxıda elm və mədəniyyətin kifayət qədər bərqərar olduğunu aşağıdakı şeirində hiss etdirmişdir:

Ey gözüm nuru, ey ətayi − xuda,
Sənə Şirvanda oldu nəşvü nüma,
Lillahül − həmd, xitteyi − Şirvan
Saniyi − İsfahandır əlan.
Gərçi viranə oldu zəlzələdən,
Çıxmayıb mərifət bu mərhələdən.
Var hər guşədə yüz əhli − kəmal,
Hər biri əhli − elmü sahibi − hal.

Bölgənin mədəni həyatından bəhs edərkən yazıçı və məktəbdar Səid Ünsizadənin mədəniyyət sahəsindəki səmərəli əməli fəaliyyətindən,əhəmiyyətli məktəbdarlığından danışmamaq olmur. S.Ünsizadə nəinki Şamaxıda, hətta bütün Azərbaycanda əhali arasında maarifin yayılmasına çalışır, təlim və tədris sahəsində mühüm və zəruri işlər həyata keçirirdi. 1881- ci ildə onun “Təlimül − ətfal, təhzibül − əxlaq” adlı dərsliyi işıq üzü görmüşdür. S.Ünsizadənin 98 səhifəlik “Məktəb uşaqlarımız oxumaqdan ötrü sadə türkü dilində tərtib olunmuş əqaid və nəsayeh risaleyi − mənzuməsidir” adlı dərsliyi uşaqlar üçün anlaşıqlı dildə yazılmışdır. Dərslik 1882- ci ildə tamamlanmışdır. Həm şəriət, həm də dünyəvi elmlərin tədris olunduğu Məclis məktəbi Səid Əfəndi Ünsizadə tərəfindən 1874- cü ildə Şamaxıda açılmışdı.

Görkəmli ziyalı və pedaqoq S.Ünsizadə şagirdlərə elm və əxlaqın məziyyətlərini aşılamağa çalışmış, bu xüsusdakı məsələləri öz şeirində nəzərə çarpacaq təsir qüvvəsilə verməyə çalışmışdır:

Utanma mərifət kəsbindən, ey yar,
Cəhənnəmə özünü etmə zinhar,
Utanmazlar talib əmrin alanlar,
Həmişə mərifət kəsbin qılanlar.
Beşikdən əhdəcən elm eylə təhsil,
Əlindən gəlsə, ol kamali − mükəmməl.

Savadi − mərifətlə, ey bəradər,
Deyildir cəhlü nadanlıq bərabər.
Deyil, dünyadə olan hər nə ki var,
Bərabər gövhəri − ürfanə, ey yar (11, 52).

S.Ünsizadə gənc nəslin mənəvi keyfiyyətindən danışarkən ilk növbədə onlara elm oyrənməyi aşılayır, savad öyrənməyin vacibliyindən bəhs edir.

Şirvan mühitində elm və mədəniyyət sahələrində baş verən müsbət dəyişikliklər, mətbuat şəbəkəsinin genişlənməsi, yeni üsullu məktəblərin yaradılması şairin gözündən yayınmamışdır:

Könül, şad ol ki, gəlmiş bu diyarə elm bəqrəti,
Pəsənd etməz Şamaxi əməldə min bədəv ani.

Cəlal Ünsizadə qardaşı ilə birlikdə təkcə qəzet deyil, kitab nəşr etmək üçün birgə mətbəə açmaq, senzorun razılıq verdiyi kitabların çapı ilə məşğul olmaq istəyini 1889-cu ildə reallaşdıra bildi. Rəsmi sənədlərdən bəlli olur ki, mətbəə açmaq üçün Ünsizadə qardaşları xeyli müddət çalışmış, nəhayət ki, Tiflis polis idarəsinin mətbəəsini satın almışlar. C.Ünsizadə mətbəəsini qəzetin adı ilə "Kəşkül" mətbəəsi və ya "Mətbeyi– cərideyi Kəşkül" adlandırmışdır. Qəzet "Rəfi– maniə" başlıqlı məqaləsində "Kəşkül" mətbəəsinin qarşısında duran mühüm işləri sadalayaraq yazırdı:

“Burada (Tiflisdə - red.) bir islam mətbəəsi ehdas elədiyimizdən məqsudumuz sadəcə, qəzet təb və nəşr eləməkdə deyildir. Millətdaşlarımız qəzetə və ovraqi– həvadisdən ziyadə maarifə xidmət edən təlim kitab və risalənin möhtac olduqları üçün bu yolda dəxi səy və əməyimizi düruğ tutmayacağıq” (7, 39).
XIX əsrin ikinci yarısında Şirvan, əsasən də Şamaxı ədəbi mühitindən danışarkən mütərəqqi meyilli ziyalılardan olan Sultan Məcid Qənizadənin adını çəkməmək olmur. Bölgənin sayılıb – seçilən ziyalılarından olan S.M.Qənizadə böyük yazıçı və maarif xadimi olmuşdur. Sultan Məcid Qənizadə Həbibbəy Mahmudbəyovla birlikdə Bakıda 1887-ci ildə “Rus–Azərbaycan məktəbi” adlı təhsil ocağının yaradılmasına nail olurlar. Onun “Allahın xofu”, “Gəlinlər həmayili”, “Məktubati –Şirvani” və s. əsərlərində mənəvi dəyərlər qabarıq şəkildə özünü göstərmişdir.
Ədəbi mühitdə istedadlı Şirvan şairlərindən M.Ə.Sabir, S.Ə.Şirvanidən başqa Nazim Şirvani və Xaksər Şirvani, Ağəlibəy Naseh, Tərrah və b. göstərmək olar.

XIX əsrdə yaradılmış və milli ədəbiyyatımızın inkişafında xüsusi rol oynamış Azərbaycan ədəbi məclisləri, onların içərisində Şamaxıdakı “Beytül – Səfa” ədəbi məclisinin fəaliyyəti xüsusi qeyd olunmalıdır. “Beytül– Səfa” ədəbi məclisi Şamaxı ədəbi mühiti nümayəndələrinin yaradıcılıqlarını birləşdirməklə demək olar ki, şəhərin mədəni həyatında fəal rol oynamışdır. Ümumiyyətlə həmin dövrdə mətbuat bir sıra əxlaqi sifətlər aşılamaqla yanaşı mövhumat və cəhalətə qarşı mübarizə aparır, həmçinin mövcud olan fəna adətlərdən qurtulmaq məsələlərini nəzərə çatdırırdı. Bundan əlavə mətbuat həmin dövrdə bir çox sahələrdə mövcud olan bir sıra problemləri və perspektivləri özündə əks etdirməyə çalışırdı. Bu dövrdə qəzetdə vacib məsələlər qaldırılır, hansı fikrin doğru olub, olmadığı aydınlaşırdı (11, 150).
Abbas Səhhət mətbuatın təsir gücünə, qüvvətinə və səmərəsinə inanaraq fikrini bu cür çatdırırdı:

Şükr kim, bizlərə də lütfi – xuda
Eyləyibdir belə bir nemət əta.
Bizdə bu cüzi olan həyəcanə,

Qəzet olubmu səbəb, ayə nə?
Bəs gərək səy eləyək izzət ilən,
İştirakında onun hümmət ilən.
Olmayaq razı əsə sərsəri – cəhl,
Qılmaya məhv bizi ləşkəri – cəhl (11, 150).

M.Hadinin poeziya ilhamı və tərəqqipərvər ruhu ilk növbədə Şamaxı ictimai – ədəbi mühitinin şəhdi – şəkərindən qidalanmışdı. Hadi "Milləti – islamı" darülfünun, ali məktəb açaraq oxuyub, elm öyrənib avropalılar kimi zəfərpərvər olmağa çağırarkən Kürdəmirdə müəllim işləyirdi (11, 151).

M.Hadi "Maarifə dair" şeirində elmi biliyə yiyələnməyi tövsiyyə edərək deyirdi:

Zənciri – əsarətdə yaşar əhli – cəhalət,
Məhkumların gün kimi bəsbəlli zəvali.
Elm ilə dərağuş olunur şahidi – nüsrət,
Elm ilə zəfərpərvər olub avropalı.
Biz də düzülək silsileyi – əhli – ülumə
Öyrənmək ilə elm, hünər, fənn, məali.
Təşkil edəlim, "əncüməni – elmü maarif",
Təsis qılaq "darülfünün", "məktəbi – ali"!
...Söylər sizə Hadi: oxuyun, milləti – islam!
Xaməm də bu yerdə ediyor xətm məqali (11,150-151).

Bölgə ədiblərindən M.Hadi yalnız ilhamlı poeziya ustası və mədəniyyət xadimi deyil, həm də nüfuzlu pedaqoq idi. Görkəmli şair bir müddət Kürdəmirdə məktəbdarlıq etmiş, müəllim işləmişdir.

Şamaxı torpağının tərəqqipərvər ziyalılarından olan A.Səhhətin elm və təhsil tərəfdarı olaraq xalqın gözünü açmaq məqsədilə səbatlı və məntiqli şeirlər yazması da məlumdur:

Arxadaşlar! Elm lazımdır ki, tapsın din həyat.

Elm ilən hasil olur izzət, tapar millət nicat.
Səy edin ta bizlərə əhsənlər etsin kainat,
Elmsiz ömr etmədən min dəfə ərcəhdir məmat.
Keçdi dövri – zuri – bazu, elmü fəal əyyamıdır!
Arxadaşlar! Oxuyun: elm oxumaq həngamıdır!

...Vaqif olmaqlıq gərəkdir ehtiyaci – millətə,
Ariz olmuş dürlü afətlər micazi – millətə,
Səhhət istərsən açar, səy et əlaci – millətə,
Keçdi dövri – zuri – bazu, elmü fəal əyyamıdır!
Arxadaşlar! Oxuyun elm oxumaq həngamıdır! (11,152).

Şamaxıda dünyaya göz açan Abbas Səhhət də ədəbi və pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Tibbi təhsili olmasına baxmayaraq məktəblərdə, bir qədər sonra isə realnıy məktəbdə Azərbaycan dilindən dərs demişdir. “Azadlığa mədhiyyə”, “Oyanışın səsi”, “Poetik nitq” şeirləri müxtəlif qəzetlərdə nəşr olunmuşdur. Abbas Səhhət M. Mahmudbəyovla birlikdə “Azərbaycan dilinin üç illik tədrisi üçün dərslik” kitabını hazırlamış, 1912-ci ildə isə “Sınıq saz” şeirlər toplusu kitabını nəşr etdirmişdir. Elə həmin ildə “Neft fontanı” adlı bir pərdəli komediyası işıq üzü görür.

XIX- XX əsrin əvvəlləri bütün Azərbaycanda olduğu kimi, Şirvan bölgəsində də mənəvi mədəniyyətin bir çox sahələri nəzərə çarpacaq dərəcədə inkişaf və tərəqqi ilə səciyyələnir. Tarixə nəzər saldıqda görərik ki, bölgədə ədəbiyyat və fəlsəfə, musiqi, tibb, təbabət, astronomiya və s. sahələrdə öz ağlı, elmi və müdrikliyi, istedadı ilə seçilən dünya şöhrətli hikmətli alimlər yetişmişdir.

Şirvan bölgəsinin ədəbi fikir tarixində, söz və düşüncə sistemində zəngin yaradıcılıqları ilə seçilən Əfzələddin Xaqani Şirvani, İmadəddin Nəsimi, Fələki Şirvani, İzzəddin Şirvani, Bədr Şirvani və Zülfüqar Şirvani kimi qüdrətli şair nümayəndələrin adlarını çəkmək olar.

Qonaqpərvərlik adəti Şirvan bölgəsi əhalisinin mənəvi dünyasında, məişətində dai-

ma əhəmiyyətli və ənənəvi səciyyə daşımışdır. Şirvanın mühüm şəhərlərindən birinə çevrilmiş Şamaxı şəhəri keçmişdən ta bu günümüzədək Avropa, Rusiya, Şərq, Mərkəzi Asiya və Qazaxıstandan gəlmiş səyyah, tacir və alimlərin səyahət etdikləri şəhər olmuşdur. Onlar Şirvan camaatının qonaqpərvərliyini xüsusi olaraq vurğulayır, qonaq qarşılama adətindən razılıq və məmnunluq hissi ilə gördüklərindən danışırdılar.

İpək emalı və ticarətində ixtisaslaşan siyasi və iqtisadi əhəmiyyətli Azərbaycan şəhərləri Tarixi İpək Yolu silsiləsində daima önəmli yer tutmuşdur. Bu şəhərlər sırasında Şamaxı, Şəki, Təbriz, Beyləqan və Bərdə mühüm yer tuturdu.Verilən məlumata görə, e.ə. II əsrdən başlayaraq Tarixi İpək yolunun ən intensiv magistrallarından biri Azərbaycandan keçirdi. Bu yol Çin və Hindistandan başlayır, Orta Asiyadan keçib Xəzər dənizinə çataraq Azərbaycan ərazilərində davam edib, burada 2 qola ayrılıb biri Kür çayı boyunca yuxarı İberiya və Kolxida istiqamətində, ikincisi isə Şimala buruluraq Xəzərin qərb sahili boyunca Dərbənddən və Qafqaz ətəyi düzənliklərdən keçib, Qara dəniz ətrafının şimalındakı Yunan şəhər koloniyalarına aparırdı (25, 37).

III əsrdə İranda hakimiyyəti ələ almış Sasanilər öz sələfləri olan Parfiya hökmdarları kimi "Böyük İpək yolu" na nəzarəti öz əllərində saxlamağa çalışırdılar. Ərəblərin Azərbaycanda hakimiyyəti dövründə isə İpək yolu üstündə yerləşən Şəki, Bərdə, Dərbənd, Çola, Beyləqan beynəlxalq əhəmiyyətli şəhərlər hesab olunurdu. Bu şəhərlər içərisində Beyləqan şəhəri daha çox fərqlənmişdi. Bir sözlə, Azərbaycan İpək yolunun yaranışından bu ticarət yolunda gedən proseslərin birbaşa iştirakçısına çevrilmişdi (25, 37-38).

Orta əsrlərdə Azərbaycan şəhərləri dövrünün yüksək inkişaf etmiş sənətkarlıq və ticarət mərkəzlərindən sayılmışdır. Bəhs olunan dövrdə Azərbaycanda ipəkçilik təsərrüfatının geniş intişar tapdığı əsas yerlərdən biri olaraq, əsas Şirvan bölgəsini göstərmək olar. Nəzərdən keçirilən maraqlı tarixi – etnoqrafik məlumatlar belə deməyə imkan verir ki,"Orta əsr tarixçiləri öz əsərlərində Azərbaycanda, ...xüsusilə

Şirvan əyalətlərində əhalinin ipəkçiliklə məşğul olduğunu yazmışlar. Belə ki, Ərəb mənbələrinin "Şirvan ölkəsinin baş şəhəri" adlandırdıqları Şamaxı həmin dövrün beynəlxalq əhəmiyyətli ticarət mərkəzlərindən biri sayılırdı" (1, 23).
Tədqiqatçıların verdiyi məlumata görə "Azərbaycan ipəkçiliyi onu nəinki Yaxın və Orta Şərq şəhərləri, həm də şimali Aralıq dənizi dövlətləri ilə sıx bağlayırdı. Azərbaycanın ipək təsərrüfatı beynəlxalq ticarətdə və uluslararası əmək bölgüsündə mühüm iqtisadi amilə çevrilmişdi (3, 217).

Azərbaycanda ipəkçiliyə V-VI əsrlərdən başlanmışsa da, o, bir təsərrüfat sahəsi kimi, sonrakı dövrlərdə tədricən ölkənin bütün bölgələrində yayılmışdır. X əsrdən etibarən ipəkçilik Azərbaycanda daha da genişlənir. Şirvanşah dövlətində istehsal olunan ipək Venesiyada və Bursada, Dəməşqdə və Kaşanda, bir sıra başqa ölkələrdə satılırdı. Azərbaycan ipəyi Rusiyada da satılır, bu dövlət ərazisinə çıxarılan mallar içərisində görkəmli yer tuturdu. Məlumata görə Kontarini Şamaxı ipəyini Venesiyada Talaman ipəyi adı ilə tanındığını yazır. Şamaxıda saya çeşidli toxuma ipək parçalar istehsal edilirdi (3, 217).
Şirvanşah dövlətinin paytaxtı Şamaxı həm də beynəlxalq ipək ticarəti mərkəzlərindən biri olmuşdur. Hələ XVII əsrin 30- cu illərində Azərbaycanda səyahətdə olmuş A.Olearinin məlumatına görə burada hər il 10-20 min tay xamna toplanırdı. Ondan 3000 tay Şirvanın, 2000 tay Qarabağın payına düşürdü. Bu fakt isə hər il Şirvanda 16,5 min pud xammal istehsal olunduğunu deməyə imkan verir (3, 217).
Kastiliya səfiri Rui Qonzales de Klavixo "Teymurun Səmərqənd sarayına səyahəti" adlı gündəliyində (1414- cü il) Şamaxıda ipək istehsalından bəhs edərək "Burada çoxlu ipək toxunur, oraya ipək almaq üçün hətta Genuya və Venesiya tacirləri də gəlirlər" deyə yazırdı. Səyyah Şiltbergen (1394-1427) şahidlik edir ki, "ipəyin ən yaxşı növü" Şirvandan aparılır və ondan Dəməşqdə, Kaşanda, Bursada yaxşı parçalar toxunurdu. İpək qismən Venesiyaya və Lukkaya da ixrac olunurdu və bu yerlərdə ondan əla məxmər toxuyurdular (25, 59).

O.Əfəndiyev özünün "Azərbaycan Səfəvilər dövləti" əsərində göstərmişdir ki,

A.Cenkinson Şamaxını "gözəl şah şəhəri" adlandırır. Şamaxı burada ipək alıb sonra isə başqa ölkələrdə sataraq böyük qazanc götürən bir çox ölkələrin tacirlərinin axışıb gəldiyi mərkəzi bazar idi. Şirvan ipəyi yüksək keyfiyyəti və davamlılığı ilə fərqlənirdi. Şamaxıda rus, hind, türk, İran tacirlərinin qaldıqları karvansaralar var idi. XVI əsrin ikinci yarısında burada ingilis ticarət məntəqəsi olan Moskva şirkətinin daimi nümayəndəliyinin əsası da qoyuldu. Bu işdə "Moskva şirkəti"nin agenti olmuş A.Cenkinsona Şirvan ipəyi ilə ticarətdə böyük imtiyazlar vermiş Şirvanın Səfəvi bəylərbəyi Abdulla xan Ustaclı kömək etmişdi. Daha sonra verilən məlumata görə, "Şamaxı XV əsrdə Şirvanın iqtisadi və mədəni mərkəzi oldu. Şamaxı şəhərinin ipəkçilik obyektlərinin mərkəzində yerləşməsi, ipək emalının və hazır məhsul satışının iri mərkəzi olması da buna xeyli dərəcədə kömək etmişdi" (23, 98).

Abdulla xan Şirvanda İngiltərə ticarəti haqqında ayrıca bir buyruq verdi (buyruğun öz mətnində o, "imtiyazlı fərman" adlandırılır) (1, 418). Fərman ilə İngiltərə tacirləri yalnız Azərbaycanda aldıqları mallar üçün deyil, buraya Avropadan satışa gətirdikləri mallar üçün də heç bir gömrük və ya vergi ödəməli deyildilər. Onları buna məcbur edən gömrük və ya vergi ödəməli deyildilər. Antoni Cenkinson Şirvanda qazanclı alış – veriş aparıb, buradan aldığı ipək, daş – qaş və sairə ilə vətəninə yola düşdü. 1863-1865-ci illərdə Azərbaycanda olmuş Artur Edvards I Təhmasiblə uğurlu danışıqlardan sonra şahın özündən ingilis tacirləri üçün toxunulmazlıq məktubu aldı. O, Şirvandan vətəninə göndərdiyi birinci məktubunda yazırdı: "Hazırda buradan İngiltərəyə göndərmək üçün 11 tay xam ipək almışıq. Buranın ipəyi zərif , yüksək keyfiyyətlidir" (2, 419).

Tarixə nəzər saldıqda bölgənin mühüm ipəkçilik mərkəzi olduğunu görmək olar. S. Aşurbəylinin "Şirvanşahlar dövləti.VI-XVI əsrlər" kitabında qeyd olunduğuna görə Cenkinsonun "gözəl kral şəhəri" adlandırdığı, Şirvanın başlıca şəhərlərindən olan, paytaxt XV əsrdə Bakıya köçürüldükdən sonra belə əhəmiyyətini itirməyən Şamaxı xam ipək istehsalı ilə şöhrət qazanmışdı. Şamaxının ətraf kəndləri tut ağacları ilə məşhur idi. Şirvanın digər ticarət mərkəzi Ərəş idi. Onun ətrafında da

çoxlu xam ipək istehsal olunurdu. Şəhərlərin iqtisadi mərkəzlər kimi böyüməsi, Şamaxıda, Şəkidə, Ərəşdə əmtəə təsərrüfatının, xüsusilə ipəkçiliyin inkişafı ilə bağlı idi. Onlarda orta əsrlər Yaxın Şərq şəhərləri üçün səciyyəvi olan bütün sənətkarlıq sahələri inkişaf etmişdi (6, 355-356).

1569-1574- cü illərdə İngiltərədən Azərbaycana Tomas Benister və Ceffri Deketin başçılığ ilə beşinci,1680 - ci ildə isə Xristofor Berrounun başçılığı ilə altıncı ticarət nümayəndəliyi gəldi. Sonuncu hər iki gəliş uğursuz oldu. Tomas Benister və Ceffri Deket dönərkən Volqadakı kazaklar tərəfindən qarət olundular. Xristofor Berrou Şirvanda savaş getdiyinə görə alış – veriş edə bilmədi (2, 419).

XVI yüzilin 80-ci illərindən Volqa Xəzər yolu ilə ingilislərin Azərbaycanda ticarət aparması xeyli çətinləşdi. 1572- ci ildən Rusiya və İngiltərə tacirlərinin malları üzərinə çox ağır gömrük qoyulmuşdu. Digər tərəfdən Qafqazda yeni savaşlar başlanmışdı. Bu iki səbəb üzündən bu yolla ingilislərin Şirvana çıxışı mümkün olmurdu (2, 419).

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda ipəkçilik əsasən Şamaxı, Şəki, Qarabağ və Naxçıvanda inkişaf etmişdir. İpəkçilik Şirvan əhalisinin əsas gəlirli təsərrüfat sahələrindən biri idi.

Bölgənin Şamaxı, Ağsu və bəzi yerlərində ipəkqurdu yetişdirilməsi, ipək parça toxunması və ipək ticarəti geniş intişar tapmış, Şamaxı nəinki Azərbaycanın, hətta Şərqin əsas ipəkçilik mərkəzlərindən birinə çevrilmişdi.

Xanlıq dövründə Şamaxıda Qarasaçlı, Şıxəmir, Bərgüşad, Qaziyan, Bığı, Çaxırlı və digər kəndlərdə əhalinin əsas məşğuliyyət növü ipəkçilik olmuşdur. XVIII əsrin ikinci yarısında Azərbaycanda mövcud olan bir sıra sənətkarlıq, o cümlədən ipəkçilik mərkəzləri ölkənin iqtisadi həyatında mühüm rol oynayırdı (61, 77).

Şamaxıda hazırlanan zəngin çeşidli ipək məmulatları– darayı, qanovuz, tafta, kəlağayı və s. yalnız Zaqafqaziyada deyil, İran, Türkiyə, Rusiya və digər ölkələrdə də məşhur idi (61, 77).

Qeyd etmək lazımdır ki, ipəkçilik Şirvan bölgəsi əhalisinin qədim və ənənəvi

təsərrüfat sahələrindən biri olmuşdur.

Şirvan bölgəsində əlverişli təbii – coğrafi və iqlim şəraiti də barama qurdunun yetişdirilməsinə rəvac verən əsas amillərdən olmuşdur. Barama qurdunun bəslənməsi üçün bölgədə tut bağları və ya çəkilliklər geniş yayılmışdı, belə ki, qurdların yemlənməsi üçün bol tut yarpaqlarının olması əsas və həlledici amillərdən biri idi. Bölgədə tut bağları tələbata uyğun olaraq, nəzərə çarpacaq dərəcədə böyük sahələri əhatə etmişdi. Şamaxıda barama qurdu bir qayda olaraq yaz aylarında becərilirdi. İstehsal edilən baramadan adətən, toxuculuqda istifadə olunurdu. Şirvan bölgəsində baramadan ipək sapı hazırlamaq üçün demək olar ki, kustar üsuldan istifadə olunurdu. Bölgənin bütün guşələrində ipəksarıma, ipəkəyirmə işi çox zaman sarıma dəzgahı, əl cəhrəsi və əl iyi vasitəsilə görülürdü.

Tədqiqatlarda Şamaxıda 100 toxucu dəzgahının olması haqqında istinad verilir.

Y.Mahmudov özünün "Azərbaycanın Avropa ölkələri ilə əlaqələri" əsərində qeyd etmişdir ki, Şirvan ipəyi də Bursa ticarətində mühüm yer tuturdu (2, 150).

1467- ci ildə Şamaxıdan təkcə Əbdürrəhim adlı bir tacir Bursaya 220 min axça dəyərində 4400 tay ipək gətirmişdi. Şirvanda istehsal olunan çoxlu sayda ipəyin əsas hissəsi Şamaxının payına düşürdü (2, 559).

Verilən məlumata görə Şamaxı şəhərinin sənətkarlıq həyatında ipək parça istehsalı üstünlük təşkil edirdi. O zaman Şamaxıda 1500 əl ilə toxuma dəzgahı var idi. Bu dəzgahlarda zəngin çeşidli ipək məmulatı toxunurdu. Bu mallar İran, Türkiyə, Rusiya və başqa ölkələrə ixrac olunurdu (2, 559).

Orta əsrlərdə Azərbaycanda olmuş avropalı səyyahlar Azərbaycanın Avropanın müxtəlif regionları ilə həyata keçirilən çoxtərəfli əlaqələri haqqında da qiymətli məlumatlar verirlər. Azərbaycanın bir sıra şəhərlərini gəzmiş I Lerx Avropa və Asiya arasında aparılan ticarətin təqribən aşağıdakı yollarla getdiyini göstərmişdi: Həştərxan – Qızlar – Tərki – Dərbənd – Bakı – Şamaxı – Cavad – Rəşt (25, 59).

Hind okeanı hövzəsindəki ölkələrlə ticarət əlaqələrinin məhdudluğundan Volqa –

Xəzər yolunun, yəni Rusiya ilə ticarətin əhəmiyyəti artmağa başladı. Bu yol Azərbaycan Rusiya əlaqələrinin inkişafını sürətləndirdi (25, 59).

XVIII əsrin 40- cı illərində xam ipək mənbələrini ələ keçirmək, hazır mallar üçün əlverişli bazar tapmaq, Şərq ilə Qərb ölkələri arasında ən rahat yol sayılan Volqa – Xəzər ticarət yolunda hakim mövqe tutmaq uğrunda İngiltərə və Rusiya arasındakı rəqabət gücləndi. Çünki bəhs olunan dövrdə bütün Cənubi Qafqaz və İranda 3 əsas xam ipək mənbəyi mövcud idi:

Bunlardan biri paytaxt Rəşt olmaqla Gilanda, ikincisi paytaxt Şamaxı olmaqla Şirvanda, digəri isə paytaxt Gəncə olmaqla Ərəş mahalında yerləşirdi (25, 60).

Orta əsr tarixçiləri də öz əsərlərində Azərbaycanda, xüsusilə..., Şirvan əyalətlərində əhalinin ipəkçiliklə məşğul olduğunu yazmışlar. Ipək baramasının bolluğu Şamaxını mühüm ipəkçilik mərkəzinə çevirmişdi. O zaman ipək Azərbaycanı Böyük İpək yoluna bağlayan bir vasitə, ölkə ixracının başlıca göstəricisi idi. Azərbaycan şəhərləri ..., Şamaxı xilafətin şimal və şərq ölkələrini birləşdirən beynəlxalq ticarət yollarında yerləşirdi (25, 43).

Qeyd olunmalıdır ki, Şirvan ipək və karvan yollarının fəaliyyətində böyük rol oynamışdı. Bölgənin şəhərlərindən keçən karvanlar onun iqtisadiyyatının güclənməsində əvəzsiz xidmət göstərmişdi.

Şirvan xanlığının ipək ticarətində sözsüz ki, tacirlər fəal iştirak edirdi. İpək ticarəti xanlığa böyük gəlir gətirirdi. Bu ticarətdən Şirvan xanlığı və onun əhalisi xeyli qazanc götürürdülər. Bölgənin Ağsu, Şamaxı, Göyçay və digər yerlərində ipəkqurdu yetişdirilməsi, ipək emalı və istehsalı təsərrüfatda üstünlük təşkil edən sahələrdən biri idi. Ümumiyyətlə, o zamankı Azərbaycan şəhərləri İpək yolu üstündə olan böyük və zəngin ticarət mərkəzləri idi. Əlverişli mövqedə yerləşən Azərbaycanın Şamaxı, Təbriz, Beyləqan və Bərdə kimi böyük ticarət mərkəzləri "Böyük İpək yolu" vasitəsilə Şərq və Qərblə aparılan böyük ticarətdə Azərbaycana böyük gəlir gətirirdilər. Bu ticarət şəhərləri getdikcə güclənir və beynəlxalq əlaqələrini genişləndirməyə çalışırdılar (2, 559).

Şirvan şəhərləri spesifik mallar istehsalı ilə şöhrət qazanmışdı. Məsələn, ..., Şamaxı xamnası və ipək parçaları, Dərbənd zəfəranı və kətan paltarları ilə məşhur idi. Şirvan şəhərləri daxili ticarətlə yanaşı, xarici bazara neft, duz, qırmız (boyaqotu), zəfəran, xam ipək və ipək parçalar, pambıq, kətan paltar, xalça və xalça məmulatı, saxsı, şüşə, mis və ağac qablar, silahlar, bəzək şeyləri, kənd təsərrüfatı məhsulları, meyvə çıxarırdı (6, 231).

Beynəlxalq ticarət yollarının üstündə yerləşən Şirvan şəhərləri bu ticarətdə fəal iştirak edirdilələr Cənubi Rusiya, Kiçik və Orta Asiya, Çin, Hindistan, Misir, İran, İraq, Suriya və digər ölkələrdən gələn tacirlər burada öz mallarını – qiymətli xəz, qılınc, Çin ipəyi, hind tirməsi, mirvari, cəvahirat, şüşə məmulatı, müxtəlif ədviyyat və s. sataraq, karvanlara neft, duz, kənd təsərrüfatı məhsulları, pambıq, xam ipək və Şirvan sənətkarlarının əsərlərini alıb aparırdılar. Şərq və Qərb ölkələri arasında beynəlxalq karvan ticarəti yolları Şirvandan keçirdi. İran və Hindistan malları həm dəniz, həm də quru yolu vasitəsilə, Şirvana gətirilir, buradan yunan dünyasına göndərilirdi. Şirvanın həm də qonşu ölkələrlə, Gürcüstan, Ermənistan, Dağıstanla iqtisadi və mədəni əlaqələri var idi (6, 231 - 232).

S.Aşurbəyli qeyd etmişdir ki, XIII əsrin sonlarından etibarən Şirvan və Xəzər dənizinin sahilləri ipək almaq üçün bazar axtara – axtara bu yerlərə gələn avropalıların diqqətini cəlb etməyə başlamışdır. Gilan və Şamaxı ipəyi beynəlxalq ticarət malına çevrilir. Bununla əlaqədar olaraq, Bakının Xəzər dənizində Şamaxı ilə tranzit ticarəti sayəsində böyüyən rahat liman kimi əhəmiyyəti qeyd edilmişdir (6,239). Məlumdur ki, Şamaxı şəhəri iqtisadi cəhətdən digər Şirvan şəhərlərinə nisbətən da ha çox inkişaf etmiş,tarix boyu ticarət, təsərrüfat və sənətkarlıq aparıcı məşğuliyyət sahələrindən sayılmışdı. Əcnəbi tacirlər ticarət üçün daima bu şəhərə axışır, ticarət üçün əsas mərkəz olaraq buranı seçirdilər.

Şamaxı xanlığının İran, Rusiya, Dərbənd və Həştərxanla da geniş ticarət əlaqələri olmuşdur. Şamaxıdan həmin yerlərə əsasən ipək məhsulu ixrac edilirdi. Şirvan Ba-

kı xanlığı ilə də sıx ticarət imkanlarına malik idi, göndərilən mallar içərisində müxtəlif ipək parçalar əsas yer tuturdu.

Şərq ölkələri ilə Qərb arasında Şirvandan ötüb gedən böyük, qədim beynəlxalq tranzit ticarət yolları Abşeron yarımadasının yaxınlığından keçirdi. XI-XIV əsrlərdə və sonralar Şirvanı Hindistan və Çinlə bağlayan dünya ticarəti cənub quru yolu ilə – Orta Asiya, İran və Azərbaycanın cənub vilayətləri vasitəsilə və şimal yolu ilə –Xəzər sahili boyunca Dərbənd keçidinin yanından ötüb xəzərlər ölkəsinə və i.a. həyata keçirilirdi (6, 240).

Şirvanda şərbaflıq (ipək məmulatı toxuculuğu) sənəti də qədim tarixə malikdir. Tədqiq olunan dövrdə əksər ailələr öz evlərində şəxsi ehtiyaclarını ödəmək üçün ipək və ya yun parça istehsal edirdilər. Bununla yanaşı ayrı – ayrı şəxslərin xüsusi ipək karxanası da var idi. Belə ki, 1841-ci ilə aid sənədlərin birində Şirvan qəzasında 74 ipək karxanasının olduğu xəbər verilir (25, 58).

K.A. Satuninin yazdığına görə, 1895-1896- cı illərdə Basqalda 11 ipək karxanası qalmaqda idi (25, 58).

Uzaq keçmişdən bəri çeşidli sənət işləri, elm və mədəniyyət mərkəzləri olan şəhərlər böyüyür, onların əhalisi artırdı. Şəhərlərin içərisində keçmişdə xanlıq və əyalət, 40-50-ci illərdə Kaspi vilayəti və quberniya, sonralar isə qəza mərkəzi olmuş Şamaxının yüksəlişi diqqəti özünə çəkir. 1824- cü ildən bir çox yeni tikintilər hesabına genişlənən bu şəhər "əski Şamaxı"nın varisi sayılırdı. 1840- cı ildə əhalisinin sayı 20 minə yaxın olan Şamaxı qaynar sənət və ticarət yaşamı keçirmədə idi (2, 712). Sənətkarlığın inkişafı baxımından Şamaxı və Şəki şəhərləri seçilirdi. Dərzi, papaqtikmə, dabbaqlıq, toxuculuq, boyaqçılıq işləri burada geniş yayılmışdı. İpəkçilik şəhər sənətkarlığının başlıca sahəsi idi. Baramadan tel açılması, burulub toxuculuq işləri üçün yararlı hala salınması ilə yüzlərlə kustar və sənət emalatxanaları məşğul olurdu. Şamaxıda ... ipəktoxuma işi əhalinin başlıca məşğuliyyətindən biri idi. 40- cı illərdə bütünlüklə qəzalar üzrə 700- ə kimi toxucu qurğusu var idi, burada 3 mindən çox toxucu çalışırdı. Şamaxı və Şəkidəki ipəkto-

xuma emalatxanalarının bir hissəsi xırda əmtəə istehsalı səviyyəsində idi (2, 713). Öz baramasından hazırladığı xam ipəyi satan hər kəs bir batman üçün 1 manat 40 qəpik, onun alıcısı isə 1 manat mizan rüsumu ödəyirdi. Tacir və ya hər hansı satıcı, alıcı satdığı və ya aldığı ipək haqqında müvafiq idarəyə məlumat verməmişdisə, hər batman üçün 70 qəpik cərimə ödəyirdi. 1842- ci il üzrə Nuxa şəhərindən 18 min manat, Şamaxıdan isə 3,5 min manat mizan rüsumu toplanmışdı (2, 713).

XIX əsrin 70-ci illərindən başlayaraq, Zaqafqaziyaya yüksək keyfiyyətli Yaponiya, Buxara, Xorasan və İtaliya toxumu gətirilməsinə başlandı. 1887- ci ildə Tiflisdə "Qafqaz ipəkçilik stansiyası" nın açılması isə kümdarlıqda böyük canlanma yaratdı (61, 20). Stansiyanın yaxından köməyi nəticəsində ..., Göyçay, Kürdəmir və digər yerlərdə təşkil edilmiş xüsusi ipəkçilik məktəblərində, habelə başqa məktəblərdə şagirdlərə qurdbecərmə üsulları öyrədilirdi (61, 25).

Verilən məlumata görə Qafqazda ipəkçiliyə dair sərgilər mövcud idi, hətta bura-da "İpək qurdunun yedizdirilməsi" bölməsi də təşkil edilmişdi. Sərgidə – bölmədə Bakı quberniyasına aid (Şamaxı və Göyçay) kolleksiyalar da öz əksini tapmışdı (9, 44).

Qeyd etmək yerinə düşərdiki,XIX əsrdə də Şrvan ipəkçiliyin istehsalı və inkişafına görə qabaqcıl yerlərdən birini tuturdu. İpəkçiliyin bölgə iqtisadiyyatında mühüm rolu burada bir neçə ipəkçilik məktəblərinin açılmasına, bəzi sərgilərin təşkil olun-masına rəvac vermişdi.

1898-ci ildə Göyçayda ipəkçilik sərgisi təşkil olunmuşdu, belə ki, sərgidə nümayiş olunan 82 eksponatdan 17- i mükafata layiq görülmüşdü. Verilən məlumata görə Şamaxı qəzası ipəkçiliyə görə Zaqafqaziyanın varlı qəzalarından biri idi (129, 1).

Azərbaycanda biologiya, kənd təsərrüfatı və təbabət sahələri üzrə elmi biliklərin yayılması və inkişafında Moskva universitetini fərqlənmə diplomu ilə bitirmiş və alimlik dərəcəsi almış Şirvanlı Həsən bəy Məlikov Zərdabi ipəkqurdu toxumunu oyadan alətin modelini düzəltmişdir, bu model 1889- cu ildə Tiflisdə təşkil edilən Qafqaz sərgisinə göndərilmişdi. Qafqaz sərgisində H.Zərdabinin ipəksarıyan alətin

modeli və ipək sapı kolleksiyası da böyük marağa səbəb olmuşdur.
Beləliklə, bölgənin əlverişli təbii – coğrafi və iqlim şəraitinin üstünlüyü, iqtisadi inkişaf və beynəlxalq ticarət yolları üzərində yerləşməsi onun Boyük İpək Yolunda rolunu əhəmiyyətli dərəcədə artırmışdı.
Arxeoloqlar tərəfindən ipək parçaların daha erkən dövrə aid qalıqları Şamaxıda aşkar edilmiş küp qəbirdə (I əsrə aid) tapılmışdır.

Məlumatlardan aydın olur ki, Böyük İpək Yolu termini elmi dövriyyəyə 1877-ci ildə buraxılmışdı. Çində qızıl istehsalı çox zəif idi. Onun da alınmasına ipək sərf olunurdu. Bir sözlə ipək etibarlı Çin valyutası olsa da türkün əlindən keçirdi. İpəkdən sonra Çində meydana çıxmış kağız da onu valyuta kimi əvəz edə bilmədi. Beləliklə, belə deməyə əsas yaranır ki, ipəyi Çin istehsal etsə də monopolist imkanları türkün əlində idi (41, 12).
Böyük və möhtəşəm Türk dövlətlərinin də Böyük İpək Yolunda əhəmiyyətli rolu olmuşdir. Qərbi Altayda və İrtış çayı sahillərində mövcud olmuş Karluq xaqanlığının şəhərləri Çin və Orta Asiya ölkələri ilə ticarət edirdilər. Taraz Kulan, Aşpara və Suyab şəhərlərində müxtəlif ölkələrdən gəlmiş tacirlərə tez – tez rast gəlinirdi (41, 12).

Karluqların hakimiyyəti zamanı indiki Qazaxıstan ərazisində yaranan yeni şəhərlər – Çul, Balasaqun, Atlax, Xamukənd, Koylık – Oğuz və b. şəhərlər ticarət və sənətkarlıq mərkəzləri kimi təşəkkül tapırdı. Orta Asiya və Qazaxıstandan Çinə bir neçə karvan yolu vardı. Karvan yollarının kənarlarında su quyuları, karvansaraylar tikilmişdir (41, 12).

Orta Asiyanın mühüm ticarət yolları üzərində yerləşən şəhərləri Şərqi Avropa ilə ticarət əlaqələri saxlayırdı (25, 44- 45). Sarkil, Bələncər, Səmker, Səmərqənd, Kerc kimi şəhərlər Bizans, Orta Asiya və Qərbi Avropanın şəhərlərilə ticarət əlaqələri saxlayırdılar. Ticarət yolları üzərində yerləşən Xəzər xaqanlığı bəhs olunan dövrdə beynəlxalq ticarətdə mühüm rol oynayırdı. Xəzər xaqanlığına isə Skandinaviyadan kürk və b. mallar, Türkmənistandan ipək və çeşidli qumaş, Bizansdan sənət və zi-

nət əşyaları gətirilərək Xəzər şəhərlərində satılırdı. Bu şəhərlər ortaq bazar halında qərbdən şərqə, şərqdən qərbə ticarət edirdilər (25, 45).

Müasir dövrdə İpək Yolunun yenidən bərpa edilməsinə dair ilk addımlar 1991- ci ildə atılmışdı. Həmin ildə isə Avropa Şurası tərəfindən TASİS – yardım proqramı qəbul edilmiş, bu  proqramda yeni müstəqil dövlətlərdə demoktatik islahatların keçirilməsini sürətləndirmək, milli dövlətlərdə bazar iqtisadiyyatı sistemini formalaşdırmaq, xüsusilə iqtisadi əlaqənin genişlənməsinə xidmət edən yeni nəqliyyat dəhlizi layihələrinin yaradılması və həyata keçirilməsinə kömək göstərmək nəzərdə tutulmuşdur (25, 62).

TRASEKA proqramı 1993-cü ilin may ayında Brüsseldə 8 dövlətin (5- i Mərkəzi Asiya, 3- ü isə Qafqaz respublikaları olmaqla) nəqliyyat və ticarət nazirlərinin iştirak etdiyi konfransda təsis edilmişdir. Bu proqram Avropadan qərb– şərq istiqamətində – Qara dəniz, Qafqaz,  Xəzər dənizindən Mərkəzi Asiyaya qədər nəqliyyat dəhlizinin inkişafına görə Avropa Birliyinin sadalanmış dövlətlər üçün nəzərdə tutduğu strategiyasının bir hissəsidir (25, 62).

“Böyük İpək Yolu”nun TRASEKA proqramı layihəsinin həyata keçirilməsi istiqamətində 2002-ci ildə iri miqyaslı tədbirlər görülmüşdür. Belə ki, 2002- ci il sentyabrın 18- də Səngəçal terminalında Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft kəmərinin təntənəli şəraitdə təməli qoyulmuşdur. Qazaxıstan neftinin Aktau – Bakı – Tbilisi – Ceyhan marşurutu ilə nəql edilməsi barədə Londonda Azərbaycan və Qazaxıstan arasında aparılmış danışıqların nəticəsi çox uğurlu olmuşdur (25, 75-76).

Tarixi İpək Yolunun Azərbaycandan keçən avtomagistral seqmentinin bir hissəsini də Kürdəmir– Ucar avtomobil yolu təşkil edir. Yolun uzunluğu 46, 2 km, layihənin icra müddəti isə 2006-2008-ci illər nəzərdə tutulmuşdur. Layihəyə görə yol II dərəcəli, zolaqlı olmalıdır (43, 269).

İpək  yolu və Azərbaycanın strateji maraqları məsələsinə gəlincə aşağıdakı məsələləri qeyd etmişdir:

1. İran körfəzi, Aralıq dənizi, Qara dəniz hövzəsi ölkələrinin iqtisadi əlaqələrində

mühüm rol oynayan dəniz nəqliyyatının respublika ərazisində kəsişmişdir.
2. Avropa – Asiya ölkələri arasında səmərəli iqtisadi əlaqələrin inkişafına şərait yaradan Avropa– Qafqaz –Asiya (Transqafqaz) nəqliyyat dəhlizinin birbaşa respublika nəqliyyat dəhlizinin birbaşa respublika ərazisində məskunlaşması.
3. Dəniz nəqliyyatı vasitəsilə İran – Rusiya və Orta Asiya respublikalarının iqtisadi əlaqələrinin Azərbaycanda kəsişməsi (37, 85).
Ümumiyyətlə, qeyd olunan məsələlərdən aydın olur ki, Tarixi İpək Yolunun bərpası üzrə bölgələrdə bir çox işlər aparılmış, layihələr həyata keçirilmişdir.

Böyük İpək Yolunun bərpası ilə nəqliyyatın bütün sahələrinin inkişafı üçün geniş və perspektivli imkanlar açıldı. Nəqliyyatın bu sahələri (avtomobil, dəniz yolu magistralları, dəmiryolu) regionun siyasi və iqtisadi taleyində əsaslı rol oynamağa başladı. Böyük İpək Yolu layihəsində Kürdəmir – Ucar avtomobil yolunun çəkilməsi, ən əsası bu yolun Şirvan bölgəsinin ərazisindən keçməsi bölgənin iqtisadi və strateji əhəmiyyətini daha da artırmışdır.

### 3. Milli dəyərlərin təbliğində bölgə diyarşünaslıq muzeylərinin rolu

Hazırda Respublikamızın paytaxt və rayonlarında fəaliyyət göstərən muzeylərdə arxeoloji, etnoqrafik və folklor nümunələrini əks etdirən müxtəlif səpgili mədəniyyət nümunələri qorunub saxlanılır. Bu nümunələr istər xalqımızın tarixi etnoqrafiyasını, istərsə də keşməkeşli tariximizin müxtəlif dövrlərini öyrənmək baxımından xeyli maraq doğurur.

Şirvan bölgəsində fəaliyyət göstərən diyarşünaslıq muzeylərində etnoqrafik səciyyəli, müxtəlif mədəniyyət nümunələri mövcuddur.

Şirvanın bacarıqlı və şöhrətli xalq ustalarının, sənətkarlarının hazırladıqları nəfis, müxtəlif gözəl nümunələr xalqın bədii − fikir, bədii− estetik və fikir təxəyyülünü özündə əks etdirir. Maddi və mənəvi mədəniyyətin öyrənilməsində də bölgənin diyarşünaslıq Muzeyləri müəyyən rol oynayır.

Tədqiq olunan mövzuya hazırda Şirvan bölgəsinə daxil olan 8 inzibati rayonların Tarix – Diyarşünaslıq Muzeylərinin arxeoloji, etnoqrafik, epiqrafik və numizmatik xarakteristikası daxildir:

Şamaxı Tarix – Diyarşünaslıq Muzeyi, Ağsu Tarix– Diyarşünaslıq Muzeyi, Kürdəmir Tarix– Diyarşünaslıq Muzeyi, Göyçay Tarix– Diyarşünaslıq Muzeyi, İsmayıllı Tarix – Diyarşünaslıq Muzeyi, Ucar Tarix – Diyarşünaslıq Muzeyi, Zərdab Tarix – Diyarşünaslıq Muzeyi, Ağdaş Tarix – Diyarşünaslıq Muzeyi.

Aydındır ki, Islam dini xalqın həm mənəvi mədənyyətinə, həm də məişətinə dərin nüfuz etmişdir. Məişətdə işlədilən və indi də varlığını qoruyub saxlamış müsəlman məişət elementləri muzey kolleksiyası sıralarına daxil edilmişdir. Dini məzmunlu əşyalardan qədim müqəddəs Qurani Kərim və Quran qabını qeyd etmək olar (Milli Azərbaycan Tarixi Muzeyi nəzərdə tutulur- K.Ə.) (29, 91).

Ağsu Tarix – Diyarşünaslıq Muzeyində mühafizə olunan XIX əsrə aid Quran kitabı

həmin dövrün mənəvi mədəniyyəti və dini dünyagörüşü haqqında müəyyən təsəv-

vür yaradır.Muzeydə Şirvan bölgəsinin tanınmış balaban ustası Əli Kərimova məxsus əşyalar da mənəvi mədəniyyətin əsas tərkib hissəsi kimi musiqi sahəsinin öyrənilməsinə müsbət təsir göstərə bilər. Bəzi bəzək örtükləri isə tikmə sənətinin incəliyindən xəbər verir.

Şamaxı Tarix –Diyarşünaslıq Muzeyində rast gəlinən müxtəlif naxışlı və rəngarəng xalçalar dövrün inkişaf tarixini təcəssüm etdirən əyani nümunələrdir. Xurcun, heybə, pərdəbaşı, örtük, müxtəlif qablar, milli geyim elementləri və s. maddi mədəniyyət nümunələri də bölgənin sənət ənənələrinin güclü təsirini özündə əks etdirmişdi. Ismayıllı rayonu Tarix – Diyarşünaslıq Muzeyində kənd təsərrüfatı və toxuculuq nümunələri diqqəti cəlb edir.

Hazırda İsmayıllı rayonunda fəaliyyət göstərən Tarix Diyarşünaslıq muzeyləri tarixi mədəniyyət nümunələrinin öyrənilməsi istiqamətində səmərəli fəaliyyət göstərir. Lahıc və Basqal Tarix Diyarşünaslıq Muzeylərində tarixən mövcud olan özünəməxsus xüsusiyyətlər və spesifik cəhətləri ilə fərqlənən təsərrüfat, peşə sənətkarlığı və folklor nümunələri ilə bağlı bir sıra eksponatlar qorunub saxlanılır. Məlumdur ki, Lahıc Azərbaycanın sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Lahıc qəsəbəsi dəmirçilik, misgərlik, zərgərlik, sərraclıq, silahsazlıq, xalçaçılıq, həkkaklıq və digər sənət sahələrinin inkişafı istiqamətində insanların fiziki və zehni fəaliyyətini təcəssüm etdirən kiçik areal olsa da, maddi istehsalı öyrənmək baxımından əvəzedilməz bir kontekst təşkil edir. Lahıcın sənətkarlıq emalatxanaları ilə zəngin olan küçələri özü – özlüyündə canlı muzey təsəvvürünü yaradır. 1980-ci ildən muzey – qoruğa çevrilmiş Lahıcda keçmişdən xəbər verən məhəllələr və evlər, məscid, hamam, kürəbənd sistemi hal–hazırda qayğı ilə qorunur. Lahıc Tarix Diyarşünaslıq Muzeyində burada işləyib – yaratmış sənətkarların hazırladıqları çox nəfis, incə naxışlı xalça, palaz və s. maddi – mədəniyyət nümunələri böyük maraq doğurur. Muzeydə diqqətimizi cəlb edən körük, keçən əsrə aid manqal, həcamət (xalq təbabətində işlədilir) kimi ekspozisiya nümunələri bilavasitə sənətkarlıq – metalişləmə sənətinin mürəkkəb və maraqlı cəhətlərinin bariz nümuəsidir.

Sərracların böyük ustalıqla hazırladıqları at yəhərləri də diqqətimizdən kənarda qalmamışdır. Lahıc Tarix Diyarşünalıq Muzeyində müxtəlif dövlərə aid xalçalar və yuxarıda qeyd olunan körük ekspozisiyalar arasında xeyli maraq doğuran maddi – mədəniyyət nümunəsidir.

Əsrarəngiz gözəlliyə malik olan Basqal özünəməxsus həyat tərzi ilə fərqlənən qədim yurd yerimizdir. Lahıc qəsəbəsi kimi Basqal da həm etnoqrafik, həm də sənətşünaslıq baxımından mədəni irsimizi tanıtmaq üçün mühüm əhəmiyyət kəsb etməkdədir. Daş döşənmiş küçələr, sıx tikililər, XIII əsrdən ta bu günədək fəaliyyətdə olan kürəbənd sistemi, qəsəbənin mərkəzindəki bazar meydanı, hamam, məscid və b. tarixi – ictimai binalar indi də qalmaqdadır. Basqal orta əsrlərdə Şirvanın böyük toxuculuq, ipəkçilik və boyaqçılıq mərkəzlərindən biri olub.Basqal sənətkarlarının toxuduğu kəlağayı, qanovuz və müxtəlif ipək məmulatları həm Azərbaycan, həm də xarici bazarlarda özünəməxsus yer tutmuşdur. Basqal ipək toxucuları bu nümunələri bir neçə xarici ölkələrə göndərmişlər. 1862-ci ildə Azərbaycan ilk dəfə Londonda keçirilən Ümumdünya sərgisində iştirak etmişdir. Həmin sərgidə Basqallı toxucu Nəsir Abdüləziz oğlu nümayiş etdirdiyi nəfis kəlağayı və zərif qanovuz parçaya görə gümüş medal və xüsusi diplomla mükafatlandırılmışdır (39, 17). Çox zərif və orijinal bədii xüsusiyyətlərə malik olan Basqal kəlağayıları özünəməxsus milli xüsusiyyətləri əks etdirir. Basqal qəsəbəsində etnoqrafik səfərdə olarkən kiçik, lakin çox maraqlı Basqal Kəlağayı Muzeyində də olduq. Muzeydə müxtəlif naxışlı kəlağayılar, kəlağayıya bəzək vurmaq üçün istifadə olunan taxta qəliblər, çiy ipək, kəlağayı istehsalı ilə məşğul olan ustaların nəsil şəcərəsi, keçmişə aid toxuculuq dəzgahı və s. eksponatlar qorunub saxlanılır. Muzeydə “Heyratı”, “Ağzəmin”, “Noxudu” kəlağayıları, kəlağayılara bəzək vurmaq üçün istifadə olunan müxtəlif ornamental taxta qəliblər (buta, şah, kəpənək, çobanyastığı, arpa – buğda, göbək, Qız qalası, Xarı Bülbül, tikəş, çiyələk, heratı, naz–nazı, simayi–şəms) göz oxşayır. Bu qəliblər qoz və palıd ağacından, əsasən bəzəyin forması və ölçüsü ilə əlaqədar olan formada düzəldilirdi

düzəldilirdi. Belə taxta qəliblərin üzərində böyük ustalıqla oyulmuş nəbati və həndəsi naxışlara, stilizə edilmiş quş, heyvan təsvirlərinə rast gəlirik (39, 17).

Adı çəkilən bölgənin Tarix– Diyarşünaslıq Muzeylərində əsasən mis qablar üstünlük təşkil edir. Verilən məlumata görə hələ XIX əsrin 30-cu illərində Lahıcda 52 misgər dükanı olmuşdur, Şamaxı şəhərində isə 6 misgər işləyirdi (3, 393). Hazırda Şamaxı Tarix– Diyarşünaslıq Muzeyində misdən hazırlanmış sini, sərpuc, həmçinin, çıraq böyük maraq doğurur. Bölgə muzeylərində dəmir məmulatlarına, xüsusən dəmirdən hazırlanmış təsərrüfat alətlərinə rast gəlmək olar. Bu məmulatlar bölgənin dəmirçilik sənətininin geniş inkişafından xəbər verir.

1984- cü ildən fəaliyyətə başlamış Göyçay Tarix – Diyarşünaslıq Muzeyində rayonun maddi və mənəvi mədəniyyətə aid 6000- ə qədər eksponat toplanılıb. Rayonun mərkəzi Göyçay şəhərində fəaliyyət göstərən Diyarşünaslıq Muzeyində nümayiş etdirilən eksponatlar arasında arxeoloqlar tərəfindən qədim insan məskənlərinin yerində aşkar edilmiş bəzək əşyaları, silahlar və qab − qacaq da var (35, 1).

Bölgədə xalçaçılıq, toxuculuq, keçəçilik, dabbaqlıq, boyaqçılıq, dulusçuluq və misgərlik kimi əsas sənət sahələri də inkişaf etmişdi. Tarix Diyarşünaslıq Muzeylərində bu sənət nümunələrinin müxtəlif nümunələri saxlanılır və nəsildən – nəslə ötürülür. Tarixə nəzər saldıqda məlum olur ki, sənətkarlıq Şirvan əhalisi üçün böyük əhəmiyyət kəsb edən sahələrdən biri olmuşdur. Tarixi məlumatlarda bu məsələlərə aid xeyli faktlara rast gəlmək olur: "Tətbiqi sənətdə daş və gəc üzərində oyma işi geniş yer tuturdu. Həndəsi ornamentlərlə bəzədilmiş daş oymalar sırasında Cuğa kəndi yaxınlığındakı Gülüstan türbəsinin, Bakı Şirvanşahlar sarayında qazıntı ilə üzə çıxarılmış pəncərə çərçivəsinin, bu sarayda saxlanılan Aliyə Xatun sənduqəsinin adlarını çəkmək olar. Bu abidələr XIII-XV yüzillərə aiddir" (1, 351-352).

Digər bir məlumat isə bəzi dəyərli sənət sahələrinin Şirvanda yüksək peşəkarlıq səviyyəsində inkişaf etdiyindən xəbər verir. Nəbati ornamentlə bəzədilmiş daş oyma və qabartmaların ən böyük örnəyi, dəniz güzgüsünün enməsi ilə üzə çıxan Bayıl qəsrinin bəzəkləridir. Burada on ikiyə kimi insan başı çəkilmiş oyma bəllidir.

Azərbaycan alimləri bu oymalar üzərindəki baş təsvirlərinin bir növ portret şəkli, yəni ayrı – ayrı tarixi şəxslərin olduğunu düşünməkdədirlər. Belə təsvirlərdən birinin üzərində Şirvanşah Fəribürzün adının oxunması bunu göstərir (1, 352).
Verilən məlumata görə hələ XIII-XIV yüzillərdə bədii – tətbiqi sənətin yüksək inkişaf yolunda olan sahələrindən biri metal işi idi. ...Şamaxı metal işi mərkəzləri idi. Şirvanda 1206-cı ildə tuncdan tökülmüş lüləyin bədii metal işinin gözəl nümunəsidir. Üzərindəki vazıların birində ustanın adı verilmişdir: "Məhəmməd oğlu Əli".
Bu əslində su qabı deyil, bitkin bir bədii sənət əsəridir. Bu misilsiz sənət əsərinə də Sankt Peterburq Ermitajı sahib durmuşdur (1, 352).
Məlumdur ki, əkinçilik Şirvan camaatının əsas və əhəmiyyətli təsərrüfat sahələrindən biri olmuşdur. Mənbələrdə verilən məlumata görə "Bakuvi Abşeronun kənd təsərrüfatı məhsulları haqda müəyyən məlumatlar verir, taxıldan az məhsul götürüldüyünü qeyd edir. Bakıya ərzaq, başlıca olaraq, Şirvan və Muğanın məhsuldar rayonlarından gətirildi. Gətirilən mallar, əsasən taxıl və düyü idi" (6, 354). Hazırda Şamaxı Tarix – Diyarşünaslıq Muzeyində saxlanılan əkinçilik təsərrüfatı nümunələrindən ağac xış və gavahını, Kürdəmir Tarix – Diyarşünaslıq Muzeyində isə nəzərə çarpan XIX əsrə aid kotanı, XX əsrə aid taxıl döyən vəli xüsusilə qeyd etmək olar.

1984-cü ildən fəaliyyət göstərən zəngin Zərdab Tarix – Diyarşünaslıq Muzeyi 8 bölmədən ibarətdir: 1.Təbiət bölməsi. 2.Qədim dövr bölməsi. 3.H.B.Zərdabiyə aid bölmə. 4.ADR-in görkəmli xadimlərinə aid bölmə. 5.Kollektivləşmə və Böyük Vətən Müharibəsinə aid bölmə. 6.Maarif, mədəniyyət, səhiyyə, idman və həmyerli alimlərimizə aid bölmə. 7.Şəhidlərə aid bölmə. 8.Azərbaycanın müstəqillik dövrünə aid bölmə.
Ağdaş Tarix – Diyarşünaslıq Muzeyində kirkirə, satıl, əllik, sini, sərpuc, cəhrə, yun darağı, milli geyim elementləri və digər dəyərli eksponatlar qorunub saxlanılır.
Rəngarəng, göz oxşayan pərdəbaşı isə məişətimiz haqqında insanlarda müəyyən təsəvvür oyadır.

1986- cı ildən fəaliyyət göstərən Ucar Tarix – Diyarşünaslıq Muzeyində 2500- dən çox eksponat mühafizə olunur. Maddi mədəniyyətimiz haqqında geniş təsəvvür yaradan bu eksponatlar arasında gözəl tikmə növləri, rəngarəng naxışlı xurcun və heybə, misgərlik nümunələri böyük maraq doğurur. Muzeydə müxtəlif misgərlik nümunələri, xalça və bəzəklər, məişət və mətbəx qabları muzey ekspozisiyalarında nümayiş olunan maddi mədəniyyət nümunələridir. III bölmədə nümayiş olunan bu eksponatlar təbiət, qədim dövr və müasir dövr bölmələrindən ibarətdir.

Kürdəmir Tarix – Diyarşünaslıq Muzeyində yun darağı və toxucu həvələri, cəhrə, "Şəhərgah yaşayış yeri"ndən aşkar edilən, X-XI əsrə aid gil qab nümunələri, durna çırağı, mis sərniclər, sərpuşlar, habelə mis güyüm, samovarlar diqqəti xüsusilə cəlb edir. Muzeydə olan müəyyən dövrlərdə zərb edilmiş mis sikkələr və pul əskinasları (XVIII-XX əsrlər) həmin dövr haqqında müəyyən məlumat əldə etməyəi mkan yaradır.

Bölgə diyarşünaslıq muzeylərinin eksponatları Şirvanın etnoqrafiyasını, milli – mədəni irsi özündə əsaslı şəkildə əks etdirir.

## II fəsil. XALQ YARADICILIĞI VƏ İCTİMAİ MƏİŞƏT

### 1. Xalq musiqisi

Musiqi sənəti bütövlükdə xalqın mənəvi dünyasının tərkib hissəsidir. Belə ki, musiqi mühitinin öyrənilməsi onun mənəvi mədəniyyətdə oynadığı rola aydınlıq gətirməyə, xalqın milli təfəkkürünün ifadəsini əks etdirməyə imkan verir.

Qədim Azərbaycan mədəniyyətinin– onun mənəvi aləminin, musiqi və tarixi – mədəni ruhunun yaranması, formalaşmasında şübhəsiz zəngin ədəbi ənənələrə malik Şirvan bölgəsinin də rolu vardı.

XIX-XX əsrlərdə bütün Azərbaycanda olduğu kimi, Şirvan bölgəsində də mənəvi mədəniyyətin bir çox sahələri – musiqi nəzərə çarpacaq dərəcədə inkişaf və tərəqqi ilə səciyyələnir.

Tarixi qaynaqlardan aydın olur ki, XII əsrdə saz olmuş, aşıq olmuşdur. Lakin o da bəllidir ki, sazın yarandığı, üstünlük qazandığı bir dövrdə də ozanlar qopuz çalmışlar. Deməli, ozanın və qopuzun ömrü birdən birə sona çatmamış zaman – zaman, ara – sıra səslənmişdir. Qopuzun hətta XVI əsrdə də səsləndiyi tarixi həqiqətdir (3, 227).

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şirvan bölgəsinin aşıq sənəti qədim kökləri və milli koloriti özündə əks etdirən bir mədəniyyət örnəyidir. Buna görə də saz bölgədə çox geniş yayılmış musiqi aləti olmuşdur.

Şirvan bölgəsində nəfəsli milli musiqi alətləri sırasına daxil olan balaban keçmişdə və indi toylarda geniş yayılmışdır. Şamaxı, Göyçay, Kürdəmir, Ağdaş və adı çəkilən bölgənin digər rayonlarında tütək musiqi aləti geniş yayılmış musiqi alətidir. Verilən məlumata görə nəfəsli alətlər qrupuna daxil olan tütək ney nəfəsli musiqi alətindən sonra yaranmışdı. Qədim musiqi mədəniyyətinə malik Şirvan bölgəsində nağara ilə yanaşı qoşanağara da əsas musiqi alətlərindən sayılır.

Şirvanda musiqi sənətində spesifik xüsusiyyətləri ilə seçilən digər alət yaylı – simli musiqi aləti kamançadır. Azərbaycanda, həmçinin Şirvanda bu musiqi alətinin tarixi çox qədimlərə gedib çıxır.

Bölgənin görkəmli musiqi xadimlərindən olan Əbubəkir Şirvani nəinki Şirvanda, hətta zəngin Azərbaycanımızın hər yerində musiqi sənətinin bilicisi hesab olunmuşdur. İstedadlı, məşhur musiqişünas musiqi sənətinin bütün incəliklərinə, nəzəri cəhətlərinə dərindən bələd olmuş, bölgənin musiqi həyatında müstəsna rol oynamışdır (XII əsr). Azərbaycan musiqi tarixində xüsusi rolu olan şöhrətli musiqişünasın gördüyü xidmətlər əvəzsizdir, çox təəssüf ki, onun bizə yalnız "Musiqi – İxvanus Səfa əsəri qalmışdır.

Şirvanda musiqi sənəti spesifik xüsusiyyətləri ilə seçilən saz − balaban− nağara və qoşanağara müştərəkliyi ilə seçilir və mükəmməl bir kompleks təşkil edir. Ağsulu yastı balaban ustası Kərimov Əli çağdaş Azərbaycan zurna– balaban məktəbini yaratmış və inkişaf etdirmişdir. Kərimov Əli Zülfüqar oğlu 1874- cü ildə Ağsu rayonunun Kalva kəndində dünyaya göz açmış və burada pərvazlanmışdır. Məşhur musiqişünasın ərsəyə gətirdiyi təkrarsız "Koroğlu nağarası" musiqi dünyamızın rəngarəngliyini duymağa, hiss etməyə imkan verir. El sənətkarı Əli Kərimov həmçinin dərin məzmunlu, özündə ülvilik və gözəlliyi cəmləşdirən "Sərvəri", "Alçagülü" və "Heyvagülü", "Xırdaca" bəstələrinin müəllifidir.

Verilən məlumata görə görkəmli sənətkar Əli Kərimov o zamanın ünlü musiqişünas ədib və şairlərinin bir araya toplaşdığı məşhur "Beytüs Səfa" məclisinin üzvləri ilə, həmçinin M.A.Bixud və M.Ə.Sabir ilə yaradıcılıq əlaqələrinə malik olmuşdur. Fəxr edici hallardan biridə odur ki, o, Moskvada keçirilən Azərbaycan mədəniyyəti ongünlüyündə qara zurna ilə çıxış etmiş, Azərbaycanı ləyaqətlə təmsil etmişdir.

Ağsu Tarix Diyarşünaslıq Muzeyində mühafizə olunan, Əli Kərimova məxsus əşyalar və musiqi alətləri mənəvi mədəniyyətin əsas tərkib hissəsi kimi musiqi sahəsinin öyrənilməsinə müsbət təsir göstərə bilər.

**Rəqs**

Azərbaycanda geniş yayılmış Abayı, Asma Kəsmə, Ay bəri bax, Azərbaycan, Bənövşə, Birilliant, Çalpapaq, Ceyrani, Gəlin atlandı, Gəlin gətirmə, Gəlin havası, Gülgəz, Heyvagülü, İnnabı, Kəndiri, Koroğlu, Lalə, Mirvari, Misri, Naznazı, Yallı, Qaytağı, Qazağı, Qoçəli, Şahsevəni, Şalaxo, Səməni, Tərəkəmə, Toy və Uzundərə, Vağzalı, Zoğalı, Xançobanı mənəvi dəyərlərimizi özündə ehtiva edən milli rəqslərimizdəndir.Zəngin mənəvi mədəniyyətə malik Şirvan bölgəsində qeyd olunan ənənəvi milli rəqslər geniş yayılmışdır. Məlumdur ki, XIX əsrin ortalarında Peterburq Rəssamlıq Akademiyasının prezident müavini Q.Q. Qaqarin Azərbaycanın bir sıra bölgələrində, o, cümlədən Şirvanda − Şamaxıda olmuş, gözəl sənət əsərləri yaratmışdır. Onun "Şamaxı rəqqasəsi" adlı tablosu Şirvanın mahir musiqi ifaçıları və rəqqasələri haqqında etnoqrafik məlumat toplamaq baxımından dəyərli sənət əsəri hesab edilə bilər. Ümumiyyətlə, Şamaxıda olan digər səyyahlar, xüsusən Avropa səyyahları da Şamaxı rəqqasələrini gözəl, yüksək qiymətləndirmiş, onların incə və peşəkar rəqslərindən bəhs etmişlər. Şamaxıda "cəngi" dəstəsini təşkil edən səkkiz rəqqasə qız – Nisə, Səkinə, İzzət, Rəna, Məlakə, Qəndi və Badam bir – birindən öz gözəlliyi, çevikliyi və oynaqlığı ilə seçilirdilər. Rəqqasələrin hərəsinin öz yeri, öz ədası, sallanışı və duruşu, baxışı və oyun manerası var idi. Lakin onların içərisində Nisədən sonra ən cazibədar "cəngi" gözəli Sona idi (3, 258).

**Muğam**

Çalan, çağıran, əsrarəngiz, ruhu qidalandıran Şirvan musiqi sənətini muğamsız təsəvvür etmək olmaz. Qeyri – adi, nüfuzedici və təkrarsız səsi, öz dəst xətti olan Şirvan muğam ustalarının şan – şöhrəti, ad– sanı nəinki bütün Şərqdə, hətta Avropada, uzaq Amerikada belə yayılmış, nüfuzedici səsi ilə müxtəlif millətlərin insanlarını valeh etmiş, dərin ehtiramına səbəb olmuşdur. Bölgənin dünya şöhrətli muğam ustalarının oxuduqları “Şur”, “Rast”, “Mahur”, “Çahargah” və “Bayatı Şiraz” təkcə ölkəmizdə deyil, bütün dünyada xalqımıza başucalığı gətirmiş, bəşəri şöhrət qazandırmışdır.

Şirvanın tanınmış el sənətkarlarında biri olan tanınmış xanəndə Mirzə Məhəmmədhəsən İsmayıl oğlu Fələkzadə XIX əsrin ortalarında Şamaxıda dünyaya gəlmiş, yaşayıb – yaratmışdır. Mirzə Məhəmmədhəsən şamaxılı mesenat Mahmud ağanın sarayında təşkil olunan muğam məclislərində püxtələşmiş, dövrünün məşhur xanəndələrindən biri kimi tanınmışdı (3, 193). Şirvan torpağının yetirməsi olan bu məşhur xanəndənin 1916- cı ildə “Nalə” adlı şeirlər kitabı nəşr olunmuşdu. Təkcə Şirvanda deyil, bütün Azərbaycanda məşhur olan Mirzə Məhəmmədhəsən “Sarıtorpaq şikəstəsi”nin və bir çox təsniflərin müəllifi olmuşdur. “Hümayun”, “Şur”, “Şüştər” və “Rast” muğamlarını, xüsusilə “Mənsuriyyə” zərbi muğamını el şənliklərində və məclislərində böyük ustalıqla oxuyan xanəndənin ifa tərzinin öz yeri, öz gözəlliyi var idi.

Şamaxılı Alim Qasımov çağdaş Azərbaycan muğamının ən məşhur ifaçılarından sayılır.

Ta qədimdən dövrümüzədək elm, mədəniyyət mərkəzi olan Şirvan bölgəsinin musiqi sənəti nəinki Azərbaycanın, hətta müsəlman Şərqinin musiqi sənətinə nüfuz etmiş, onun inkişafında əhəmiyyətli rol oynamışdır.

**Aşıq sənəti**

Azərbaycan musiqi sənəti sahəsində özünəməxsus yeri və siması olan Şirvan aşıq mühiti orijinal və ənənəvi ifa tərzinə malik olan aşıq mühiti hesab olunur.

Bölgənin özünəməxsus xüsusiyyətləri və spesifik cəhətləri ilə seçilən aşıq söz sənətinin müstəsna cizgilərə malik olmasının genetik səbəbləri vardır. Bu min illik şərəfli tarixə malik Şirvanşahlar dövlətinin qədim ədəbi – mədəni ənənələrə malik olmasından irəli gəlirdi (47, 101).

Əsrlərdən bəri süzülüb gələrək folklor dünyamızın əsas rüşeymini təşkil edən ozan sənətimiz bölgənin hər bir guşəsinin bədii söz sənətini özündə əks etdirir. Onu da qeyd etməliyik ki, sufi təkkə ocaqları demək olar ki, Şirvan bölgəsinin bir çox yerlərinə yayılmış, aşıq sənətinə də müəyyən dərəcədə təsir etmişdir.

S.Qəniyev qeyd etmişdir ki, Şirvan ozan – aşıq sənətinin (eləcə də mühitinin) özünəməxsusluq sima kəsb etməsində əsas rol oynayan cəhətlərdən biri də bu regionda xüsusi inkişafa malik sufi təkkə ocaqlarının, təsəvvüf– irfan ədəbiyyatının təsiridir. Həmin təsirlə qaynaqlaşıb yoğrulmuş Şirvan aşıq mühitini və sənətini başqa mühit və sənətlərdən seçdirən, özümləşdirən ən başlıca cəhət də, bizcə, elə bu təsirlə izah olunmalıdır. Şirvanın bir çox bölgələrində yurd tapmış sufi ocaqlarının üzvləri el məclislərində iştirak edir, aşıqlarla görüşür və ünsiyyətdə olurdular. Bu sufi dərviş ocaqlarının Şirvan aşıq mühitinə təsiri böyük olmuşdur (47, 101-102). Daha sonra S.Qəniyev yazır: Şirvan aşıq mühitində təsəvvüf – aşıq münasibətləri qarşılıqlı təsir xarakteri daşımışdır. Belə ki, sufilər təriqət görüşlərini yaymaqdan və kütləviləşdirməkdən ötrü el məclislərinə, el sənəti olan aşıqlığın kütləvi təsir gücünə üz tutmuşlar. Eləcə də aşıqlar öz sənətlərinə ilahi – irfani boya, güc, təsir verməkdən ötrü təsəvvüf təsirinə meylli olmuşdur (47,102). Həqiqətən də aşıq yaradıcılığının sufizmin nəzəri qaynaqları ilə bağlılığı tarixən mövcud olmuşdur.

XIII-XIV əsrlərdə Anadoluda Yunis İmrənin yaradıcılığı ətrafında birləşən bu məktəb onun ideyaları ətrafında sufi dünyagörüşünü– yəni Allaha qovuşmaq fikrini dəstəkləyir. Anadolu aşıq məktəbinin bir qolunu təmsil edən Baba İsaak isə

edam olunsa da, bu məktəbin yolunu səmtləşdirir. Onun ölümündən sonra bir müddət su-fizmin təsiri hiss olunsa da, XIV əsrdə ozan sənətinin nüfuzu Osmanlı dövlətində
əhəmiyyətli yer tuturdu (44, 1).

Oğuznamələr də çox qədimlərdə qələmə alınıb, min illik bir tarixi əhatə etsə də aşıq yaradıcılığına köklü surətdə təsir etmişdir. Bu bədii forma isə oğuz türklərinin folklorunda çox qədim dövrlərdə meydana gəlib,orta əsrlərdə qələmə alınmaqla, ta-rixləşməklə şifahi şəkildə xalq arasında yaşamaq ömrünü başa çatdırmışdır. Lakin oğuzların varislərinin gen yaddaşında elə izlər buraxmışdır ki, sonrakı çağlarda da meydana gələn mənəvi mədəniyyətin hər birində onun ruhu, ılıq nəfəsi hiss olunur. Başqa sözlə, oğuznamələrin özülü üzərində yeni formalar yaranıb yayılmış, ozanlı-ğın başqa sinkretik yaradıcılıq sənəti ilə – aşıqlıqla əvəzlənməsi nəticəsində dastan, nağıl,eləcə də yazılı ədəbiyyatda qisə, məsənəvilərin içərisində əridilmişdir (45, 1). Aşıq sənətilə bağlı,onun tarixilə əlaqədar olan yanşaqlar o qədər də qədimlərlə səs-ləşməyən və lokal səciyyə daşıyan sənətkarlardır. Şübhəsiz, yanşaqlar eldə – oba-da ozanların və aşıqların əkizidir, eyni mənanın müxtəlif şəkildə deyilmə tərzidir (3, 199).

Qədim türkdilli xalqlarda şaman, qam, oyun, baxşı, yanşaq, varsaq və nəhayət ozan kimi tanınan sənətkarlar bugünkü aşığın əcdadları sayılırlar. Ozan sənəti yüzilliklər və minilliklər boyu böyük təkamül yolu keçərək aşıq sənətinə çevrildiyi kimi, qo -puz da ona oxşar təkamül yolu keçərək saz aləti şəklini almışdır (79, 1).

M.Hacıyeva qeyd etmişdir ki, aşıq sənəti XI-XII əsrlərdə yeni ictimai səslənmə tə-zahürü kimi formalaşaraq mənəvi – tərbiyəvi vasitəyə çevrilmiş və cəmiyyətin so-sial – iqtisadi və kulturoloji sahələrində az əhəmiyyətli rol oynamamışdır (36, 1).

T.Bünyadov yazmışdır ki, əsrlərlə yaşayıb inkişaf edən aşıq sənəti sinkretik bir sənət hesab edilir (18, 41). Doğrudan da aşıq sazda ifaçı rolunu oynayır, şeir deyir, dastan söyləyir, həmçinin rəqs edir. Xalqın mənəvi irsinə yaxından bələd olan Ə.K. Ələkbərov xalq yaradıcılığının daşıyıcısının aşıq olduğunu hesab edir. O, belə he-

sab edir ki, aşıq həm dastançı, həm musiqiçi, həm də oxuyandı (31, 91).

Orta əsrlərdə Anadolu və Anadolu ətrafı ərazini əhatə edən aşıq məktəbindən qaynaqlanan bu sənət Azərbaycanın şimal, qərb və cənub hissəsinə yayılır və üç məşhur məktəbin timsalında davam edir ki, bu da Təbriz,Borçalı və Şirvan məktəbləridir (44, 1).

Aşıq sənəti dünyada baş verən kataklizmlər, təzadlardan asılı olmayan bir vəziyyət olmayan bir vəziyyətdə mövcuddur. Onun xalq yaradıcılığından irəli gələn öz qanunauyğunluqları vardır ki, bu yaradıcılıq məişətdə yaşayır və təkmilləşərək daha mühüm həyati problemlər, mövzu və musiqi ifası irəli sürərək yaşayacaqdır. Aşıq sənəti dünyada baş verən kataklizmlər və təzadlardan asılı olmayan bir vəziyyətdə mövcuddur. Onun xalq yaradıcılığından irəli gələn öz qanunauyğunluqları vardır ki bu yaradıcılıq məişətdə yaşayır və təkmilləşərək daha mühüm həyati problemlər və mövzu, musiqi ifası irəli sürərək yaşayır (8, 1).

Azərbaycan aşıq sənətinin özünəməxsus sima kəsb etməsi və inkişafında Şirvan regionuna mənsub sənətkarların rolu misilsiz olmuşdur. Aşıqlar və el şairləri ilə bağlı apardığımız araşdırmalar nəticəsində müəyyənləşdirmək mümkün olmuşdur ki Şirvanda yaşayıb – yaratmış aşıqlardan Molla Qasım Şirvani (XIII-XIV əsrlər), Əsir Şirvani (XVI-XVII əsrlər), Saleh Şirvani (XVII əsr), Zabit Şirvani (XVIII əsr), Padar Surxay (XVIII əsr), Kargər Əhməd (XVIII əsr), Məlikballı Qurban(XVIII-XIX əsrlər), Mustafa Kolanı (XVIII-XIX əsrlər), Çürük İslam (XIX əsr), Barıdday Soltan (XIX əsr), Udulu Musa (XIX əsr) və Şamlı Cabbar (XIX əsr), Gəray Musa oğlu (XIX-XX əsrlər), İman Xudaverdi oğlu (XIX-XX əsrlər) və Qoçağa Mustafa oğlu (XIX-XX əsrlər), Kolanılı Molla Əziz (XIX-XX əsrlər), Padar Ağababa (XIX-XX əsrlər), Padar Qənimət (XIX-XX əsrlər), Şair Qara (XIX-XX əsrlər), həmçinin Ağbaşoğlu (XIX-XX əsrlər), aşıq Söhbət Həzər oğlu (XIX-XX əsrlər), Məşədi Əmrah (XIX əsr), Dovğaçıoğlu Azay (XIX-XX əsrlər), aşıq Qasım Şirvani (XIX-XX əsrlər), Məhəmməd Abdulla oğlu (XX əsr), Mirzə Aslan oğlu (XIX-XX əsrlər), Məşədi Abbas Şirvani (XIX-XX əsrlər), Şərifalı Şirvani (XIX-XX əsrlər), Orucəli Gora-

ni (XIX-XX əsrlər), Məhəmməd Zahid Şirvani (XIX-XX əsrlər) ... və başqaları olmuşlar (47, 110).

Şirvan aşıq sənətinin özünəməxsusluq kəsb etməsinin əsas meyarlarından biri də saz havaları ilə muğamın sintez edilərək xüsusi ifa tərzinin yaradılmasıdır.

Yuxarıda qeyd olunan aşıq yaradıcılığı sinkretikliyini Şirvan aşıqlarına da aid etmək olar, belə ki, Şirvan aşıqları həm saz çalıb oxuyur və oynayır, həm də dastan söyləyirdilər. XIX-XX əsrin əvvəllərində Şirvanda aşıq poeziyasının əsas mövzusu etnoqrafik çalarlar, sevgi – məhəbbət motivləri, gözəlliyin tərənnümü, zəmanədən şikayət, çar və yerli məmurların özbaşınalığı olmuşdur. Şirvan el şairlərindən Azay Səfəralı oğlunun da şeirləri rəvan təbə malik olmuşdur. O, əsərlərini "Doğaçıoğlu" təxəllüsü ilə düzmüşdür. Aşıq Şirvan mahalının Bağırlı kəndində anadan olmuşdur. Onun bizə bir neçə şeri, "Məni gör", "Boz qaya", "Dəli dağ" və"Küdrü düzü" gəlib çatmışdır. Şairin şerlərində bəzən etnoqrafik çalarlar görmək mümkündür:

Çutqusu aldı, xaradı,
Bafta qoyub zərxaradı,
Yarıb, ürəyim yaradı,
Göz yaşımı siləndə bax

Yuxarıdakı misralarda zəngin və çoxçeşidli Azərbaycan milli geyiminin ayrılmaz tərkib hissəsi olan baş geyim elementlərindən – xaradan tikilmiş çutqudan, zərxaradan toxunmuş baftadan yazılımışdır.
Şair digər şerində

Nişanlım qərib eldədi,
Gümüş kəməri beldədi,

Qızıl sırğanı yellədi,
Cilvələnib gələndə bax (47, 137-138).

Misralarda təsvir olunan qızıl sırğa, gümüş kəmər isə milli geyimlərin ayrılmaz tərkib hissəsi olan və incə estetik elementləri özündə ehtiva edən bəzəklərdən xəbər verir. Göründüyü kimi yurdu el – el gəzən aşıqlar xalqın məişətnə hərtərəfli bələd olmuş, xüsusilə də tarixi köklərdən gələn, xalqın yaradıcılıq zövqünü özündə əks etdirən, milli geyim elementlərini öz qoşma, gəraylı, təcnislərində əks etdirmişlər. Bundan əlavə şeirlərdəki  misralardan şübhəsiz ki, Şirvan camaatının geyim mədəniyyəti və sosial mənsubiyyətini də müəyyənləşdirmək mümkündür.

XIX əsrdə (ili məlum deyil) Şamaxıda anadan olmuş, burada yaşayıb – yaratmış Aşıq Saleh qırx ildən artıq saz – söz məclislərində çıxış etmişdir. Saleh aşıq şerinin qoşma, gəraylı, təcnis və s. formalarında əsərlər yaratdığı kimi, klassik poeziyaya, onun şeir texnikasına da bələd olmuşdur. Onun güllü qafiyəli şeirində deyilir:

Bir gülüzlü nigar, sərvi xoşrəftar,
Cümlə xalqa izhar, bəllidi adı.
Zülfün gördüm tərrar (yolkəsən, quldur),
Oldum giriftar (tutulmuş, ələ keçmiş)
Kəsdi məndən qərar çeşmi cəlladı (47, 159).

Misralarda aşığın sevgilisinin bütün zahiri gözəlliklərini qələmə almasını və bu gözəlliyi sadə, ahəngdar bir dillə tərənnüm etməsini sezmək mümkündür.

Bu sənətin incəliklərini bilən Şirvanlı aşıq Bilal Mikayılov 1872- ci ildə Ağsunun Qəşəd kəndində anadan olmuşdur. Şamaxıda Seyid Əzim Şirvaninin məktəbində təlim və təhsil alan aşıq Bilal tədricən inkişaf edərək ustad aşıq kimi yetişir.

O vaxtlar bu məktəbdə Sabir və Abbas Səhhət də təhsilə başlamışdılar.

Ümumiyyətlə, Şamaxı mühiti aşığın həyatında və sənətində danılmaz iz buraxır.

Ustadı aşıq İbrahim Əngəxaranlının əməyi və zəhməti ilə ustad aşıq səviyyəsinə çatan aşıq Bilal özü bir aşıq məktəbi yaradır. Bu məktəbin şagirdlərindən şamaxılı Aşıq Abbas, ağsulu Aşıq Şakir, Kürdəmirli  Aşıq Əhməd, Ucarlı Aşıq Soltan, Aşıq Eyvaz, Aşıq Pirməmməd, Aşıq Qurbanxan, Bilal oğlu Aşıq Ağalar və b. əvəzedil-

məz sənətkarlar hesab olunurlar (51,148). Onun şeirlərində daha çox çar mütləqiyyətini qamçılayan çalarlar müşahidə olunur. Aşığın “Pristavın əlindən” şeiri onun həbsxanaya salınmasına səbəb olur:

Çalıb – çapıb dağıdır
Yağı oğlu yağıdır...
Yediyimiz ağıdır
Pristavın əlindən (51, 148).

Bu şeirə görə 1917- ci ildə Aşıq Bilal çar hökuməti tərəfindən həbs olunur. Bir qədər sonra aşıq azadlığa buraxılır. 1928- ci ildə Aşıq Bilal Mikayılov Bakıda Azərbaycan aşıqlarının birinci qurultayının nümayəndəsi seçilir. Qurultayda aşığın adı hörmətlə çəkilir, ona mükafat təqdim olunur. Mühitinin aşıq sənətini mükəmməl bilən və yaradıcılığı ilə yaddaşlara köçən aşıq həm də dövrünün savadlı ziyalılarındanidi. Nizami, Füzuli, Sədi, Hafiz, Vaqif, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Qurbani, Xəstə Qasım, Ələsgərin yaradıcılığını dərindən, mükəmməl bilən ustad şeir və musiqi sənətinə dərindən yiyələnmişdi (51,149). Aşıqların I qurultayının nümayəndələrinin təklifi ilə Aşıq Mirzə Bilala “Ustad Aşıq”, “Dədə Bilal”, “Aşıqların atası” adlarına layiq görülür. Aşığın yaradıcılığını qoşma, təcnis, gəraylı, bayatı və deyişmələr təşkil edir. Şirin səsi, xoş avazı, ən əsası isə sözü ilə xalqın ürəyini riqqətə gətirən el aşığı həmişə toy və bayram şənliklərinin bəzəyi olmuş, özünün çalıb – oxumaq məharəti ilə çoxlarını geridə qoymuşdu. Xalq arasında böyük hörmət və nüfuz sahibi olan Aşıq Bilalı Bütün Qafqazda tanıyırdılar (51, 149).
Aşıq Ələsgərin sənətinə və şəxsiyyətinə pərəstiş edən Aşıq Bilal onu Şamaxıya dəvət etmişdi:

Ustadla istərəm bir qılam söhbət,
Sənətkar adına varımdır hörmət.

Bilal ariflərə eyləyir xidmət,
Şamaxıya – bizim yana gəlginən (51, 149).

Aşıq Bilal danışırdı: "Bir gün Ağsunun Ərəbmehdibəy kəndində kasıb bir adamın oğluna toy edirdim. Günorta olardı, məclis əhlinə dastan söyləyirdim. Hamı diqqətlə qulaq asırdı. Elə bu vaxt bir nəfər gəlib dedi ki, səni Səlim bəy çağırır. Məni toy adamları agah etdilər ki, bu gün həm də kənddə Səlim bəyin oğlunun toyudur. Toy adamlarından icazə alıb həmin məclisə getdim. Bəylərin məclisində xanəndə Cabbar Qaryağdıoğlu, tarzən Qurban Pirimov, kamançaçı Saşa Oqanazaşvili çalıb – oxuyurdu. Mən məclisə daxil olan kimi Səlim bəy Cabbara dedi ki, qavalı ver Aşıq Bilala. ...Qoy o, bizim üçün muğam oxusun. Qurban Pirimov məndən soruşdu: Aşıq hansı muğamı çalım? "Rast" muğamını oxuyacağımı bildirəndə Qur -banı heyrət bürüdü. O, tarını "Rast" üzrə köklədi. Mən oxumağa başladım. Mən ta-rı öz arxamca aparırdım. Oxuduğum "Rast" iki saata yaxın çəkdi. Cabbar da, Qur- ban da məni öpdülər. Muğamı çox gözəl ifa etdiyimi söylədilər. Zarafatla bildirdi- lər ki, belə getsə bizim də çörəyimizi əlimizdən alacaqsan." (51, 151). 1937- ci ilin yayında Aşıq Bilal həbs olunur, 1942-ci ildə həbsxanada vəfat edir. 1954- cü ildə sevilən el aşığı bəraət almışdır.

Ağsu aşıqlarından Söhbət Həzər oğlunu da adını qeyd etmək olar. XIX əsrin 30-40-cı illərində Ağsu rayonunun Ləngəbiz kəndində tərəkəmə ailəsində anadan olmuş Söhbət Həzər oğlu saz, söz sənətinin vurğunu olmuşdur. 1916-cı ildə dünyasını dəyişən Söhbət Həzər oğlunun şeirlərindən yalnız bu parça qalmışdır:

Dünyaya kasıb da, varı olan da,
Eşidin, mollalar, bir dəfə gəlir.
Nəfsi də dünyanı alan, məzara,
Beş arşın ağ ilən bir kəfən gəlir (47,136).

Aşıq digər şeirində yazır:

Bu dünyadan arzu, kamın alanlar,
Başqasını quyulara salanlar,
Qonşusuna talan təbli çalanlar,
Əgər kişisə də mənə zən gəlir.

Şairə görə, dünya yaxşı insanlardan xali deyil. O, şeirin əvvəlində dünyanın ədəbi– əzəli qanunlarının pozulmazlığını bədii – poetik yolla ifadə edir. Söhbət üzünü bu dünyaya xam gəlib, xam gedənlərə tutur, həyatda mərdlik qanunları ilə yaşamağın asan olmadığını onlara xatırladır (47, 137). El aşığı öyüd– nəsihət və nəfsin tərbiyə edilməsi məsələləri ilə bərabər, mənəvi əxlaqi dəyərlərin də üstün keyfiyyət olduğunu göstərmək istəmişdir.

XIX əsr Şirvan aşıq yaradıcılığının daha bir təmsilçisi Aşıq Səməndər Mirzalı oğlu olmuşdur. O, Kürdəmirdə anadan olmuş və 1912- ci ildə orada vəfat etmişdir. Həyatında baş vermiş nakam sevgi hadisəsi onun lirikasında dərin iz buraxmışdır. El içində o, "haqq aşığı" kimi də tanınmışdır. Əldə olunan gəraylısında da bu sevgi motivləri görünür:

Ay ağalar, ay qazılar,
Yar əlimdən getdi mənim.
Vəsli yarə tamarzılar,
Yar əlimdən getdi mənim (47, 165).

Ötən əsr Şirvan aşıq poeziyasının başqa bir nümayəndəsi Aşıq İsmayıl təxminə n1850-60- cı illərdə Ağdaşın Kür qırağındakı Abad kəndində anadan olmuşdur. Aşıq İsmayılın şeirləri bu gün də Şirvan sənətkarlarının dillərinin əzbəri olmuşdur. Şeirlərdən birində yazır:

Könül hər an səni anıb ağlayır,
Çəp baxışın əl – qolumu bağlayır,

Nazü qəmzən ürəyimi dağlayır,

Səndən mənə möhnət qalır, ay Ülkər! (47, 166).

Göründüyü kimi aşığın yaradıcılığında məhəbbət hissinin yüksəkliyi, gözəllik, oynaqlıq və sadəlik aydın şəkildə nəzərə çarpır.

1924- cü ildə Ağsu rayonunda anadan olmuş Aşıq Şakir Kürdəmir şəhərində yaşamış və yaratmışdır. Aşıq Bilalın yetirməsi olan Aşıq Şakir məzmunca dərin sənət nümunələri ilə Şirvan aşıq sənətinə yeni nəfəs vermişdir. "Şirvan şikəstəsi", "Telli sazım", "Kəndimiz", "Nə bağ bildi, nə də bağban", "Bakı", "Maral", "Döymə Kərəm", "Bala nərgiz" havaları bir– birindən gözəl sənət əsərləri olmaqla yanaşı, həm də Şirvan bölgəsinə mənsub ifa tərzi ilə də seçilmişdir. El sənətkarı saz havaları ilə muğamı məharətlə sintez edərək özünəməxsus ifa tərzini yaratmışdır. Şirvan aşıq məktəbində müstəsna xidmətləri olan Aşıq Şakirin lirik saz havaları gələcək nəsillər üçün örnək ola biləcək qədər əhəmiyyət kəsb etmişdir.

XIX əsr Şirvan aşıq şerinin başqa bir nümayəndəsi Aşıq Mürsəl Babaş oğludur. O, Şirvan mahalının Kolanı elatında anadan olmuşdur. Aşıq şeirinin gəraylı, qoşma və deyişmə kimi janr, formalarında şeirlər qoşmuşdur.

Dövrümüzə çatan bayatılarından birində Aşıq Mürsəl deyir:

Kolanı elim mənim,
Arxamda selim mənim.
Diriykən diri dünyam
Ölərsəm, gorum mənim (47, 168).

Aşıq Mürsəlin bir neçə şeiri əldə edilmişdir. Bu şeirlərdən onun incə ruhlu, gözəl təbli insan, həyat və dünya aşiqi olması açıq boy verir. Aşıq gəraylısında deyir:

Ala gözlü, qələm qaşlı,
Gəl, qoyma avara məni.

Həsrətindən gözüm yaşlı,
Gəl, qoyma avara məni.

Dərdindən olmuşam xəstə,
Gözüm qalıb yollar üstə.
Nə istəsən, məndən istə,
Gəl, qoyma avara məni.

Sənsiz qara bağlaram mən,
Bu sinəmi dağlaram mən.
Gecə – gündüz ağlaram mən,
Gəl, qoyma avara məni (47, 168-169).

Sonda qeyd etmək yerinə düşərdi ki, Şirvan aşıq poeziyasında əsasən etnoqrafik çalarlar və sevgi – məhəbbət motivləri xüsusi yer tutur. Şirvan aşıq yaradıcılığında gözəlin təsviri və sevgi – məhəbbət mövzularından əlavə məmurların tənqidi meylləri də aydın şəkildə özünü göstərir.

Müasir qloballaşma prosesləri, elmi– texniki tərəqqi Azərbaycan xalqının milli mənəvi varlığında əsrlərlə formalaşmış zəngin və qədim adət – ənənələrinə təsir göstərə bilmədi. Əski çağlardan üzü bu yana mövcud olmuş bu xeyirxah və mütərəqqi ənənələr Azərbaycanın Şirvan bölgəsində hələ də qalmaqdadır. Hazırda toy məclislərində müasir musiqinin üstünlük təşkil etməsinə baxmayaraq Şirvan bölgəsinin əhalisi öz xeyir işlərində, el şənliklərində aşıq musiqisinə xüsusi önəm verirlər.

Hazırda Ağsu, Şamaxı, Göyçay, İsmayıllı və Kürdəmir rayonlarında saz çalıb oxuyan və rəqs edən aşıqlar bayramlarda və şadlıq məclislərində aşıq sənətini təmsil edən yaradıcı aşıqlardan sayılırlar.

## 2. Bayramlar

### Xalq bayramları

Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının əski çağlardan daşıyıb gətirdikləri mənəvi dəyərlər sistemində Novruz bayramının özünəməxsus yeri vardır. Bütün insanlar Novruzu– Yeni ili eyni ümidlərlə– xoş möcüzələr, yeni uğurlar və xoşbəxtlik arzusuyla gözləyir,bayramı öz adət ənənəsinə uyğun qarşılayırlar. Azərbaycanda hər il bu bayramı martın 21-i ilə 23-ü arası qeyd edirlər. Süfrənin bəzəyi səməni yazın simvolu kimi göyərdilir. Hər evdə şəkərbura,paxlava, qoğal, fəsəli, qatlama kimi şirniyyatlardan ibarət xonça bəzədilir.
Azərbaycanda adətə görə Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının və əkinçiliyin rəmzidir. Azərbaycan kəndlisi səməni göyərtməklə növbəti təsərrüfat ilinə bərəkət, bolluq arzulamış, bayrama dörd həftə qalmış hər çərşənbə axşamı, bayram günü tonqal qalamaqla, mahnı qoşmaqla oda və atəşə, günəşə olan etiqad, inamını ifadə etmişdir (56, 1).
Novruz bayramı ərəfəsində həyət − baca təmizlənir, evlər silinib − süpürülür, hamı təmiz və şux geyinib bayram əhval − ruhiyyəsində olurdu. İnama görə, həmin gün bütün küsülülər barışmalı, düşmənçilik aradan qaldırılmalı idi. Kənara çıxan ev əşyaları evə gətirilməli idi. Səfərdə olan ailə üzvləri də çalışırdılar ki, Novruz bayramı günü özünü evə çatdırsın. Mart ayının 21-də, çərşənbə axşamı bütün ailə üzvləri bir yerdə − bayram süfrəsi arxasında əyləşərək oda, atəşə − yanan lampaya, ocağa, çırağa, şama, səməniyə, qiymətli daş – qaşa tamaşa edirdilər. Belə olduqda, etiqada görə, yeni il onlara bərəkət, səadət və xoşbəxtlik gətirməli idi (58, 238).
Təbiətdən alınan təbii boyalarla yumurta boyanması dünyanın və təbiətin yenidən rənglənməsi və ya dirilməsi mənasını simvolizə etməkdədir. Döyüşdürülən yumurtalar da iki dünyanın – qışla yazın, soyuqla istinin, xaosla – kosmosun mübarizəsini nümayiş etdirməkdir. “Toxum cücərtmək” və ya “Səməni qoymaq”da bir şəkildə təbiəti canlandırmaq və ona təsir etmək vasitəsi kimi anlaşılır. “Qulaq falı” və ya

“Qapı pusmaq” da yeniləşmənin məlumat səviyyəsini əks etdirir. Eyni zamanda da bayram leksikonunu nəzarətdə saxlayaraq onun sakral məzmununu və mühafizəsini təmin edir (40, 63).

Bayram ərəfəsində və bayramda həyət bacanın təmizlənməsini, evdə təmizlik işlərinin aparılmasını, küsülülərin barışmasını, səfərdə olanların mütləq evə qayıtmasını, səməni cücərdilməsini, insanların tonqal üstündən hoppanmasını və başqa nəsnələri Azərbaycanın Şirvan bölgəsində də müşahidə etmək mümkündür.

Şirvanda bilinən xalq təqviminə görə qış iki çilədən (40 gün böyük və 20 gün kiçik çilə) və boz aydan (30 gün) ibarətdir. Çilələrin çıxması təxminən 1970- ci illərə qədər qeyd olunurdu. Çilə mərasimi evlərdə keçirilərdi. Çilə çıxdı keçirən adam, çiləyə dəvət edərdi. Çilə mərasiminin iştirakçıları əsasən, qızlar və qadınlar olardı. Azyaşlı oğlan uşaqları da çiləyə gələ bilərdilər. Çilədə primitiv üsulla çalar, nəğmələr oxuyar, nanaylar söylənərdi. Buğdadan qorğa qovrular və iştirakçılara paylanardı. Çilədə çilə üçün saxlanılan qarpız kəsilərdi. Çilələr aktivliyini itirdikdən sonra, çilə qarpızı Novruz bayramına saxlanılardı. Kürdəmirin Həmzəli kəndində Novruz bayramına qarpızla yanaşı yemiş də saxlanılırdı. Bu ənənənin indi də qorunduğu sahə xeyli daralmışdır və artıq kütləvi xarakter daşımır (40, 134-135).

Qədim xalq inamlarına görə, dünyanın və bütün mövcudatın yaranışı bilavasitə dörd başlıca ünsürlə – su, od, torpaq və küləklə əlaqədardır. Qışın sonunda (21 fevraldan- 21 martadək) bütün canlı aləm və cansız təbiət tədricən qış yuxusundan oyanmağa başlayır. Göstərilən müddətin birinci həftəsində su qızmağa başlayır, isti küləklər əsir, bunun nəticəsində ağaclar, bitkilər oyanır, onların gövdəsi sulanır, tumurcuqlar əmələ gəlməsi üçün şərait yaranır. 2-ci həftə od oyanmağa başlayır, buzlar əriyir və əvvəlki şaxtalar olmur. 3- cü həftədə torpaq və nəhayət, dördüncü həftədə “külək oyanır”, başqa sözlə desək istilər düşür, od adamın canını qızdırır. Ona görə də müsəlman həftəsinin birinci günü olan hər çərşənbə axşamı bir ay müddətində bayram günləri kimi qeyd olunurdu. Həmin günlərdə böyük tonqallar qalanır, hamı bu atəşfəşanlığa toplaşır və “ağırlığım–uğurluğum burda qalsın” deyib tonqa-

lın üstündən atılırdılar. Axırıncı çərşənbə daha canlı, daha dəbdəbəli, daha da şən keçirilirdi (38, 237- 238).

Novruz bayramının mövsümlə, xalqın təsərrüfat, mədəni və məişət həyatı ilə dərindən bağlılığı o qədər güclü idi ki, islam dini də bu bayramı xalqların, o cümlədən azərbaycanlıların həyatından silə bilmədi. Əslində bayramı xarakterizə edərkən onun bir sıra mərasim və ayinlərində islamın izləri demək olar ki, görünmür, əksinə islamdan əvvəlki dünyagörüşlərin izləri daha aydın sezilməkdədir, çərşənbələrdə tonqalın qalanması, su atma, tonqalın və suyun üstündən tullanma, səməni göyərdilməsi və s. (24, 25).

Əlavə olaraq onu da qeyd etmək lazımdır ki, XIV əsrdən məlum olan bayramlıq vergisi novruz və qurbanlıq zamanı kəndlilərdən feodalların xeyrinə toplanırdı. Dövlət məmurları tərəfindən orta əsrlərdə "novruzi" adlı vergi növünün toplanması da məlumdur. Bu da Novruz bayramı zamanı toplanıldığından məhz belə adlanırdı (24, 25).

XII-XV yüzillərdə Novruz bayramı haqqında məlumatlarımızın əsas mənbəyini Azərbaycan barədə yazan orta əsr müəlliflərinin və Azərbaycanın orta əsr şair və mütəfəkkirlərinin əsərləri təşkil edir. Bu bayram haqqında orta əsr şair və mütəfəkkirlərimizin əsərlərində rast gəldiyimiz məlumatlar bayramın ayrı – ayrı ayinləri haqqında geniş təsəvvür yaratmasa da, ancaq verilən məlumatlar əsasında bu dövrlərdə Novruz bayramının keçirilməsi və onun bəzi məziyyətləri, adətləri haqqında müəyyən məlumatlar əldə etmək mümkündür. XI əsrdə yaşayıb–yaratmış Baba Tahir, orta əsr poetik məktəbinin görkəmli nümayəndələrindən biri Qətran Təbrizinin, Nizami Gəncəvinin, Əfzələddin Xaqaninin, Qazi Bürhanəddinin, Arif Ərdəbilinin İmadəddin Nəsiminin şeirlərində, yaradıcılıqlarında Novruz bayramı haqqında müəyyən qədər məlumat əldə etmək mümkündür (24, 20-23).

Məlumdur ki, Azərbaycanda Novruz bayramı qabağı qeyd olunan, zəngin və maraqlı mərasimlərin əks olunduğu dörd ilaxır çərşənbə Şirvan bölgəsində də keçirilir. Su çərşənbəsi ilə əlaqədar olaraq bölgə rayonlarında çoxlu inanclar, ayinlər və

mərasimlər, fallar, türkəçarələr, bayatılar var. İnanca görə, süfrəyə suyun dağılması aydınlıqdır və yaxud, lal axan sudan keçməzlər kimi deyimlər indi də çoxları üçün aktualdır. Adından göründüyü kimi, Su çərşənbəsi su ilə bağlıdır.

Daha bir adətə görə isə Su çərşənbəsinin səhəri alaqaranlıqda bulaq başına gedib gördüyün yuxunu suya danışmaq lazımdır. Bundan başqa, həmin gündə bulaqbaşına gedərək orada yuyunmaq əlaməti il boyu sağlam olmağa işarədir. Bulaq başında tonqal qalamaq da keçmişin və bu günün adətlərindəndir.

Maraqlıdır ki, su çərşənbəsindən sonra od çərşənbəsi gəlir. Azərbaycanın Şirvan bölgəsində Od çərşənbəsi axşamı adamlar ağırlıqları, ağrı –acıları tökülsün deyə tonqalın üzərindən atdanandan sonra, mal – qaralarını da yanar tonqalın arasından keçirərdilər. Məqsəd köhnə ildəki bütün qada – bəlaların, xəstəliklərin tonqaldan adlayanda tökülüb məhv olması, odda yanmasıdır. İnanca görə tonqalın üzərindən adlayıb keçən insanlar və mal – qaralar sağlam və təravətli olurlar. Verilən məlumata görə mal– qaraların tonqalın arasından keçirilməsi ənənəsi Şirvan bölgəsində XIX-XX əsrlərdə mövcud olmuş və indiyə qədər də qalmaqdadır. Bu ənənə bölgənin Ağsu, Göyçay, Ucar və Ağdaş rayonlarında qeydə alınmışdır (139).

Məlumdur ki, od ayini Şirvan bölgəsində ta qədimdən dövrümüzədək geniş yayılmış, əhalinin dini inanclar sistemində əhəmiyyətli yer tutmuşdur. Lahıcda oda sitayiş özünü Novruz bayramında və Novruza qədər bayram edilən dörd çərşənbədə göstərir. Lahıc əhalisi həmin vaxtlarda birgə olaraq tonqal, məşəl və şamlar yandırırdılar.Oda sitayişin əsas əlamətlərindən birini də ocağa hörmət və etiqadda görmək olar. Lahıc əhalisinin od ayininə pərəstiş etdiyini odla bağlı müxtəlif inancların yaranmasında sezmək mümkündür. İnanca görə odu, su ilə söndürmək olmaz, yoxsa, həmin adamın (odu söndürən adamın) oğlu ölə bilər. Başqa bir inanca görə, öz kəsilmiş saçlarını oda atan adamın başı ağrıya bilər (83,353-357). Məlumdur ki, Lahıcda bayramlar ənənəvi olaraq xalq bayramlarına və dini bayramlara bölünürlər (keçmişdə və indi). Novruz bayramına bir ay qalmış hər çərşənbə günü ("çor şənbi") su ayini ilə əlaqədar olaraq xüsusi mərasim icra olunurdu. Belə ki, səhər tez-

dən çiyinlərində səhəng suya gedən qızlar çaya və ya bulağa kiçik daş atıb, "Mənim xoşbəxtliyim İmam Əlinin xoşbəxtliyidir" sözlərini deyib, kuzəni su ilə doldurardılar. Evdə bu su ilə istənilən yeməyi bişirərdilər. Ancaq bu yemək çərşənbə gününün şərəfinə "pil əmbəri" adlandırılırdı. Nişanlı oğlanları olan ailələrdə də bu ayin icra olunardı, ancaq "pil əmbəri"ni səhər – səhər hazırlayardılar. Qeyd etmək lazımdır ki, Novruz bayramına bir ay qalmış su ilə bağlı bu maraqlı mərasim çərşənbə günü icra olunardı. Adı çəkilən bu çərşənbələrin hər birində bəzi maraqlı ayin və mərasimlər icra olunardı. Birinci çərşənbə gününü si ilə əlaqədar olaraq, ikinci çərşənbə gününü od ilə əlaqədar olaraq keçirirdilər. Üçüncü çərşənbə gününü Lahıclılar torpaq ilə əlaqədar olaraq, dördüncü çərşənbə gününü isə burada hava ilə bağlı olaraq qeyd edirdilər (83, 342). Qeyd etmək lazımdır ki, su və od ilə bağlı olan birinci, ikinci çərşənbələr su və od ayini ilə əlaqəli idi, əhalinin İslama qədərki qədim dini ayinləri sırasında əhəmiyyətli bir yer tuturdu.

İlaxır çərşənbələrin digəri Toz çərşənbə və ya Yel çərşənbə adlanır. Yel çərşənbədə bölgənin bütün kəndlərində, eldə– obada evlər tozdan təmizlənir, xalçaların, kilimlərin tozu tökülürdü. "Yel çərşənbə"yə Şirvan bölgəsinin demək olar ki, bütün yerlərində "Əzəl çərşənbə", "Muştuluqçu çərşənbə", "Müjdəçi çərşənbə"də deyilir.

"Torpaq çərşənbə"də yumurta boyanır, şirniyyat bişirilir, qovurğa qovrulur. Şirvan bölgəsində "Torpaq çərşənbə" həm də "Ata–baba günü çərşənbəsi" adlanır. Bunun bir təzahürünü kənd camaatının bayramlarda qəbiristanlığa gedib ata və babalarının qəbirlərini ziyarət edib ruhunu şad etməsi və Quran oxutdurmalarında görürük. Həmin gün Şirvan camaatı öz ölülərini ziyarət edir, qəbir üstünə şirniyyat aparırlar.

Apardığımız araşdırmalar nəticəsində belə qənaətə gəldik ki, bölgənin bütün yerlərində bayram günü və çərşənbələrdə Şirvan camaatı öz ölülərini unutmur, "onların ruhunu razı salmağa çalışırdılar".

Şirvanda Novruza bir ay qalmış dörd çərşənbə də qeyd olunur. Bu çərşənbələrdə oğlan uşaqları göyə "şamal" (məşəl) atırlar. Çərşənbə axşamları tonqallar qalanır. Novruza qədər təmizlik işləri görülür, həyət – baca, ev – eşik təmizlənir. Hər

kəsə yeni paltarlar alınır. Bayram öncəsi yuyunub təzə paltar geymək vacib sayılır. Hər kəs yeni ili, yeni yazı yeniləşmiş şəkildə təmiz və təzə paltarda, xoş ovqatda və nikbin əhvali ruhiyyədə qarşılayır. Bayram gününün ovqatının bütün yeni ilə təsir göstərəcəyinə inanılır. Bayram axşamı qulaq falına çıxılır. Şirvanda bayram axşamı mübarək sayılır, gələn ilin bütün ruzisinin paylandığı bu axşamda səhərə qədər yatmaq olmaz (40, 135).

Şamaxı, Kürdəmir, Ağsu, Göyçay, İsmayıllı və Ağdaş rayonlarında araşdırılmış etnoqrafik materiallardan aydın olur ki, Novruz bayramı və çərşənbələrinin maraqlı ayinləri sırasında "qulaq falı"nı unutmaq olmaz. Adətə görə, hava qaralanda ürəyində niyyət tutan kəs qonşu qapılara gedib, xəlvətcə evdəki söhbəti dinləyər. Odur ki, bayram vaxtında hər bir evdə könül açan, xoş sözlər və söhbətlər eşidilməlidir. Eşitdiyi sözləri ürəyində tutduğu arzu, dilək və ya niyyətlə yozmalıdır. Qulaq falına çıxanın eşitdiyi söhbətlər ürəyindəki arzu və istəklə uyğunluq təşkil edərsə, demək onun niyyəti hasil olacaqdır. Şirvan bölgəsində bayram günü gənc qızlar öz bəxtlərini sınamaq üçün hava qaralandan sonra qulaq falına çıxardılar. Ürəyində niyyət tutan gənc qızlar xəlvətcə qonşu qapılara gedər və içəridə gedən söhbəti dinləyərdilər. Eşitdikləri ilk sözü ürəklərində tutduqları niyyətə yaraşdırardılar.

Bölgədə mövcud inanca görə əgər qulaq falına çıxanların ürəklərində tutduqları niyyət danışılan söz–söhbətin məzmununa uyğun olardısa onda həmin adamın arzu və istəkləri həyata keçəcəkdir. Elə buna görə də bölgədə mövcud olan ənənəyə görə ilaxır çərşənbə və bayram günündə evlərdən xoş, sevinc gətirən söz – söhbətlər eşidilməlidir ki, qulaq falına çıxanların diləyi hasil olsun.

Azərbaycanda, o cümlədən, Şirvan bölgəsində mövcud inanca görə bayram günü bütün ailə üzvləri evdə, bayram süfrəsi ətrafında olmalıdır. Əks təqdirdə evdə olmayan həmin şəxs yeddi il Novruz günündə evdə olmaz. Bu inam demək olar ki, bölgənin hər bir şəhərində, hər bir kəndində möhkəm, sarsılmaz inanca çevrilmişdi. Bölgənin Ağsu rayonunda apardığımız sorğu belə deməyə imkan verir ki, bu inam keçmişdə mövcud olmuş, indi də mövcuddur (141).

Bayram günündə bayram süfrəsi bölgə camaatının xüsusi diqqət etdiyi məsələlərdən biridir. Adətə görə yeni ilin, Novruz gününün gəlişinə bir neçə saat qalmış, hər bir evdə bütün ailə üzvləri bayram süfrəsi arxasında oturmalı idilər. Süfrədə mütləq əsas bayram atributları – səməni, hər bir ailə üzvünün adına yandırılmış şamlar və rəngli yumurtalar olmalı idi.

Səməni – iki məqsədlə göyərdilir.

1- ci niyyət baharın gəlişi, canlanması, təbiətin dirçəlməsi, canlanmsı.

2- ci oğuz elat tərəkəmələri ona "ömür – gün uzadan", "niyət səməni"si, "yeni günün müjdəçisi" kimi baxırlar (40, 127).

Bayram xonçası arxaik ritualdan gələn ritual yeməyinin və ya geyiminin sonrakı dövrlərin xalq mərasimlərinə transformasiya olunmuş formasıdır. Xonçanın ritual semantikası arxaikləşsə də mərasimin mənası, bu və ya başqa şəkildə öz mühafizəkarlığını qoruyur. Bu ilk növbədə özünü mərasim xonçalarının zəruri bir hadisə kimi mövcudluğunda göstərir. İndi xonçanın sakral dəstəyi düşünülməsə də, dekorativ funksiyanın alt qatında qeyri – adilik müşahidə olunur (40, 128).

Xonça sanki xoşbəxtlik yolunda mənəvi bir element kimi anlaşılır. Həqiqətən də bayram ərəfəsi və bayram günündə xonça bölgə camaatının xöşbəxtlik yolunda mənəvi bir elementi kimi anlaşılır (40, 128).

Bayram plovundan başqa, süfrəyə cürbəcür şirniyyatlar– şəkərbura, paxlava, bamiyə, qoğal, fəsəli, şəkərçörəyi, qoz – fındıq, noğul və müxtəlif çərəzlər düzülməli idi. Inanca görə hər bir ailə Novruzu xoş əhval – ruhiyyə və sevinc ilə qarşılamalı, umu – küsünü bir kənara qoymalıdır. Əks halda yeni il ilin sonuna qədər qəm – qüssə ilə keçər, kədər insanların simasından əksik olmaz.

Bayram gecəsi hamı şövqlə nəğmə oxuyur, bir – birini təbrik edirdilər:

Xonçalı Novruz gəlir,
Qonçalı Novruz gəlir.
Sürmə çəkin qaşına,
Noğul səpin başına.

Tonqalları odlayın,
Tüfəngləri addayın,
Xonçalı Novruz gəlir,
Qonçalı Novruz gəlir.

Bayramla bağlı Novruz bayramı ensiklopediyasında təsvir olunan “Danatma” mərasimi və bununla bağlı icra olunan bəzi ayinlər (13, 30) demək olar ki, Azərbaycanın bütün bölgələrində eyni səciyyə daşımışdır. İnformatorun verdiyi məlumata görə belə qənaət hasil olur ki, bölgənin Ağsu rayonunda keçmişdə adı çəkilən “Danatma” ilə bağlı bəzi ayin və mərasimlər keçirilərdi.

Zəngin ayin və mərasimlərlə zəngin olan İlaxır çərşənbədə icra olunan “Vəsfi–hal” mərasimi Şirvan bölgəsində çox məşhurdur və geniş yayılmışdır. Azərbaycan etnoqrafiyası kitabında (III cild) göstərilmişdir ki, “Sirli aləmi öyrənmək cəhdindən doğan, tutulmuş niyyətlə bağlı icra olunan “Vəsfi–hal” mərasiminin Novruz bayramının İlaxır çərşənbəsində keçirilməsi də çox incə bir mətləblə bağlıdır” (3, 36). İnformatorun verdiyi məlumata görə Şamaxıda hər İlaxır çərşənbədə keçirilən mərasimdə gənc qızlar həvəslə iştirak edirdilər. Adətən, gənc qızların bir yerə toplaşdıqları evdə ortalığa “dilək tası” deyilən su ilə dolu bir qab qoyulur. Aralarından bir nəfəri mərasim ayininin aparıcısı təyin edirlər. İştirakçılardan sırğa, üzük, oymaq alıb qabın içinə atırlar. Yaylıqla su dolu qabın üstünü örtüb nəğmə oxuyurlar, nəğmədən sonra badyadan əllərinə keçən əşyanı çıxarır, nəğmənin məzmununa uyğun olaraq özləri üçün nəticə çıxarırlar (3, 37). Təsvir olunan mərasim Şirvanın dedemək olar ki, bütün guşələrində eyni qayda ilə keçirilərdi (142).

XIX-XX əsrlərdə bölgə rayonlarında ilaxır çərşənbədə və Novruz günündə subay qızlar məclis qurar, öz gələcəklərindən xəbərdar olmaq istərdilər.

Belə ki, ortalığa içi su ilə dolu dərin bir qab gətirər, hərə öz üzüyünü çıxarıb həmin qabın içinə atardı. Mərasimə görə kiçik bir oğlan uşağını gətirib qabdakı suyu qarışdıraraq, hər dəfə oxunan bayatıdan sonra, əlinə keçən üzüyün sudan çıxarmasını öyrədərdilər. Qızlar dövrə vurub bayatı söylər, hər bayatıdan sonra oğlan uşağı əli-

nə keçən üzüyü qabdan çıxarardı. Bayatıdan sonra kimin üzüyü qabdan çıxarılarsa onun arzu – diləyi bayatının məzmununa uyğun yozulardı. Mərasim Şirvan bölgəsinin demək olar ki, bütün rayonları üçün Novruza bayramına xas olan mərasimlərindən biridir.

Şamaxıda isə mərasimi Novruz günündə böyük inamla, xoş arzularla başlayardılar və beləcə də başa vurardılar. Üzüksalma mərasimi yalnız Şamaxıda deyil, demək olar ki, bölgənin Kürdəmir, Göyçay, İsmayıllı, Ağdaş və digər rayonlarında keçirilərdi. Onu da qeyd etməliyik ki, üzüksalma mərasimi demək olar ki, Azərbaycanın əksər bölgələrində geniş yayılmış mərasimlərdən biri hesab olunur. Novruz bayramı ensiklopediyasında göstərilmişdir ki, üzüksalma mərasimi – əşyavi əlamət və söz – sehr magiyasını birgə təcəssüm etdirən fal mərasimidir. Bundan irəli ilaxır çərşənbədə ərgən qızlar bir otağa yığışıb dilək tası qurardılar. Görərdin qızlar dövrə vurub, dilavər – dilavər durnatelli bayatılar pərvazlandırırlar:

Çərşənbə çay içində
Ox atdım yay içində
Tanrı muradın versin
Bu gələn ay içində.

Çərşənbə il axırı,
Cıqqalar tel axırı
Dilək tutduğun oğlan
Sənindi bil, axırı.
Və ya
Çərşənbənin gecəsi
Banlar xoruz beçəsi
Ay qız, sənin qismətin
Ata – ana bircəsi ( 13, 190-191).

Təsvir olunan üzüksalma mərasimi Şirvanın bütün rayonlarında demək olar ki,eyni cür keçirilərdi.

Şirvan bölgəsində Novruz bayramında keçmişdə və indi maraqlı və məzəli Kosa – Kosa oyunu keçirilərdi. Komik bir obraz olan Kosa musiqi sədaları altında söyləyər:

Novruz − Novruz bahara
Güllər güllər nübara
Kim yığa, kim apara.
Baxçamızda gül olsun,
Gül olsun bülbül olsun.
Mən gəlmişəm kef görüm
Zurna görüm dəf görüm.

Camaat isə xorla belə deyər:

A kos – kosa gəlsənə
Gəlib salam versənə
Çömçəni doldursana
Məclisini güldürsənə!

Novruza aid olan bayram adətlərindən biri də müxtəlif şəkildə adlandırılan torba atmaqdır. Novruzla bağlı orta əsrlərə aid yazılı qaynaqlarda, o cümlədən, Ömər Xəyyamın "Novruznamə"sində və Əbu Reyhan əl–Biruninin "Asar əl baqiyə" əsərində bu adətlərin zərdüştlik dönəmində mövcud olduğu və onun xüsusi icraçılar – zərdüşt kahinləri tərəfindən yerinə yetirlidiyi haqqında məlumat verilir (40, 64). Sonrakı dövrlərdə, "torba atmaq" "qurşaq atmaq" və ya "şal sallamaq"la əvəzlənmişdir. Əlbəttə, burada məişət mədəniyyətindəki dəyişikliklər öz təsirlərini göstərmişdir. Məsələn M.Şəhriyarın şeirində deyilir:

Ay nə gözəl qaydadı şal sallamaq,

Bayramlığı bel şalına bağlamaq.

Ən yeni dövrün “torba atmaq” mədəniyyətində “dəsmal atmaq” və “papaq atmaq” kimi yeni vasitələrdən istifadə edildiyi müşahidə olunmaqdadır. Bunların bəziləri ilə bağlı xalq deyimləri də işlənməkdədir.

“Papaq atmaq” ilk öncə aldatmaq mənasını ifadə edir (40, 64).

Keçmişdə Novruz bayramı axşamında bölgə rayonlarında evlərin bacalarından şal, yaylıq sallayıb Novruz payı alardılar. Ev sahibi uşaqları və cavanları heç vaxt əliboş geri qaytarmaz, onların şallarına müxtəlif şirniyyat və rənglənmiş yumurta, çərəz və meyvə qoyardı. Bayram axşamı uşaqlar papaq və torbalarını qapı ağzına qoyaraq, qapını döyüb gözləyərdilər. Papaqatdı ayininin əsas xüsusiyyəti odur ki, papaq atan gizlənir, yəni öz kimliyini gizlədərdi. Ev sahibi papağa və ya torbaya bayram payı qoyub geriyə– qapı ağzına qoyardı. Papaq və ya torba sahibi ev sahibi getdikdən sonra gizləndiyi yerdən çıxar, içi bayram payı ilə dolu olan papağını götürüb gedərdi (40, 65).

Novruzda bayram aşı bişirilir. Bayram süfrəsi açılır. Şirvanda bayram süfrəsi çox zəngin olur. Bu da yeni ilin bolluq içində olmasına təsir göstərmək inancından gələn ənənə ilə bağlıdır (40, 135-136).

Novruz Azərbaycan xalqının mövsüm bayramı olmaqla yanaşı həm də çox zəngin bir mədəni irsidir. Şirvan bölgəsi əhalisinin bu el bayramı və şənliklərində, Novruz bayramı günlərində səməni cücərdilməsi, tonqal qalanması, müxtəlif mərasimlərin icra olunması, uşaqların bayram payı toplaması və maraqlı, əyləncəli xalq tamaşalarının göstərilməsi ÜmumAzərbaycan etnoqrafiyasının mənəvi mədəniyyət sahəsi və folkloru ilə sıx bağlıdır.

Abdullah Şengül özünün “Türk Kültüründe Nevruz. Mete Han’dan Atatürk’e” məqaləsində adı çəkilən bayramla bağlı bəzi nəticələrə gəlmişdir:

– Novruzun qeyd olunması Türklərdə Mete Xan zamanından bəri görülməktədir.

– Əhatəsində saxladığı bütün zənginlikləriylə Ergenekon / Novruz bayramı, Türk mədəniyyətinin əhəmiyyətli bir tarixi zənginliyidir.

– Bütün Türk Dünyasında qeyd olunan Novruz eyni zamanda inanclarla birlikdə şərh edilir.

– Türk dünyasındakı nümunələr incələndiyində görülür ki; bayramların özündəki sevgi, qardaşlıq və yardımlaşma qanunları Novruzun da təməl prinsipini meydana gətirməkdədir (80, 169).

Bölgədə el arasında geniş yayılmış bayramlardan biri də Xıdır İlyas və ya Xıdır Nəbi adlandırılan mərasimdir (138). Şirvan bölgəsində hər il qış yarı olanda Böyük Çilləylə Kiçik Çillə arasında Xıdır bayramı keçirilərdi. Bəzi yerlərdə Xızır Nəbi, bəzi yerlərdə isə Xıdır İlyas adı ilə tanınan bu el bayramı, kütləvi el şənliyi ötən vaxtlarda böyük təmtəraq və canlanma ilə qeyd olunardi. Yaşlı adamların məlumatına görə Kiçik Çillənin əvvəlində, təqribən fevralın birinci ongünlüyü ərzində axşam şər qarışanda evlərdə mərasim başlanar, sonra uşaqlar, cavanlar bir yerə toplaşar, dəstələnib böyük bir sevinclə Xıdır nəğməsi oxuya – oxuya qapıları döyər, Xıdır adına pay yığardılar. ... Xıdır Nəbi qışın dondurucu, şaxtalı, hətta yalquzaq adlanan çağında çağırılır və bu şərəfə mərasim keçirilir. Bu mərasimə gərək hər ev, ailə hazırlaşsın, onu təntənəli şəkildə qeyd etsin. "Xıdır Nəbi" mərasiminə, bir qayda olaraq, çillənin ilk günündən hazırlıq başlanır. Buğda qovrulub əldaşında (kirkirədə) üyüdülərək qovut çəkilir. Qaynadılmış yumurtalar daha çox Günəşin və yazın simvolu sayılan sarı, qırmızı və yaşıl rənglərə boyanılır. İstilik verən xörəklər bişirmək üçün tədarük görülür. Çəkilmiş qovutdan bir qab "Xıdır Nəbi"nin sonuncu gecəsi, adətən, yük dolablarının altına, divar taxçalarının əl dəyməmiş künclərinə qoyulur. Etiqada görə, həmin gecə Xıdır Nəbi gəlib qovutun üstünə əl basır və bunun -la evdə bolluq, bərəkət yaranır (13, 13).

Süfrə üstündə şamlar yanan qovutdan ailə üzvləri lap sonda yeyirlər. İnanırlar ki, şamlar yanan vaxtda ata – baba ruhları kimi, Xıdır Nəbi də gözə görünmədən gəlib bu qovutdan dadır. Həmçinin həmin axşam qaranlıq düşəndən sonra dəstə ilə qapı – qapı gəzən uşaqlar da:

Xanım, ayağa dursana,

Yük dibinə varsana,
Boşqabı doldursana,
Xıdırı yola salsana.
Qısa − qısa gələnin
Qısnacağı dar olsun,
Basa – basa gələnin
Basmacağı var olsun.

nəğməsini oxumaqla ilk növbədə məhz elə həmin qovutdan pay istəmişlər (3, 26). XIX-XX əsrlərdə mərasim, Şirvan bölgəsinin demək olarki, hər bir guşəsində geniş yayılmış ənənəvi bayram mərasimi hesab olunurdu.

Dədə–babadan qaydadır ki, hər il qış yarı olanda Böyük Çilləylə Kiçik Çillə arasında Xıdır bayramı keçirilərdi. Bəzi yerlərdə Xızır Nəbi, bəzi yerlərdə isə Xıdır İlyas adı ilə tanınan bu el bayramı ötən əyyamlarda böyük təmtəraqla qeyd olunardı.Köhnə kişilərin hesabına görə Kiçik Çillənin əvvəlində, indiki vaxtla götürdükdə

təqribən fevralın I ongünlüyü ərzində axşam şər qarışandan sonra uşaqlar, cavanlar bir yerə toplaşar, dəstələnib Xıdır nəğməsi oxuya – oxuya qapıları döyər, Xıdır adına pay yığardılar. Hər qapıda “Xıdır payı” qoyardılar. Kimi bir badya süd, kimi bir torba un... Həmin payları gecə bir yerə yığıb saxlayardılar. Səhər onlardan böyük kömbələr düzəldərdilər və əlavə olaraq bir də qovut bişirərdilər. O gecənin adı “Xıdır gecəsi”dir. Deyilənə görə çox mübarək gecədir (9, 34-35). Adı çəkilən bölgədə Xızırla bağlı bayrama hazırlıq işləri görülər, el mərasimləri xüsusən kənd və qəsəbələrdə böyük bir sevinclə keçirilərdi.

Həmin mərasim dövründə gərək hər ev, hər ailə bu mərasimə hazırlaşsın, mərasim təntənə ilə keçsin. Mərasimi hamının icra edə bilməsi üçün əliaşağı olanlara, kasıblara kömək edərmişlər ki, bayram axşamı bir ev belə azuqənin yoxluğundan əziyyət çəkməsin və hər evdə süfrə açılsın. Əgər belə olmazsa Xızır bunu özünə saygısızlıq sayar və küsüb gedər, baharın gəlişi uzanar (9, 35).

Xızıra inam, məhəbbət bütün türk dünyasına nüfuz etmiş və onların xalq yaradıcılığında özünəməxsus yer tutmuşdur. Türk xalqlarının folklorunda Xızırın ümumiləşmiş bir sıra funksiyaları mövçuddur ki, bunları aşağıdaki şəkildə qruplaşdırmaq olar.

– Dara düşənlərə kömək etmək;

– Sonsuzlara övlad vermək;

– Buta vermək;

– Su və yaşıllıq məbudu;

– Novruz mərasimləri ilə bağlılıq (9, 33).

Sadalanan bu funksiyalar Şirvan bölgəsinin bütün rayonlarında geniş yayılmışdır. Bölgədə Xızır peyğəmbərə olan inamla bağlı bir sıra and və alqışlar formalaşmışdır. “Xızıra and olsun”, “Xızır Ilyas haqqı”, “Xıdır Zində babaya and olsun” və digər səciyyəvi andlar camaatın Xızıra olan inamından əmələ gəlmişdir.

Bölgənin Şamaxı, Ağsu, Ağdaş, Göyçay, Kürdəmir və digər rayonlarından Xızır peyğəmbərin adı ilə bağlı toplanmış alqışlar daha çox kömək etmək funksiyasından doğmuşdur: “Xıdır Nəbi köməyin olsun”, “Xızır səni dardan qurtarsın”, “Xıdırın diləyi üstündə olsun”, “Xıdır Nəbi hayına yetsin”, “Xıdır Nəbi köməyini üstündən əskik eləməsin”, “Xızır köməyinə yetsin”, “Xızır payını versin”, “Xızıra rast gələsən” və s. (13).

Etnoqrafik tədqiqatlar dini və xalq bayramlarının Şirvan bölgəsi əhalisinin milli – mənəvi dəyərlərində mühüm yer tutduğunu (qədim zamanlarda) və indinin özündə də böyük sevinc və təmtəraqla qeyd olunduğunu deməyə imkan verir.

Əhali Novruz bayramı ərəfəsi və gecəsində papaqatdı, qulaq falı, danatma, kosa – kosa, şamal yandırma, tonqal üstündən atdanma, heyvanların qoşa tonqal arasından keçirilməsi kimi ənənə və adətləri hələ də qoruyub saxlamışlar.

**Dini bayramlar**

Bayramların digər hissəsini islamla bağlı dini bayramlar təşkil edir. XIX-XX əsrin əvvəllərində Şirvan bölgəsi əhalisinin mənəvi mədəniyyət sistemində dini bayramlar və onlarla bağlı mərasimlər mühüm yer tutmuşdur. Bölgə əhalisi dini bayramlardan xüsusilə Qurban və Orucluq bayramlarını böyük inamla keçirərdi.

Müqəddəs Qurban bayramı bölgədə hər il müsəlman təqviminin zilhiccə ayının 10-dan başlanar və üç gün davam edərdi. Qeyd etmək lazımdır ki, bölgə rayonlarında qurbanlıq heyvan kimi sağlam qoyun və cöngə seçilərdi. Əksər hallarda qurbanlıq heyvan kimi toğlu seçilərdi. Lakin quzu qurbanının kəsilməsi haqqında heç bir məlumata rast gəlmədik. Şirvan bölgəsində qurbankəsmə mərasimini din amillərindən doğan bir etiqad hesab edirlər. Şamaxı, Ağsu, Göyçay, Kürdəmir, İsmayıllı və Ağdaş rayonlarında qurbankəsmə mərasimi adətən, pirlərdə, ziyarətgahlarda icra olunurdu. Əsasən, Pirsaat, Dədəgünəş, Yeddi günbəzlər, Şeyx Dursun, Sofu baba, Diri Baba, Qırmızı günbəz, Şeyx Eyyub, Ağ günbəz və Bilal Əfəndi ziyarətgahları da qurbangah rolunu oynayırdi. Nəzərə çatdırmaq lazımdır ki, adları çəkilən pir və ziyarətgahlar əsrlərlə xalqın inanc yerinə çevrilmiş, nəinki keçmişdə, hətta, indinin özündə də Şirvan camaatının, eləcədə Azərbaycan əhalisinin ziyarət edib nəzir verdikləri ziyarətgahlar hesab olunur.

Qurbanvermə mərasimində niyyət və məram müxtəlif idi. Xəstələr şəfa diləyirlər, sonsuz qadınlar uşaq arzulayır, qorxu hissi keçirənlər qorxularının dəf olunmasını, əlacsız saydıqları məsələlərin həll olunmasını istəyirdilər.

Mərasimin icrası üçün nəzərdə tutulan nəsnə, əsasən qurbanlıq heyvan təqdim olunurdu. Etnoqrafik müşahidələr belə deməyə imkan verir ki, qurbankəsmə mərasimi üçün nəzərdə tutulan qoyunun üzərinə rəng, yada xına çəkərdilər. Bu mərasimə xüsusi ovqat qatmaq məqsədindən irəli gəlirdi.Yuxarıda qeyd edildiyi kimi Şirvanda ziyarətgahlar və pirlərdə daşlıq, daşlı sahə qurbangah rolunu oynayırdı. Mərasimdə qurbanlıq heyvan adətən, molla dua oxuyandan sonra kəsilərdi. Bölgə rayonlarının qurbankəsmə mərasiminin maraqlı cəhətlərindən biri kəsilən heyvanın

qanından insanların alınlarına barmaqla qanın sürtülməsi idi.
Mərasimdən sonra kəsilmiş qurbanlıq ətindən yeddi qapıya verilərdi.
Basqalda Qədiri Xum bayramında xüsusi mərasim icra olunurdu. Qədiri Xum bayramını yalnız möminlər qeyd edirlər. Basqallıların dediyinə görə bu bayram Məhəmməd peyğəmbərin vida həccindən qayıdanda etdiyi vəsiyyətlə əlaqədardır. Belə ki, mərasimdə müqəddəs yerlər ziyarət olunur, evlərə ehsan paylanır və peyğəmbər nəslindən olanlar ehtiramla anılır, onların ruhuna Quran oxunur.
Basqalda həmçinin Qurban bayramı günündə də maraqlı mərasim keçirilirdi. Belə ki, imkanlı adamlar Qurban kəsir, kəsə bilməyənlərə, imkansız adamlara paylayırdı Qurbanlıq heyvanın alnına xına, rəng çəkilir, buynuzlarına qırmızı parça bağlanırdı. Qurbankəsmə mərasimi zamanı bayram duası oxunur, heyvan üzü qibləyə çevrilib kəsilirdi.

Orucluq bayramı adı çəkilən bölgədə daha geniş yayılmışdır və xalqın diqqətlə əməl etdiyi mərasimlərdən ibarətdir. Bölgədə Orucluq bayramını böyük sevinc və təntənə ilə qeyd edərdilər. Belə ki, özünü müsəlman hesab edən hər bir adam Ramazan ayında oruc tutur, günlərini Allaha dua ilə keçirirdi. Nəhayət ayın otuzuncu günü bayram – Ramazan bayramı günü gəlir. Bayram namazı qılınar, hər bir evdə bayram süfrəsi açılardı. Əlillərə və yoxsullara sədəqə verilərdi.
Hazırda bölgənin Ağsu, Şamaxı və digər rayonlarında Qurban və Orucluq bayramlarını inam və ehtiramla keçirir, nəzir – niyaz paylayırlar.

**3. Oyun və əyləncələr**

Şirvan bölgəsinin mənəvi mədəniyyətinin bir sahəsini də oyun və əyləncələr təşkil edir. Şirvan camaatı yaddaşlarında saxladıqları mənəvi mədəniyyətin bu istiqamətini əsrlər boyu qoruyub saxlamış və bu günümüzə çatdırmışlar.

"Oyun" xalq arasında uşaq əyləncəsi, aktyor yaradıcılığı, tamaşa, rəqs, idman və pantomima kimi sənətləri əhatə edib birləşdirən sinkretik anlayış və deyim kimi işlədilir. "Oyun" anlayışının lüğəti mənası haqqında müxtəlif fikirlər mövcuddur. Bu fikrə görə, bu deyim "qədim şamanın digər bir adı", digər fikrə görə isə, "ayin" sözünün dövrümüzədək gəlib çatmış və dəyişilmiş formasıdır. Tədqiqatçılara görə, "oyun" sözünün kökü "oy"dur (59, 292).

Oyun və əyləncələrə maraq həm də insanların təbii ehtiyaclarından yaranırdı. Oyun və əyləncələrin icrası zamanı yaranan abu – hava dini və ictimai qadağaları və təzyiqləri zəiflədir, insanları sərbəstləşdirir, toplumda birlik havası yaradır, onu yeniləşdiririrdi. Hətta orta əsrlərdə xarici ölkələrdən gələn qonaqlar belə bu cür oyun və əyləncələrə dəvət olunir və bilavasitə onun iştirakçısına çevrilirdilər (24, 39).

Uşaq oyun və əyləncələr sırasına daxil olan bəzi maraqlı və xeyirxah xarakterli oyunlar keçmişdən günümüzə qədər qalmaqdadır.

Ağsu, Kürdəmir, Göyçay,Ucar rayonlarında uşaq oyun və əyləncələri sırasına daxil olan, yuxarıda qeyd etdiyimiz özünəməxsus maraqlı və xeyirxah xarakterli oyunlar etnoqrafik cəhətdən maraqlı və müsbət keyfiyyətli oyunlardan sayılırlar.

Verilən məlumata görə kənd məktəblərində keçirilən tədbirlərdə bu oyun və əyləncələr üstünlük təşkil edir (145).

Bölgədə mövcud olan "Oyun və əyləncələr" sisteminə yaz fəsli ilə bağlı uşaqların oynadıqları "Bənövşə– bənövşə" oyunu daxildir. Oyunun iştirakçıları 2 dəstəyə ayrılır, bir – birlərindən 10-12 m. aralı və üzbəüz dayanırlar. Oyun aşağıdakı kimi keçirilərdi:

Birinci dəstə: Bənövşə

İkinci dəstə: Bəndə düşə

Birinci dəstə: Bizdən sizə kim düşə

İkinci dəstə: Sizdən bizə adı gözəl, özü gözəl filankəs

Adı çəkilən qaçaraq digər dəstənin səfini yarmağa çalışır. Əgər buna müvəffəq ola bilsə həmin dəstədən özü ilə bir nəfəri öz dəstələrinə apardı. Əksinə səfi yara bilməsə özü həmin dəstəyə qoşulmalı idi. Özündə maraqlı elementləri cəmləşdirən oyun və əyləncələr, eyni zamanda, Azərbaycan xalqının soykökünün yaranması və təşəkkülü probleminin, etnik tarixin, etnogenetik əlaqələrin araşdırılmasına kömək göstərən mühüm qaynaqlardır. Azərbaycan etnoqrafiyasında kökü ən qədim tarixi dövrləri əhatə edən və özlərində ictimai quruluşun bir çox elementlərini saxlayan məişət oyunlarını 3 qrupa bölənlər də var: dəstəsinin şərəfini qorumağa çalışan iki rəqib tərəf arasında oynanılan “bəysiz”(başçısız) oyunlar; hər bir iştirakçının öz qabiliyyətini göstərməyə çalışdığı, özünə cavabdeh olduğu oyunlar; “bəyləri” – “fövqəladə hüquqlara” malik başçıları olan oyunlar (3, 468 - 469)

“Papaqaldıqaç”, “Dirədöymə” (“Dizədöymə”), “Mərə– mərə”, “Qaçaq – qaçaq” və “Topaldıqaç”, “Ay qaranquşum”, “Papaqatdı”, “Qaçdı – tutdu”, “Şumaqədər” (Bu oyun bəzi rayonlarda “Hadar – hadar”, “Çaqqı – çaqqı” və s. adlarla da məlumdur), “Əkil– bəkil quş idim” və s. uşaqlar və yeniyetmələrin ən çox oynadıqları oyunlardır (3, 481). Qədir Hüseynovun verdiyi məlumata görə bu oyunların bəziləri hələdə uşaqlar tərəfindən sevilən oyunlardan hesab olunur (144). Adı çəkilən bir– birindən maraqlı bu oyunlara bölgənin Şamaxı, Ağsu, Göyçay və Kürdəmir rayonlarında da rast gəlmək olur. Dirədöymə oyunu Göyçayda “Turaoynu” (Tuladöydü) adı ilə məlumdur.

Bundan əlavə bölgədə halaysayağı oyunlardan “Tello” və “Nənəcan” isə rəngarəng bir oyun ifadə vasitəsidir.

İnformatorun verdiyi məlumata görə “Çilingağac”, “Papaqaldıqaç”,“Qaçdı –tutdu”, “Mərə – mərə” uşaq oyunları Şamaxı və Ağsu rayonlarında XIX-XX əsrlərdə mövcud olmuşdur və indiyə qədər də sevilən oyunlardan hesab olunurlar (143).

Kökü qədimlərə gedib çıxan çövkən oyunu mənəvi mədəniyyətimizin dəyərli

hissəsidir. Atüstü milli oyunlarımızdan olan və kifayət qədər çeviklik, bacarıq tələb edən bu oyun növü Şirvan bölgəsində də geniş intişar tapmışdır. Çövkən oyunu, XIX-XX əsrin əvvəllərində bölgədə geniş yayılmış və xalq tərəfindən sevilən bir oyun növü olmuşdur.

Azərbaycanda orta əsrlərdə mövcud olmuş zorxana oyunu Şirvan bölgəsinin Şamaxı və Göyçay şəhərlərində də fəaliyyət göstərmişdir.

Əski türklərdə tanrıçılıq sistemi, göy, tanrı səviyyəsində olsa da, qədim mədəniyyət, ədəbiyyat və tariximizin elə bir sahəsi yoxdur ki, orada şamançılıq elementləri olmasın. Zaman – zaman türklər şamançılıqla bağlı inamları Uzaq Şərqə, Azərbaycana, Anadoluya, Qara dəniz sahillərinə yaymışlar. Şamançılıq dünyagörüşündən doğan Tanrı adları, inamlar, ayinlər – oyunlar da bu qaydada yayılmışdır. "Oyun" haqqında başqa bir şərhdə bu məfhumun türklərin oynamaq söz kökü ilə bağlı yarandığı göstərilir. İnsanın rəqsetmə qabiliyyəti, davranışı və s. hərəkətlərinin bədən oynaqları ilə bağlılığını da bilavasitə "oynaq" sözü ilə əlaqələndirirlər (66, 151).

Ritual kökənli tamaşa oyunlarında şenlik, cadu, bolluq, bərəkət motivləri iç – içədir. Tamaşaya təqlid və əyləm şəklində, həmçinin kütləvi şəkildə qoşulma guya təbiətə qarşı cadu ilə qorunma səbəbindən irəli gəlir. Bu cür tamaşa oyunlarda: 1) köhnə– yeni; 2)yaxş – pis; 3) bolluq – qıtlıq, 4) yaz – qış, 5) ağ – qara 6) güclü – zəif qarşıdurmalarını görmək olar. Təbiətin düzənli dəyişməsi ilə yaranan miflərin qalıqlarını törən, şenlik və bayramda görmək mümkündür (66, 25).

Şirvan bölgəsində Novruz bayramında maraqlı və məzəli Kosa − Kosa oyunu keçirilərdi.

Azərbaycan xalq oyun və əyləncələrinin kökləri çox qədimdir. Folklor, xalq musiqisi, rəqslər kimi, oyun və əyləncələr də xalqımızın həyat tərzini, təsərrüfat fəaliyyətini, adət − ənənələrini, milli inkişaf səviyyəsini, arzu, istək və düşüncələrini, estetik amalını, bir sözlə, mənəvi dünyasını müəyyən edir. Oyun və əyləncələr, eyni zamanda, Azərbaycan xalqının soykökünün yaranması və təşəkkülü probleminin, etnik tarixin və etnogenetik əlaqələrin araşdırılmasına kömək göstərən mühüm

qaynaqlardır (1, 468).

İlkin başlanğıcda oyun və əyləncələr yalnız əmək və məişət hadisələrini əks etdirirdi. Sonralar bu anlayış genişlənmiş və daha böyük məzmun kəsb etmişdi. Oyunların təşəkkülünün ilkun mərhələsi insan fəaliyyətinin qədim formaları olan yığıcılıq və ovçuluğu təqlid edən yamsılayıcı hərəkətlərlə xarakterizə olunmuşdur. Məhz buna görə bir çox xalqlarda olduğu kimi, azərbaycanlılar arasında da heyvanların, quşların surətləri və vərdişləri, eləcə də onların tutulması ilə bağlı oyunlar vardır (3, 469).

**4. Ənənəvi qonaqpərvərlik**

Sosial – iqtisadi həyatda dəyişiklik, modernizasiya, informatika sisteminin inkişafı və digər məsələlər milli mənəvi dəyərlərimizdə dəyişiklik yarada bilmədi, adət − ənənələrimiz yox olub getmədi. Qonaqpərvərlik adəti Şirvan bölgəsinin milli mənəvi dəyərlərində köklü ənənələrdən biri olaraq müasir dövrümüzə qədər inkişaf etmişdir. Bölgədə qonaq üçün nəzərdə tutulmuş bütün əsnələrə, süfrə, yemək, yatacaq, mənzil və s. xüsusi diqqət yetirilər, qonaq yüksək səviyyədə qarşılanar və yola salınardı. Bu mütərəqqi adət və ənənələr adı keçən bölgədə hələ də qalmaqdadır.

Bu yerlərin zəngin mənəvi dəyərlərə və təkrarsız maddi mədəniyyətə malik əhalisi qonaqpərvərlik adətlərinə böyük hörmət və ehtiramla yanaşır, qonağı daima əziz tuturlar.

Qonağa qayğı göstərmək, hörmətlə yanaşmaq və mülayim davranmaq bütün Azərbaycana xas olan qonaqpərvərlik adətinin xüsusiyyətlərindəndir.

Ağsu, İsmayıllı və Şamaxıda qonaqpərvərlik və qonaq getmə adətləri keçmişdən zəmanəmizə qədər gəlib çatmışdır. Evlərdə qonaq məclisi üçün ayrıca süfrə, qab – qacaq, yorğan − döşəyin olması, şirniyyat tədarükü və s. qonağa hələ də hörmətlə yanaşıldığından xəbər verir. Qonağa hörmətlə yanaşan ev sahibi onu yola salarkən mütləq hədiyyə verməli idi (146).

Etnoqrafik müşahidələr nəticəsində deyə bilərik ki, kənd məişətində əziz qonağın şərəfinə mütləq toğlu kəsilməli idi.

“Qonaqlı ev ruzili olar”, “Qonaq evin yaraşığıdır” kimi mənalı atalar sözü bölgə camaatının mənəvi aləminin zənginliyini əks etdirir.

Xəstəni yoluxmaq, ona şəfa diləmək üçün qonaq getmək eldə − obada yayılmış adətlərdəndir. Bu zaman qonaq gedən mütləq xəstəyə yemək üçün “pay” aparmalı idi (147).

Bölgədə təsadüfən yolunu azmış, gecəyə düşmüş yolçuları da qonaq kimi qəbul edilir, hörmət və qayğı göstərirdilər.

Bu məsələlər sözü gedən bölgənin əxlaq kodeksində müasir dövrümüzdə də ciddi riayət olunan mütərəqqi ənənələrindən hesab olunur.

Keçmiş Şirvanşahlar dövlətinin mərkəzi hissəsini əhatə edən Şamaxı xanlığı mühüm iqtisadi rayonları əhatə etməklə xeyli maddi ehtiyata və strateji əhəmiyyətə malik idi. Bunun isə tarixi kökləri var idi. Belə ki, uzun müddət minillik tarixə malik Şirvanşahlar dövlətinin paytaxtı, daha sonra Şirvan bəylərbəyliyinin mərkəzi olmuş Şamaxı şəhəri göstərilən dövrdə də həm ticarət, həm də iqtisadi baxımdan özünün üstünlüyünü qoruyub saxlaya bilmişdi (12, 62).

Şirvanda milli xarakterimizin, yüksək mənəviyyatımızın əsas tərəflərindən biri də qonaqpərvərlik ənənəsidir. Qonaq üçün imkan daxilində zəngin süfrə açmaq, səliqəli və zövqlə bəzədilmiş, hər cür şəraiti olan ayrıca qonaq otağı, qonağı əyləndirmək üçün musiqi, ov, qonağın təhlükəsizliyi və digər detallar keçmişdə Şirvanda – Şamaxı xanlığında mövcud olmuş qonaq qəbul etmənin əsas nəsnələ-rindən idi:

...Şamaxıya çatdıq. Burada bizi isti sobası, yandırılmış çıraqların işığında göz oxşayan xalıları, gözəl divanları olan və süfrəsində yemək buğlanan bir mənzilə qonaq etdilər. Şam yeməyindən sonra məni bir otağa apardılar. Burada yazı masası, üstündə isə kağız, təzə qələmlər və qələm biçmək üçün iti cib bıçağı vardı. İyirmi il məni tanıyanlar belə bundan artığını, daha doğrusu, hər şeyi belə yerli – yataqlı təşkil edə bilməzdilər (22, 218).

Mənim otağımın divarlarını üç lövhə bəzəyirdi: "Fontenbloda vidalaşma","Yaffada vəbalılar", "Montoro döyüşü". Mən Dondukovun və Baqrationun evindəki kimi çarpayıda yox, gözəl bir xalçanın üstündə yatdım (22, 218).

Biz Mahmud ağanın evinə gəlib çatdıq. Şərq üslubunda tikilmiş bu mülk Dərbənddən Tiflisə qədər gördüyüm evlərin arasında ən yaraşıqlısı idi. Biz tamamilə Şərq zövqü ilə bəzədilmiş bir salona daxil olduq; bu salonun sadə, eyni zamanda zəngin gözəlliyini təsvir etməkdə qələm də acizdir. Qonaqlar qızılı rəngli güllərlə naxışlanmış tül üzlüklü ipək döşəkçələrə söykənib oturmuşdular; tül

üzlüklər döşəkçələri daha yaraşıqlı və incə göstərirdi; salonun aydın görünməyən o biri tərəfində şəbəkəli, böyük pəncərənin qabağında üç rəqqasə qız və beş musiqiçi oturmuşdu. Təbii ki, yerli rəqsi ifa etmək üçün xüsusi musiqi dəsgahı lazım idi (6, 223). Şam yeməyinin gəlməsi ilə rəqs başa çatdı; onu da deyim ki, yemək çox qeyri − adi idi – cücə plov, yanında da nar, şəkər və yağ (22, 225).

... Şahinlə ov etmək arzusunda olduğumu söylədiyim Mahmud ağa bələdiyyə rəisinə əvvəlcədən demişdi ki, sabah özünün ən yaxşı iki quşağasını və şahinlərini mənim ixtiyarıma verəcək. Biz Şamaxıdan iyirmi verst aralıda kəklik və dovşanla dolu bir ərazidə dayanıb iki saat ov edə biləcəkdik (22, 227).

Musiqili poetik ruha malik olan Şirvan bölgəsində keçmişdə bəy evlərində təşkil edilmiş qonaqlıqlarda xanəndələr və aşıqlar da iştirak edirdilər.

Vaxtilə Şamaxılı Mahmud bəyin xanəndələrin və rəqqasələrin iştirakı ilə təşkil etdiyi qonaqlıq məclisləri haqqında nəinki Azərbaycanda, hətta, bəzi Avropa dövlətlərində belə danışılırdı.

Ev sahibi qonağın təhlükəsizliyinə, adətən, təminat verirdi. Belə ki, ev sahibi qonağın bütün rahatlığı ilə bərabər, sağ – salamat yola salınması, heç kəs tərəfindən ona xəsarət yetirilməməsi üçün cavabdeh olurdu. Qonağın malının mühafizəsinə təminat da buraya daxil idi (19, 113). Qonaq evi tərk etdikdən sonra, yəni yola salındıqdan sonrakı vəziyyət ev sahibinin səlahiyyətindən kənar sayılırdı (19, 113).

Bölgə camaatı hər zaman qonağın təhlükəsizliyinə, sağ – salamat gəlib – getməsinə xüsusi diqqət yetirərdi. Keçmişdə Şirvan bölgəsində ev sahibi bir neçə atlı ilə qonağı qarşılamağa gedər, yola salanda da eyni ilə, öz adamları ilə birgə yola salardı.

Qonağın təhlükəsizliyi, onun salamat yola salınması bütün Türk xalqları üçün vacib və əhəmiyyətli faktordur. Orta Asiyanın Türk xalqlarının qonaq qarşılama və yola salma adətlərinə nəzər yetirsək bu məsələnin də qonaqpərvərlik ənənəsində mühüm yer tutduğunu görərik. Qazax mədəniyyətində qonağın ev sahibinin qoruması altında olması qonağın dəyərli olmasının təzahürünü əks etdirir. Qonaq ev sa-

hibinin düşməni belə olsa ev sahibi qonağına hər hansı bir zərər verməz. Bu səbəbdən ev sahibi evinə gələn qonağı evindən yola salana qədər nə bahasına olursa olsun qorumağa borcludur (68, 31).

Gözəl təbiətə malik Şirvanın bölgəsinin Ucar rayonunda da qonaq müqəddəs sayılır, qonaqpərvərliyə xas olan xeyirxah ənənələr davam etdirilir. Ucarın Şilyan elinin qonaqpərvərlik cəhətləri və qonaqpərvərliklə bağlı adətləri dillər əzbəridir. Deyirlər "Şilyan"a vaxtı ilə "Altıöylər" də demişlər. Belə nağıl edirlər ki, bir gün Ş Şamaxıdan altı atlı Kür üstdən keçib Qarabağa getməliymiş. Toran vurduğunu görüb, qaranlıqda mənzil başına yetişə bilməyəcəklərini yəqin edib, atlıların ağsaqqalı bu yerin ağsaqqalı Soltan kişiyə onların evində gecələmələri ilə bağlı müraciət edir (60, 9). Soltan kişi də atlıları yüksək səviyyədə qəbul etməklə, bildirir ki, onlardan hər biri bir evdə gecələməli olacaqdır. Həm də eyni zamanda Soltan kişi hər bir evin kişisinə tapşırır ki, bu axşam onlardan hər birinin evində mütləq aş qazanı qoyulmalı və atlıların hamısı ləzzətli aşa qonaq edilməlidir. Belə də edirlər. Qonaqlar yeyib– içib rahatlanırlar, gecəni dincəlib, səhər qalxırlar, səhər yeməyini isə ağsaqqalın tapşırığına görə qonaqlara hər bir evdə camış nehrəsi yağı ilə bal yedizdirirlər. Yeyib–içdikdən sonra atlılar mənzil başına yola düşürlər. Təzə yola düşüblərmiş ki, atlıların ağsaqqalı yoldaşlarından onları bu obada necə qəbul etdiklərini, axşam nə, səhər nə yediklərini soruşur. Atlıların hamısı bir ağızdan "Axşam aş, səhər nehrə yağı ilə bal" yediklərini deyirlər (60, 9). Göründüyü kimi bütün el – oba qonağı lazımi qaydada qarşılamaq üçün birgə, səylə çalışır, qonağın razı getməsi üçün əllərindən gələni əsirgəmirlər.

Yuxarı Şilyanlıları digər ellərimizdən, obalarımızdan köklü şəkildə fərqləndirən cəhət onların hədsiz qonaqpərvərliyi, mehmansevərliyidir. Düzdür, qonaqpərvərlik bütün türk uluslarının səciyyəvi xüsusiyyəti, danılmaz tərəfidir. Lakin qonaqpərvərlik bir etik dəyər kimi Yuxarı Şilyanlılarda özünü daha parlaq şəkildə göstərir. Hətta Şilyanlının evində bir loxma çörəyi olmasa belə, o, qonağı elə böyük təmtəraq, elə böyük sevinclə qarşılayıb yola salar ki, qonaq belə yüksək münasibətdən

öz elinə, obasına sevinc payı aparar. Maddi imkanlarının indi bir qədər zəif vəziyyətdə olmasına baxmayaraq, şilyanlılar bu xüsusiyyəti ağsaqqallarından, ağbirçəklərindən əxz edə – edə, onu rəngarəngləşdirə – rəngarəngləşdirə, ona naxış vura – vura inkişaf etdirməkdə, formalaşdırmaqda davam etməkdədirlər (60, 10).

Ev sahibi insanlarla mülayim davranmaq, onların qəlbini oxşamaq, könlünü ələ almaq kimi xüsusiyyətləri nümayiş etdirərək ölçülü – biçimli davranmalı, həddi aşmamalıdır. İlk növbədə salamlaşma başlayır. Salam Allahın adlarından biridir. Bu adı çəkməklə xoş hisslərlə və gülərüzlə qarşındakına müraciət edirsən. Sonra isə hal– əhval tutursan. Qonaq tanışdırsa onun yaxınlarının da hal– əhvalını soruşmaq, sevinc və kədərinə şərik olduğunu göstərmək lazımdır. Bu insanlar arasındakı bağları daha da gücləndirir (19, 122-123).

Əgər qonaq ev yiyəsindən inciyib gedərdisə bu ev yiyəsi üçün böyük təhqir hesab edilər və belə adama kənddə pis münasibət bəslənilərdi (68, 20-21).

Onu da qeyd etmək lazımdır ki, nəinki uşaqlar, hətta evdə olan yetkin yaşlı oğlanlar ataları evdə olardısa, süfrə başında oturmaz, ayaq üstə dayanıb onlara qulluq edərdilər. Əgər ata evdə olmasaydı, qonağı onlar qəbul etməliydilər. Qonağın xoşuna gələn bir şey olsaydı və bu söhbət əsnasında məlum olsaydı, həmin şey, dəyərindən asılı olmayaraq, mütləq ona bağışlanardı (68, 22).

Bölgədə qonaqlıq zamanı yalnız evin böyüyünün rol oynaması, süfrə başında böyüklərin danışması, əgər ev sahibi evdə yoxdursa, məhz bundan sonra yetkin oğlanların qonağı qarşılaması kimi incəliklərə ciddi diqqət yetirilirdi.

Qazax Türkü uşağına qonaqpərvərliyi və qonaq qarşılamanın əhəmiyyətini çox erkən yaşda öyrədir. Bu səbəblə uşaqlar kiçik yaşda qonaq qəbul etmə və qonaq qarşılamanın qaydalarını çox yaxşı bilirlər. Belə olunca uşaqlar qonaqla qarşılaşdığında yad və utancaq kimi davranmazlar. Qonağı əvvəldən tanıyırmış kimi səmimi və içdən davranırlar. Əgər qonaq hünərli biri isə uşaqlara dombıra çalar, şeir oxuyar və hekayələr söyləyər. Ev sahibi uşağının qonağa xidmət etməsi və səmimi olması üçün çalışar. Bu tətbiqin erkən yaşlarda başlaması bir tərəfdən qonaqpərvər-

liyin əhəmiyyətini mənimsəməkdə, digər tərəfdən yetkinlik dövründə bu ənənənin qalıcılığını və davamını təmin etməkdə əsaslı rol oynaya bilər. Bu səbəblə bir Qazax Türkü ilə qonaqpərvərlik haqqında danışmaq istəsəniz, ilk eşidəcəyiniz cümlə "qonaqpərvərlik Qazaxların qanındadır" sözü olur (68, 32).

Qırğız, Qazax kimi Türk xalqlarında qonaq özünə verilən dəyərə görə çadırda oturdulurdu. Qonaq qiymətli biri isə çadırın "tör" deyilən hörmətli qismində, istənməyən biri isə "ulağa" adlandırılan qapı yanında oturdulardu (67, 99).
Anadoluda ailələr arasında uzaq yoldan gəlib yatmağa qalma, birdə ölüm və bənzər hallarda olmaq üzrə üç növ qonaqlıq mövcuddur. Ailə ziyarətləri çox zaman ani və xəbərsiz edilir. Bu hərəkət qarşılıqlı məhəbbət və səmimiyyətdən qaynaqlanar. Evə gələn qonaqlara yemək vaxtı mütləq yemək və çay verilər. Yemək vaxtı xaricində çay və yüngül yeməklərə qonaq edilərlər. Bunlardan ən məşhur olanı pətək bal, qoz ləpəsi və çayın birlikdə verilməsidir. Qonaqlıqlarda çay süfrəsinin ən təəccüblü tərəfi çay içildikdən sonra "kifayəttir" mənasında stəkanın çevrilməsidir. Stəkan çevrilmədiyi müddətcə çay davamlı olaraq gəlir. Çevrildikdən sonrada isə "Xətir çayı" deyilən son bir çay da gətirilir (76, 1).
Burada (Anadoluda) il və mahal mərkəzlərindən kəndə və ya kənddən il və mahal mərkəzlərinə səfərə çıxanda yolun uzaqlığından yada, hər hansı bir səbəbdən mənzilinə çatmayanlar yolları üzərindəki kənd evlərində qonaq edilirlər. Çox zaman da il və mahal mərkəzlərinə iş üçün və ya başqa bir səbəblə gələn kəndlilər işlərini qurtarıb geri gedə bilməmələri səbəbindən buradakı qohumlarına, yaxınlarına qonaq olardılar. Şəhərdə qohumları olanların otelə və ya restorana getməsi ənənəsi də yaddır, xoş sayılmaz (76, 1). Təsadüfi deyil ki, Şirvan bölgəsi əhalisinin məişətində şəhərdən kəndə, kənddən şəhərə qohum evinə qonaq getmək adəti hələ qalmaqdadır.

Hər evdə "qonaq otağı" adıyla döşənilən bir otaq mütləq vardır. Gələn qonaqlar burada qarşılanar, yatmağa qalsalar bu otaqda saxlanılırlar. Ev sahibi qonaqları ilə hər zaman gülər üzlü davranır və dəcəllik edən uşağını belə qonaqlara hörmətsizlik

olmasın deyə döyüb acıqlanmazlar (76, 1).
Normal qonaqlıq xaricində qalan ölüm və əsgərə getmə, toy kimi vəsilələrlə dəvət şəklində reallaşan qonaqlıqlar da mövcuddur. Ev sahibi qonaqlarına qonaqlamada və hörmətdə qüsur etməmək üçün böyük səy sərf edər, qonağa hörmət əlaməti olaraq qonaq otağının qapısı eşiyində dizləri üstündə əmr gözləyən bir nəfər kimi gözləyər, qonaqları qapıda qarşılayar, qonaqlar icazə alıb qalxınca onlardan əvvəl davranaraq ayaqqabılarını qoyar, xarici qapıya qədər yoldaşlıq edər (76, 1). Məlumdur ki, hər bir Türkün evində qonaqların qəbulu üçün hazırlanmış bir qonaq otağı var. Qonaq üçün evin ən böyük, ən gözəl otağı seçilir, təmiz və gözəl əşyalar yerləşdirilir. Ev döyüş sahəsinə dönsə belə bu otaq daima nizamlı və təmiz qalır, bu otağın qapısı yalnız qonaq gəldiyi zamanlarda açıq buraxılar. Hər bir Türkün evində olduğu kimi əlbəttə ki, İstanbul evlərinin də hər birində bir qonaq otağı var. Ən kasıb ailələr belə evlərində qonaq üçün bir otaq ayırmağı, bu mümkün olmadığı təqdirdə isə oturduğu otaqda bir künc tənzimləməyi lazım bilər. Zənginlər qonaq otaqlarının təşkili üçün pul sərf etməkdən çəkinməzlər. Ən qiymətli əşyalar, qonaq otaqlarına qoyular, otağa qonaq olmadığı müddətcə uşaq buraxmazlar (74, 1).

Qonaq uzaq bir məsafədən gəlirsə və nəqliyyat vasitəsi yoxsa, mümkün olduğu təqdirdə ev sahibi tərəfindən nəqliyyat vasitəsi ilə təmin edilir, evindən, yaxud yaxın bir nöqtədən nəqliyyat vasitəsilə evə gətirilirlər. Yaxın ətrafdan gələn qonaqlar qapıda, uzaq məsafədən gələn qonaqlar isə küçə qapısında qarşılanır (74, 1).
Qonaq hər gün görülən qapı qonşusu olsa belə mütləq gülər üzlə və şirin dillə qarşılanır. Qapı açılar açılmaz "Xoş gəldiniz" deyilər, əgər qonaq tez – tez gələn biri deyilsə "Aman əfəndim, kimlər gəlmiş, xoş gəldiniz, ayağınıza isti sular tökək" deyərək yüngül bir məzəmmət edirlər, qonaq tez – tez gələn biridirsə "Aman nə səadət, biz də indi gələ idi, deyirdik" tərzində ziyarətinə qarşılıq istək göstərilir.
Qonaq qapıdan içəri girdiyində, ev sahibi tərəfindən əvvəldən hazırlanmış qonaq başmağını ayağına keçirərkən, ev sahibi tərəfindən varsa əlindən paketi, çətiri, çəliyi, kürəyindən mantosu və başından şapkası alınar. Qonaq ev sahibinin yol göstər-

məsiylə qonaq otağına keçər (74, 1).

Yeməyə dəvətli olan qonaq üçün mükəmməl bir süfrə hazırlanır, süfrədə ət yeməyi və şirni olmasına çalışılır, mümkün olmadığı təqdirdə isə qüsurların bağışlanması üçün əfv dilənir. Qonaq yemək yeyərkən, ev sahibi yemək yemiş olsa belə qonağa yoldaşlıq etmək məcburiyyətindədir. Yemək əsnasında gələn qonaqlar isə mütləq süfrəyə dəvət edilir. Qonaqdan əvvəl yeməyə başlamaq və qonaqdan öncə süfrədən qalxmaq İstanbul əhalisi üçün eyib sayılır, süfrə hazırlananda, yaxud yığışdırılanda qonağın iş görməsinə icazə verilmir və "Olmaz, sən qonaqsan, otur" deyilər. Buna baxmayaraq kömək üçün israr edən qonaq ev sahibinin könlünü qazanır (74, 1).

Özbək qonaqpərvərliyi keçmişdən bəri məşhurdur. Özbəklərin qonaq haqqında deyilmiş gözəl bir çox atalar sözü vardır: "Qonaq atandan da böyükdür", "Qonaq qisməti ilə gəlir". Qonaq, əvvəldən xəbər verərək və hədiyyə alaraq ziyarətə gələr. Ev sahibi qonağı içəri buyurduqdan sonra salamlaşar. Qonaqla qapı eşiyində salamlaşmaq özbəklərdə yaxşı qarşılanmır. Oturduqdan sonra şübhəsiz, ən yaşlı kimsə və ya qonaq tərəfindən fatihə oxunur. Süfrədə çörəyi ev sahibi paylayır (78, 1).

XIX – XX əsrlərdə Şirvanda qonaq qarşılamaq, süfrə başında oturmaq, qonaqla ünsiyyət qurmaq, yola salmaq evin böyüyü tərəfindən icra olunardı. Qonağın yanında böyüklər dura – dura kiçiklər danışmazlardı.

Qonaq ilk olaraq və şübhəsiz, Bismillahirrahmanirrahim deyərək yeməyə başlayır. Qonaq evə girdiyi zaman və yemək yedikdən sonra mütləq əlini yumalıdır. Ev sahibi qonağın əlinə su tökərək onun əlini yumasına köməkçi olur. Əlin yuyulması qonağa göstərilən hörmətin ifadəsidir. Süfrədə qonaq üçün yemək olaraq ən son özbək plovu təqdim edilir. İbni Sinanın "Hər növ yeməyi könlün çəkdiyi zaman yemək faydalıdır" sözü üzərinə süfrədə istənilən vaxt hər növ yemək mövcuddur. Yeməkdən sonra əksəriyyətlə yaşıl çay içilir (78, 1).

Özbəklərin qonaqlarını çox yaxşı qarşılamalarının digər bir xüsusiyyəti də yeməkdən əvvəl və sonra qonaqların əllərini yumaları üçün əlləri ilə dolça tutmalarıdır. Yəni özbəklərə qonaq olan birinə dolça ilə su tutma bir ənənədir (77, 1).

Türk xalqlarında qonaqpərvərlik adəti adi günlərdə deyil, bayramlarda da müşahidə olunur. Tatar türkləri, Sabantuy ("saban" – saban, "tuy"– toy) bayramını qar yerdən qalxdığı günlərdən etibarən bahar əkini başlayna qədər qeyd edərlərmiş. Sabantuy bayramı, hər kənddə xüsusi bir bayram sayılır və qonşu kəndlərin əhalisini ayrıca olaraq bu bayrama dəvət etməzlər. Onlar ümumiyyətlə dəvətsiz gəlirlər və bayram sonu öz kəndlərinə geri dönərlər. Ancaq bayram olan kənddə qohumları varsa, burada yeməyə də çağırıla bilərlər (82, 4). Şirvanda adi günlərdə deyil, xalq və dini bayramlarda da qonaq getmək, qonaq qarşılamaq bölgə əhalisinin mənəvi – əxlaqi tərbiyəsini özündə təcəssüm etdirir (XIX-XX əsrlərdə). Xüsusən, Novruz bayramında, çərşənbələrdə, Qurban və Ramazan bayramlarında xoş əhval– ruhiyyə ilə qonaq gedər, xoş duyğularla qonaq qarşılayarlar. Oruc tutan qohumları və qonşuları iftar süfrəsinə dəvət etmək Azərbaycan ailəsinin zəngin daxili aləmini, nəcib xüsusiyyətini özündə əks etdirir. Bu ənənə keçmişdən günümüzə qədər gəlib çatmıdır. Etnoqrafik müşahidələr bayram mərasimlərində (xalq və dini bayramlarda) qonaq qarşılamaq və qonaq getmək ənənəsinin qonaqpərvərliyin əsas meyarlardan biri olduğunu deməyə imkan verir.

## III fəsil. DİNİ İNAMLAR

### 1. İbtidai dini təsəvvürlərin qalıqları

İslamın ilk dövrlərindən başlayaraq Azərbaycan, o cümlədən Şirvan torpaqları ərəblər tərəfindən zəbt edilmişdi.Vaxt keçdikcə İslam dini yerli əhali tərəfindən könüllü olaraq qəbul edildi. İlkin ərəb yürüşləri keçirilərkən Quzey və GüneyAzərbaycan torpaqlarında köklü sosial – siyasi – mənəvi sarsıntılar yapılması nəzərdə tutulmurdu. Ərəblər hələ yerli dini görüşlər üzərinə barışmaz yasaq qoyub İslamın sözsüz qəbul edilməsini tələb etmirlərdi. Ələ keçirilən bölgələrdə onlar ilk öncə Xilafət ağalığını hərbi– siyasi baxımdan qəbul etdirmək, bir də yendirilən xalqı torpaq (xərac) və can vergisi (cizyə) ödəməyə məcbur etmək istəyirdilər (2, 132).
Lakin zaman keçdikcə bəşəriyyətin ən mükəmməl, sivil dini olan İslam dini Azərbaycanda geniş intişar tapmış, əsrlərin mədəni mərhələlərindən ta bu günümüzədək istər məişət, istər mənəviyyat və istərsə də mədəniyyət sahəsində əsaslı yer tutmuşdu.

XIX-XX əsrlərdə Şirvan əhalisi İslami dəyərlərə üstünlük verir, dinin bütün qayda və qanunlarına sözsüz əməl edirdilər. Hər bir müsəlmanın beş əsas vəzifəsi vardır ki, bu vəzifələr müsəlmanın bütün həyatını idarə edən əsas prinsiplər hesab olunmalıdır: Vahid Allaha inam, namaz, oruc, həcc, zəkat. Bu ibadətlərdən ən əhəmiyyətlisi Quranı davamlı oxumaq və yazılanları gündəlik həyata keçirmək idi. XIX-XX əsrlərdə Şirvan bölgəsinin əhalisi də bu əsas prinsipləri bilir, özlərinin mənəvi borcu və vəzifələri hesab edir, yetərincə onlara əməl etməyə çalışırdılar.

Ümumiyyətlə, Şirvan kitabələri camaatın dini – mənəvi dəyərlərində möminlik düşüncələrinin üstünlük təşkil etdiyini bariz şəkildə nümayiş etdirir. Şirvan bölgəsində Qurban bayramı və Aşura günü ilə bağlı keçirilən yerli özünəməxsus mərasimlər demək olar ki, bütün rayonlarda eyni səciyyə daşımışdır. S.Qəniyev yazmışdır ki, Şirvanın mərasim nəğmələri içərisində dini ayinlərə xas nəğmələrin də öz yeri vardır. Belə örnəklər içərisində yüzlərlə zikrlər, sinəzən və növhələr vardır

və onların nəzərdən keçirilməsi Azərbaycan folklorunun regional cizgilərinin Şirvan mühitinə xas tərəflərini göstərməyə imkan verir:

Haqdan yerə imdadı,
Hey–hey–hey Allah, Allah!
Peyğəmbərə ustaddı,
Hey–hey–hey Allah, Allah! (47, 10).

Bölgədə dolaşan dini məzmunlu şeir nümunələrindən çoxu “mövludu Nəbi” mərasimi ilə bağlıdır. Bundan başqa, Şirvanda Aşura və Qurban mərasimləri ilə bağlı mətnlər də mövcuddur. Aşura ilə bağlı söylənilən şerin bir bəndində deyilir:

Qoçaqlarım qoç igidə meydandı,
Müxənnət sərindən tökülən qandı.
Birinci imamım Şahi Mərdandı,
İkinci imamım xəbər al, deyim.

On dörd bəndlik bu şerdə İmam Əlidən və onun tərəfdarlarından söhbət gedir. Şeir məzhəb təsnifatı baxımından şiəliklə bağlıdır və bu cəhət Şirvan folklorunun regional cizgilərinin qaynağı kimi diqqəti cəlb edir (47, 11).

S.Qəniyev qeyd etmişdir ki, Şirvan folklor mühitinin regional janr mənzərəsində yas (dəfn) mərasimlərində ifa olunan ağıların öz payı var. Bu janr öz tarixi kökü baxımından əski çağlara gedib çıxır. Əski türklərdəki dəfn mərasiminin bir çox elementləri Azərbaycanın ənənəvi yas mərasimlərində, eləcə də Şirvan bölgəsində bu günədək qorunub yaşamaqdadır. Azərbaycanın başqa yerlərində olduğu kimi, Şirvanda da ölənin yaşı, işi, xasiyyəti və s. uyğun olan ağılar deyilir. Ağı söyləyənə bu regionda “ağıbaşı”, “ağıçı” deyirlər. Yasda qadınlar bir yerə yığılır, ağıbaşı avazla oxuyur, ətrafdakı qadınlar isə xorla nəqarətləri təkrar edirlər:

**Ağıbaşı:** Gəl gedək Hun dağına,

Gün düşüb Hun dağına,
Səni doğan ananın
Od düşüb qundağına

**Xor:** Şah Hüseyn, vay Hüseyn!
Şah Hüseyn, vay Hüseyn!

**Ağıbaşı:** Sözümü Kerdən desəm,
Sədəfdən, dürdən desəm,
Uçular Baba dağı,
Dərdimi birdən desəm.

**Xor:** Şah Hüseyn, vay Hüseyn!
Şah Hüseyn, vay Hüseyn! (47, 15).

Azərbaycanın yas mərasimlərində artıq öləni ictimai fərd kimi deyil, öz yaxınları üçün dəyərli bir kimsə kimi ağlayırlar. Söylənən ağılarda şəxsi kədər daha üstün yer tutur. Şirvan regionuna xas bu ağıda isə qədim türk ağılarının tarixi ifa üslubu qorunub (11,16). Şirvanda da ölən adamın (xüsusilə cavanların) cənazəsi üstündə üz cırmaq, saç yolmaq, başa vurmaq adəti indi də davam etməkdədir. Bu mənada Şirvanın yas törənlərində Azərbaycanın qədim dəfn mərasimlərinin etnoqrafik özəllikləri qorunmaqda, yaşamaqdadır. Kökü qədimlərə gedib çıxan bu yas adətlərinin şivənlərlə, ağılarla birgə götürülüb araşdırılması Şirvan bölgəsinə xas yas mərasimi folklorunun səciyyəvi özünəməxsusluqlarını görməyə və öyrənməyə imkan verir (47, 17).

İslam dininin güclü təsir gücünə malik olmasına baxmayaraq ibtidai dini ayinlər əsrlərdən əsrlərə süzülüb gəlmiş, əhalinin məişətində böyük iz buraxmışdır. Lakin onu da qeyd etməliyik ki, bu ayinlər və mərasimlərin əksəriyyəti islamlaşmışdı.

İslamdan əvvəlki dini etiqadlar bir qayda olaraq məişət səviyyəsində fəaliyyət

göstərmiş və həyatın bütün sahələrinə nüfuz etmişdir. Daha əski təsəvvürlər kontekstinə daxil olan, özündə mifoloji və magik motivləri cəmləşdirən ayinlər və mərasimlər qədim dövrün dini inancları ilə birbaşa şərtlənir. Azərbaycanda islam, xristianlıq və iudaizmdən əvvəl çoxsaylı ibtidai ayinlər mövcud olmuşdur. Qəbilə quruluşu dövründə yaranmış olan bu ayinlərin bir çoxu islamlaşmışdır, bəziləri isə dəyişməmiş formada qalıb. Tədqiqatçıların fikrincə, ilk ibtidai dini görüşlərin yaranması Azərbaycan ərazisində alt paleolit dövrünə gedib çıxır (49, 11).

Türk xalqlarında Tunc və Dəmir dövrünün dini təsəvvürlərində oda, suya, ağaca, dağlara, meşələrə, günəşə, aya və ulduzlara etiqad mövcud idi. İbtidai icma quruluşunda qədim Türk xalqlarının dini dünyagörüşü üçün xarakterik olan animizm, totemizm, magiya və şamanizm dinlərinin əksi aşkar edilmiş sənət tapıntılarında özünü açıq şəkildə göstərir. Bilindiyi kimi, böyük Türk dünyasının ürəyi sayılan Altay Baykal ətrafından Bosfora qədər, Türkistan vahəsindən Yakut tundrasına qədər olan ərazini əhatə edir. Altaylarda ağaca xüsusi münasibət, inanc vardır.

Buralarda əfsanəvi və müqəddəs sayılan ağaclar da mövcuddur. Xüsusilə də qızılı qovaq (112, 89). Bizim eranın I minilliyində Orta Asiya türklərinin dini dünyagörüşlərində göy, torpaq, əcdad kultları və şamanizm ənənəvi inanclar hesab edilirdi (113, 7). Şirvan bölgəsində pirlərə bəzən xəstəliklərdən qurtulmaq obyekti, şəfa verici vasitə olaraq baxırdılar. Altayda isə yalnız şamanlar xəstəlik və əzabın gəlməməsini diləyirdilər (114, 22).

Dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da ilk dini təsəvvürlər animizm, fetişizm və fallik formalarda olmuşdur (33, 16-17). Azərbaycanda böyük maraq kəsb edən qədim dini etiqadlardan daş və su ayinləri geniş intişar tapmışdır. Daş, su, əcdad və qismən də ağac ayini ilə bağlı inancların Şirvan bölgəsi əhalisinin məişətinə böyük təsiri olduğu danılmazdır. Azərbaycanda insanların ilahiləşdirdikləri təbii obyektlərdən biri daşdır. Məlum olduğu kimi, ibtidai insanların həyatında daş son dərəcə mühüm rol oynamışdır. Təbiətlə qarşıdurma daş alətləri (ilk əmək alətlərini) yaratmış, digər tərəfdən soyuqdan və vəhşi heyvan-

lardan qorunan insanlar daş mağaralarda ilk sığınacaq tapmışdır. Qədim insanlar daşı bir növ öz həyatının mühafizəçisi hesab etmişdir. Beləliklə, insan həyatında oynadığı roluna görə daşa etiqad yaranmışdır (34, 98).

İ.İ. Meşşaninov "ayaq izləri olan daşlar", "sonsuzluqdan qurtaran daşlar"ın mövcudluğunu göstərir. O, həmçinin kromlex pirlərə də rast gəldiyini qeyd edir (104, 11-12). Azərbaycanlıların məişətində alqış və qarğışlarda daşa sitayişin qalıqları hələ də qalmaqdadır: "Dərdin daşlara", "Sən mənim daşımı atmısan (Sən məni yaddan çıxarmısan)","Mənim daşım sənin başına düşsün", "Mənim daşım ağırdır", "Babanın daşı çatlasın", "Başın daşa dəysin" (100, 111).

Daşla gələcəyi öyrənmək, daş yapışdırma, dəlikli daş ortasından və ya iki daş sütun arasından, iki daş, qaya arasından keçmə, daş çevirmə, daş çevirmə inancına dair hadisələr bir çox illərdə, maraq dərəcəsi hər vaxt çox olmasa da görülməkdədir. (81, 98) .

XIX-XX əsrlərdə Azərbaycanda daşa sitayiş etməyin qalıqları özünü qayalara, dağlara və çay daşlarına sitayiş etmək şəklində biruzə verirdi.

Türklərin "Dünyanın Yaradılışı" əfsanəsində qayanın əhəmiyyəti meydana çıxır. Tanrıya qarşı səhv bir davranışda olan insan suya düşər və suda boğularkən, Tanrıya: "– Ah Uca Tanrım! Məni qurtar!.." deyə yalvarır. Tanrı "– Ey İnsan! ... Suda yüksəl" deyə cavab verir və insan suyun üzərinə yüksələr. Tanrının yeni buyruğu: "– Yalçın qaya olsun" (81, 98).

Ə.Ələkbərov daş ayininin Azərbaycanda müxtəlif formalarda yayıldığını və iki əsas qrupa bölündüyünü qeyd edir: I dağ və qaya ayinləri. II çay daşı ayini. Hər iki qrup ümumi kökdən – animiya təfəkküründən ibarətdir. Prinsip olaraq onlar bir – birindən fərqlənirlər. Bölgədə bir – birinə qarğış edən adam belə bir ifadə işlədirdi: "Get, dalınca qara bir daş", "Başına daş düşsün", "Daşım başına düşsün". Şirvan bölgəsində sitayiş olunan bir çox dağ və qayalar vardır ki, onlardan Şamaxı rayonunda Dədə Günəş piri daş ayini ilə əlaqədar olaraq dini əhəmiyyətə malikdir. Pirin mücaviri müalicəyə gələn xəstələri daşla müalicə edir. Belə ki, mücavir qəbir

üstündən çay daşı götürərək onu xəstənin sol və sağ çiyninə, sinəsinə sonra isə başına toxundurmaqla guya xəstəliyi daşa keçirmiş olur. İnanca görə, bu daş xəstənin canından bütün xəstəliyi və azar – bezarı çıxarır. Ağsuda isə cənazəni yerdən götürərkən yerinə daş qoyurdular ki, ölünün ruhu daşda qalsın. Yeri gəlmişkən Dədə Günəş pirində digər ayinlər də icra olunurdu. Ziyarətə gələnlər arasında sonsuz adamlar da böyük əksəriyyət təşkil edirdi. Belə ki, uşaq arzusu ilə pirə gələnlər pirin həyətindəki ağacdan beşik asırdılar.

XIX-XX əsrlərdə dağ və qayalara inam, etiqad əhalinin dini inanclar sistemində əhəmiyyətli yer tutmuşdur. Şirvan bölgəsində sitayiş olunan bir çox dağ və qayalar vardır ki, onlardan Sanqalan dağını və dağdakı ziyarətgahı göstərmək olar.

... Sanqalan dağı həm də böyük ziyarətgahdır. Yerli əhali onu müqəddəs sayıb, ona and içir. Onun zirvəsində günbəzsiz bir qəbir var. Uzun illərdir ki, buradakı pirə ümid bağlayır, arzu edir və qurban kəsirlər (50, 11). ...Bizi çağırıb xeyrat verirdilər ki, Sanqalan babaya etdiyimiz niyyət yerinə yetmişdir (50, 12).

1983- cü ildə Ağsu rayonu Qırlar kəndi yaxınlığında yerləşən təpədə arxeoloji qazıntı işləri aparılmışdır. Aşkar edilmiş qəbir abidəsi avadanlığının zənginliyi ilə diqqəti cəlb etmişdir. Lakin qəbir abidəsində daş ayini ilə bağlı maraqlı bir detal aşkarlanmışdır. Belə ki, skeletin ətrafı, ayaqları yanından başlayaraq, başına qədər hər tərəfi qoz böyüklüyündə ağımtıl bərk daşlarla əhatə olunmuşdur. F.Osmanovun verdiyi məlumata görə, bu daşlar xüsusi olaraq düzəldilmiş və seyrək şəkildə ölünün ətrafına düzülmüşdür. Skeletin ətrafına düzülmüş bu xırda ağımtıl daşların sayı 53 ədəddir. Ehtimal ki, bu ayin yerli əhalinin qədim daş ayini ilə bağlıdır (57, 88 - 89).

Ölümdən sonra ruhun daim yaşayacağı və ruhun daşa keçməsi inancı xalq arasında məşhurdur. Bunu məzarların üstünə qoyulan daş abidələr açıqca göstərməkdədir. Türkiyənin(Iğdır) köhnə kənd məzarlıqlarının çoxunda üzərində motiv olan və sadə qoçbaşlı məzar abidələri var. Araşdırmalar nəticəsində müəyyən olur ki, qoçbaşlı abidələr fərqli daş növlərindən düzəldilmişdir. Bölgədə daş qoçların çoxluq təşkil

etməsi daş emal edilən yerlərin, daş ocaqlarının olduğunu göstərir.Daş qoçlar möhkəm olduğundan günümüzə qədər qalmışdır (69, 1).

Iğdır və ətrafında, Araz hövzəsi boylarında qoç heykəlin qoyulması ənənəsinin XV-XVI əsrlərdə bölgədə hakim olmuş Qaraqoyunlu və Ağqoyunlu Türkmənlərindən qaldığı güman edilir. Araşdırmalar nəticəsində müəyyən olur ki, qoçbaşlı məzar abidələrinin yayılma coğrafiyası Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin sərhədləri içində qalmamış, Sibirə, Qazaxıstana, Xakasyaya, Azərbaycana, Monqolustana, Türkiyəyə və digər bölgələrə qədər yayılmışdır. Qoçbaşlı məzar abidələrinin məşhur olduğu bölgələrdə bənzər inanclar mövcuddur. Bolluğun, bərəkətin simvolu olan qoç başlı məzar daşlarının müqəddəs sayılması bəzi bölgələr üçün xarakteriktir (69, 1-2).

Türkiyə və Azərbaycandakı qoç abidələrlə əlaqədar inanclar sistemində bənzərliklərlə birlikdə, paralellərə də rast gəlmək mümkündür. Azərbaycanın Şirvan bölgəsində də bolluğun rəmzi sayılan qoç abidələr mədəniyyətimizdə əhəmiyyətli və zəngin abidələrdən sayılır. Şamaxı və Ağsu rayonlarında bu sahənin mütəxəssisləri tərəfindən araşdırma aparılmış, qoç abidələrlə əlaqədar inanclar ətraflı öyrənilmişdir. Türkiyədə olduğu kimi Azərbaycanda da qoç abidələrə xüsusi hörmət göstərilmiş, güc, bərəkət və dölləyici simvol olaraq qəbul edilmişdir.

Daş qoçların xalq arasında müqəddəs sayılması və ziyarət edilməsi geniş yayılmışdır. Iğdırın Aşağı Aratan və Yuxarı Aratan kəndləri arasında olan daş qoç indiki vaxtda də ziyarət edilməkdədir. Çox qədimlərdən mövcud olan bu ənənənin davam etməsi bölgə əhalisinin ənənə və adətlərinə bağlı olduğunu göstərir. Niyyəti və nəziri olanlar daş qoçu ziyarət edər, qurbanlar kəsərlər. Bənzər inanc Naxçıvanda da vardır. Son dövrlərə qədər şəhər mərkəzində olan qoçbaşlı məzar abidəsi əhali tərəfindən ziyarət edilməkdə idi. İndi o qoç muzeyə götürülmüşdür. Doğmayan qadınları, eyni zamanda danışmayan, eşitməyən və gec yeriyən körpələri daş qoçlara ziyarətə aparırdılar. Doğmayan qadınlar niyyət edib daş qoçun boynuna ip bağlayırlar, sonra altından keçər və qarınlarını daşa sürtərək sonsuzluqdan xilas

olacaqlarına inanırmışlar (69, 2). Qaraqoyunlu mahalında daş kultu və onlarla bağlı inanclar xalq mədəniyyətində də özünü göstərməkdədir. Azərbaycanın qədim mədəniyyətə malik Ağsu rayonunda Qaraqoyunlu adında kənd mövcuddur, kənddə daş inancı əhəmiyyətli bir yer almışdır.

Azərbaycan türklərinin qədimdən sitayiş etdikləri təbiət qüvvələrindən biri də sudur. Hələ qədim Albaniyada IV-VII əsrlərdə yerli inanclar əsasən təbiət gücünə əsaslanırdı. Bunlardan biri də suya inam idi (118, 294). Hələ eramızdan qabaq Azərbaycanda mövcud olan dini etiqada görə Nahid adlı su ilahəsi mələklər içərisində böyük mövqeyə malik imiş. Su ilahəsi Nahid İslamiyyətdən qabaqkı ideologiyaya görə qadın simasında təsvir edilmişdir. Burada qadına yeni həyatın yaradıcısı və bünövrəsi kimi sitayiş edilir və su ilə əlaqədar olan bayram və mərasimlərdə Nahid həyatverici bir varlıq kimi tanınırdı. Buna görə də zərdüştlikdə quraqlığı aradan qaldırmaq üçün Nahidə sitayişlə əlaqədar olaraq keçirilən mərasimlərdə, xüsusilə qadınlar iştirak edirdilər. Qadınların Nahidə müraciət edib su istəmələrinin əsas kökü Nahidin də qadın olması üzərində qurulmuşdu. Bu etiqada görə su ilahəsi Nahid öz həmcinslərinin sitayiş və yalvarışlarına daha tez nəzər yetirər (20, 134-135).

Azərbaycanda su ilə bağlı adət və mərasimlər içərisində Abrizəkan bayramının xüsusi yer tutduğunu qeyd etmək lazımdır. Yazılı mənbələrdə o, Tirakan bayramı kimi də qeyd edilmişdir. Tir ayında (Avesta təqvimi üzrə yay fəslinin birinin ayı) keçirildiyi üçün belə ad verilmişdir. Mövsüm bayramlarından sayılan Abrizəkan isti vaxta düşürdü. Yay fəslinin başlanması ilə suya tələbat artdığından adamlar yağışa daha çox ehtiyac hiss edir və ona görə də bu bayramı keçirirdilər (21, 38). Bu bayramın yaranma tarixi mənbələrdə Piruz adlı müstəbid hökmdarın adı ilə bağlıdır. “Hüdud əl Allam” adlı X əsr mənbələrində qeyd edilir ki, Abrizəkan bayramında adamlar çeşmə başına toplanır, çalıb–oxuyur və öz istəklərini diləyirdilər. Bu bayram Səfəvilər dövründə çox böyük şənliklə keçirilirdi. Hökmdarlar özləri də bayram şənliklərində fəal iştirak edirdilər. Mənbələr şənliklərdə iştirak edən adam-

ların bir – birinin üstünə su və gülab səpmələrindən söhbət açırlar (21, 38).

Qədim Türk xalqlarında isə su kultu vətən kultu dərəcəsinə qədər yüksəlmişdir. Göy Türk imperatorluğu dövründə Yer– su ruhlarının mahiyyətini Orhon yazılarından anlamaq mümkündür (70, 48).

Kiçik M.A. ağac kultundan başqa su kultundan da bəhs etmişdir. Su atanın arvadı olan su Ana/Çay nənəsi, yaşlı qadın qılığında çay kənarlarında yaşamaqdadır. O, körpüdən keçərkən suya çox baxanlara əsəbləşərək, insanların başını döndürür və suya düşmələrinə şərait yaradır. Su anasının, Su Ata və Su ruhundan fərqi sahilə çıxmağı çox sevməsidir. Su ruhu, müəyyən bir su qaynağına bağlıdır. Su anası və su atası isə bütün su qaynaqlarının sahibidirlər və istədiyinin yanına gedə bilməkdədirlər. Su ruhu bu qaynaqları qorumaq üçün "Su Ana" və "Su Ata"nı qoruyucu kimi təyin etmişdir (73, 128-129).

Ulu babalarımız bulaqlar və su mənbələrini həmişə müqəddəs hesab etmişlər. Bu inanclar Şirvan bölgəsində qədimdə və indi də mövcud olmuşdur. Şirvan camaatı suyu aydınlıq, təmizlik və həyat rəmzi hesab edirdi. Verilən məlumata görə Şamaxıda ölülərin qəbri üstünə su çiləyirlər. Şamaxıda həmçinin uzaq səfərə gedən adamın dalınca həmişə su atırdılar. Ağsuda isə sosial – iqtisadi amillərin spesifikliyi su ilə bağlı bəzi inanclar və mərasimlərin uzaq keçmişlərdən ta bu günümüzədək fərdi xüsusiyyət daşımasına səbəb olmuşdur. İnanca görə Su çərşənbəsinin səhəri günü obaşdan su mənbəyinə gedib gördüyün yuxunu suya danışmaq lazımdır. Süfrəyə suyun dağılması isə aydınlıq əlaməti hesab olunur. Şirvanda ölülərini dəfn və ya ziyarət edən adamlar qəbiristanlıqdan çıxarkən elə qəbiristanlıqda olan arx və su mənbələrində və ya qəbiristanlıqdan kənardakı su mənbələrində əl – üzlərini yuyur, başlarına su çiləyirdilər. Bu onunla izah olunur ki, guya bununla qəbiristanlığın ağırlığı elə buradaca da qalır. Ümumiyyətlə, bu ayin bütün Şirvan bölgəsi üçün xarakterik bir ayindir.

Azərbaycanda su ilə bağlı adət və mərasimlər içərisində müsəllaya çıxmaq mərasimi xüsusi yer tuturdu. Müsəllaya çıxmaq mərasimi Şirvanda da geniş yayıl-

mışdı. Bölgədə yağış çağırmaq məqsədilə mürəkkəb və özünəməxsus xüsusiyyətlərə malik olan "müsəlla" mərasimi keçirilirdi. Mərasim belə keçirilirdi: Bütün kənd və ya bir neçə kənd qadınlarını, onların uşaqlarını, həmçinin mal – qaralarını yığıb bulağa yollanardılar. Orada guya uşaqları analarından, balalarını isə mal – qaradan ayırıb yandırıcı günəş altında dayanmağa məcbur edir, bulağa yaxın qoymurdular. İstiyə və "təcridə" dözə bilməyən uşaqlar ağlayır, körpə heyvanlar isə mələyir və böyürürlər. Böyüklər də öz növbəsində uşaqlara qoşulub "ağlayırlar". Beləliklə, ümumi "ağlaşma" başlayır. Bu göz yaşları guya "güclü qüvvələri" rəhmə gətirməli idi. Göz yaşlarının axması isə guya yağışın yağmasına "kömək etməli idi".
"Ağlaşma"dan sonra camaat xüsusi dua ilə çay daşlarını kisəyə yığır və özləri ilə kəndə gətirirdilər. Yağış yağdıqdan sonra isə daşlar çaya qaytarılırdı (84, 205).
Bölgədə günəşin çıxması, yağışın kəsməsi ilə bağlı qədim tarixi köklərlə bağlı ayin və mərasimlər də icra etmişlər. Onu da qeyd edək ki, Şirvan bölgəsində günəşi çağırma mərasimi özünəməxsus ifa tərzi və koloriti ilə seçilir. S.Qəniyev məlumat vermişdir ki, bu kimi mərasim və ayinlərin ənənəvi davamına Şirvanın bir çox bölgələrində (Qobustan, Ağsu, Kürdəmir) təsadüf edilməkdədir. Elə ki, günəşin üzü tutuldu, el içində əməlisaleh sayılan adamlar hündür bir yerə çıxır, üç dəstəyə ayrılır (dəstədəki adamların sayı tək olmalıdır –3,5,7 və s.) və dairə vurub özləri ilə gətirdikləri qabları döyə – döyə ucadan oxuyurlar:

Açıl, günüm, açıl,
Saçıl, günüm, saçıl.
Elin zindana düşüb,
Aşın qazanda bişib,
Oban yolunu çaşıb,
Qorxu həddini aşıb.
Açıl, günüm, açıl,
Saçıl, günüm saçıl (47, 7-8).

Ağac bir çox Şərq ölkələrində olduğu kimi, Azərbaycan ərazisində də dünyanın, kainatın və ümumiyyətlə, həyatın rəmzi rolunu oynamışdır. İstər arxeoloji, istərsə də etnoqrafik materiallardan aydın olur ki, ağaca inam özünü bir neçə formada biruzə verir (14, 16). Hər şeydən əvvəl insanlar ağaca ruh məskəni kimi baxmışlar. Xüsusilə yaşlı çinar, palıd ağacları əcdadların ruh yeri kimi ziyarətgaha çevrilmişdir (15, 24). Palıd ağacı həmçinin müqəddəslərin ruhunun mərkəzi hesab edilir (16, 213).

Türk miflərində qayın ağacı ilə birlikdə şam ağacı da əhəmiyyət kəsb edir. Çünki şam ağacı, göyləri deşərək daha da yuxarılara çıxa bilməkdədir. Bu ağacın təpəsində də Tanrı Ülgen yaşayır. Şaman davullarında da bu ağacların şəkilləri görülməkdədir. Bəzi Türk mifologiyalarında dağ göylərə qədər uzanmaqda, dağın təpəsində yeddi budaqlı bir qayın ağacı görülməkdədir. Allahın övladları bu ağac budaqları arasında saxlanılır (73, 126).

Şirvan bölgəsində ağac ayini və müqəddəs meşələrlə bağlı olan inamlar geniş deyil, müəyyən çərçivədə yayılmışdır. R.Ə. Bəxtiyarova ağac kultunu şərti olaraq aşağıdakı şaxələrə ayırır.

a) ağaclar ruhlar məskəni kimi, yəni onların əcdadlara inamla bağlılığı problemi;

b) ağac pirlərin şər qüvvələrə qarşı mübarizə obyekti rolunu oynaması;

v) ağac pirlər arzu və diləklərin icraçısı kimi;

q) ağac pirlər müalicə vasitəsi kimi (15, 76-77).

Bölgədə ağac pirlər arzu və diləklərin icraçısı kimi çıxış edir və bu prinsipdən doğan inamlar bəzi xüsusiyyətləri ilə diqqəti cəlb etmişdir.

Şirvanda verilən məlumata görə qarağac və nar buralarda hər zaman müqəddəs ağac hesab olunmuşdur.

Ağsu rayonunun Qaraqoyunlu kəndində Qırmızı günbəzin ətrafındakı ağaclara arzu və dilək məqsədilə müxtəlif rəngli yaylıq, parça hissələri, sap bağlayırdılar.

Şamaxının Xınıslı kəndində eramızın ilk illərinə aid aşkar edilmiş gil qabların

üzəridə də ağac təsvirlərinə, çox vaxt quş təsvirləri ilə birlikdə rast gəlmək mümkündür.

Məlumdur ki, Azərbaycanda da əcdad ayini bəzi bölgələrdə mövcud olmuşdur. Ə.Ələkbərov əcdad ayininin daha böyük maraq kəsb etdiyini qeyd edir:
"Əcdad ayinindən danışarkən, qeyd etmək lazımdır ki, bu ayini özünün orijinal formasında ibtidai xalqlarda görə bilərik". Belə ki, ailədə böyük hesab edilmiş ölən kişinin və qadının papağını və ya baş örtüyünü evin çardağından asırdılar (84, 208-209). Ata – baba ruhuna hörmət bir çox müxtəlif xalqlar içərisində orta əsrlərin son dövrlərinə kimi qalmışdı. Ata – baba ruhuna hörmət ibtidai insanlarda qorxu nəticəsində yaranmışdı. İbtidai insanlar təkcə insanlarda deyil, bütün şeylərdə ruh olduğuna etiqad edirdilər. Qədim Azərbaycanda çox uzaq keçmişlərdən bəri ata baba ruhuna ehtiram adəti də olmuşdur. Bu adət zərdüştilik yayıldıqdan sonra da mürəkkəbləşmiş, qalıqları isə son zamanlara qədər yaşanmışdır (20, 59 - 60).
Ənənəvi Türk dinində hər şeyin bir ruhu/iyesi olduğu xüsusu mifoloji baxımdan Türklərin ruh anlayışında, bir düalizm şəklində görülməkdədir. Bu dualizm, həm dini anlayış və tətbiqlər, həm də mifologiyada yaxşılar və pislər savaşı şəklində baş verməkdədir. Dəyişkən qabiliyyətləri ilə məkan və zamanda qılıq dəyişdirərək gəzmək xüsusiyyətinə sahib ruhlar, yalnız yaxşı və pis şəklində deyil; dişi/ana və kişiyə xas/ata formasında də təsvir edilmişlər. Ata ruhlar, yaradıcı və döyüşçü ruhlar olaraq təzahür edərkən, dişi ruhlar isə ümumiyyətlə artıma/çoxalma və qoruyucu kimi xüsusiyyətləri ilə seçilmişlər (73, 131).

Azərbaycanın Şirvan bölgəsində əcdad ruhu və kultu ilə bağlı bəzi xalq inamları mövcud olmuşdur. Əcdadla bağlı xalq inamları da bəzən yalnız bir ailə ilə bağlı olmayıb, bütöv bir qəbilə üçün də inamlar obyektinə çevrilmişdir. Uzaq Şərq və Amur regionu xalqlarında əcdadla bağlı inamlar sistemində bəzi nüfuzlu fiqurlar mövcud olmuşdur. Bu fiqurlar isə əsasən himayədar qadın ruhu simasında təsvir olunmuşdur. Maas – ev və ailə himayəçisi olaraq birbaşa əcdad inamları ilə əlaqədar idi. Maas fiquru nəsildən – nəsilə ötürülür, evin şərəfli yerində yerləşdirilərdi.

Əcdadla bağlı xalq inamları və ayinlərə görə Maas xəstəlikləri qovur, nicat və uğur gətirir, evin, ailənin təminatçısı sayılardı. Qədim insanların inancına görə əcdad ayini həm də ailə maraqlarını qoruyur, ailənin dostlarını qoruyur, zərərli insan və düşmənlərini bir ruh olaraq dəf edə bilir. İbtidai insanlar onun (əcdad ruhunun) qəzəb və intiqamından qorxur, belə hesab edirdilər ki, əcdad ruhu qeyri − məhdud hakimiyyətə malikdir (101, 1). Apardığımız araşdırmalar və sorğular nəticəcində aydın olmuşdur ki, yuxarıda qeyd olunan əcdad kultu fiquru və onunla əlaqədar olan ailə himayəçisi fiquru Azərbaycanın Şirvan bölgəsində mövcud olmamışdır. Lakin bölgədə aparılmış etnoqrafik tədqiqatlar nəticəsində məlum olmuşdur ki, əhalinin dini inanclar sistemində əcdad ruhu ilə bağlı bir xeyli xalq inamları keçmişdən ta bu günümüzədək müstəsna əhəmiyyət kəsb etmiş, insanların mənəvi dünyasında əhəmiyyətli rol oynamışdır. Qeyd etmək lazımdır ki, Şirvan bölgəsində əcdad ruhu ilə bağlı xalq inamları qorxu nəticəsində deyil, hörmət və sevgi nəticəsində yaranmışdır. Qədim Romalılar və yunanlar əcdadlarına ehtiramla yanaşır, ilahiləşdirir, onları mehriban, müqəddəs və bəxtiyar hesab edirdilər. Qədim Yunanıstan və qədim Romada da əcdadla bağlı inam və etiqadlar həm sevgi, həm hörmət, həm də qorxu xarakteri daşıyırdı (101, 1).

Əcdad ayini keçmişdə demək olar ki, Türk xalqlarının çoxunda geniş intişar etmiş, günümüzdə də mənəvi mədəniyyət sahəsində əsaslı yer tutmuşdur.

Qırğızlarda İslamdan öncəki dini inanclar sisteminə, bir çox qədim dini təsəvvür və bəzi kultlar daxildir. Bunlardan əsas və xüsusi yeri əcdad kultu və şamanizm elementləri təşkil edir. Sonraları İslamdan öncəki dini inanclar sisteminə daxil olan saysız qədim dini təsəvvür və kultların bir çoxu İslam dininin təsiri altına keçdi, bəziləri isə İslamlaşdı. Qırğızların mənəvi mədəniyyətində bu inanclar sistemi Oktyabr çevrilişinə qədər mühüm yer tuturdu. Keçmişdə zəngin ölmüş kişinin qəbrinə kəsilmiş bütöv qoyun, yoxsul kişinin qəbrinə isə arpadan hazırlanmış içki–"jarma" qoyurdular.

Araşdırmalarımız nəticəsində məlum olmuşdur ki, Şirvan bölgəsinin əksər rayonlarında ata – baba ruhuna hörmət XIX əsrdə mövcud olmuş və indiyə kimi də qalmışdır. Bunun bir təzahürünü kənd camaatının bayramlarda qəbiristanlığa gedib ata – babalarının ziyarət etməsi, ruhunu şad etməsi və Quran oxutdurmalarında görürük. Bölgədə geniş yayılmış ənənəyə görə Qara bayramda (ölülərin bayramı) "ölülərin gözünü yığmaq üçün" qazan asılar, bir neçə yemək növü, həmçinin plov da bişirilərdi. Bu ənənə qədim türklərdə "aş töreni" ve ya "ölü aşı" adlanır. Verilən məlumata görə, dəfn mərasimi və ölülər kultu ilə bağlı ən qədim və ibtidai adətlərdən biri "ölü aşı" deyilən adətdir. Bu gün mədəniyyətin yüksək dərəcəsinə çatmış millətlərin hamısında gördüyümüz ölüləri anma adəti ibtidai dövrlərdə ölülərə aş vermə adətinin təkamül etmiş şəklindən başqa bir şey deyildir (70, 189). "Ölü aşı" adətinin ən ilkin şəkli Tayqa ormanlarında qalmış olan şamanist boylarda müşahidə edilmişdir. Onların arasında elə qoca qarılar vardır ki, qoyunlarına, yaxud uşaqlarına bir xəstəlik gəldiyi zaman yemək və içki alıb, ərinin məzarına qoyar, "Ye, iç, bizə toxunma! Xain! Hələ doymadın" deyə bağırırlar (70, 189). "Aş törəni"ni ən qədim dövrlərdən bəri din ayrılıqlarına baxmadan bütün Türk millətləri davam etdirmişlər. Bu ənənənin ən ibtidai şəkli Altay oymaqlarında görüldüyü kimi dogurdan doğruya ölünün özünə aş – yemək vermək olmuştur (70, 192-193).

Şirvanda yalnız Qara bayramda ölünün adına aş bişirər,ölüləri ziyarət edərdilər. Bu ənənə müxtəlif mərhələlərdən keçərək, keçmişdən bu günümüzə qədər gətirilmiş, müasir günümüzdə də əməl edilən ənənələrdən birinə çevrilmişdir.

Türk xalqlarında "Aş – yoğ" mərasimi ümumiyyətlə ölünün birinci il dönümündə, yaz aylarında keçirilir. Kültəkin və Bilgə xaqanın aş mərasimləri də yaz aylarında keçirilmişdir. İbn Fədlanın verdiyi məlumata görə, Oğuzlar "ölü aşı" üçün yüzdən iki yüz başa qədər at kəsərlərdi. Bundan da aydın olur ki, Oğuz "aş mərasimi" nə qədər çox saylı bir mərasim olacaqdır (70, 193). Bölgədə mövcud olan özünəməxsus adət – ənənəyə görə ölülər üçün aş bişirilmə mərasimi çox saylı mərasim olmamışdır.

Türk xalqlarının mənəvi aləmində, dini təsəvvürlərində Günəş və Ay kultlarının ayrıca yeri vardır. Belə ki, xeyırxah kult hesab edilən Günəş və Ay kultları bir çox sənət örnəklərində geniş əks olunmuş mövzulardandır. Bölgənin bəzi rayonlarında astral təsəvvürlərlə bağlı inanclara müasir günümüzdə də rast gəlmək mümkündür. Arxeoloqların verdiyi məlumata görə əsasını səma cisimlərinə sitayiş təşkil edən bu təsəvvürlərin izlərinə Tunc dövrü abidələrində təsadüf olunur. Astral dini təsəvvürlər Günəşə, həmçinin digər səma cisimlərinə (Aya və ulduzlara) sitayiş formasında özünü göstərir.

Magiya – ilkin görüşlərin elə formasıdır ki, insanlar fövqətəbii qüvvələrin gücü ilə dünyaya (təbiət hadisələrinə, ruhlara, adamların əhval – ruhiyyəsinə, sağlamlığına) təsir etməyin yolunun tapılmasına inanırlar. Magiya hərəkətlə bağlıdır və xüsusi ayinlər şəklində yerinə yetirilir. Formalarının çoxluğu onunla şərtlənir ki, icmanın məişətinin bütün sahələrini öz əhatə dairəsinə alır. Onun XX əsrin 20-ci illərində B.K.Malinovski tərəfindən təsnifatı aparılmışdı. Azərbaycanda əsasən xəstəliklərin müalicəsi üçün yararlı sayılan ağ magiya həyata keçirilirdi (48, 1).

Qeyd etmək lazımdır ki, Şirvan bölgəsində xəstəliklərlə bağlı bəzi magik mərasimlər də keçirirdilər. Belə ki, Şamaxının bəzi kəndlərində xəstənin saç və dırnaqlarından xəmirə qatır, kiçik həcmli insan heykəli düzəldirdilər. Bundan sonra xəstənin köynəyindən bir parça kəsib, həmin heykələ bükür, qəbiristanlığa aparıb orada basdırırdılar. Bununla da guya xəstəliyi xəstənin canından çıxarmış olurdular.

Keçmişdə Şirvan bölgəsində totemlə bağlı inanclar da geniş intişar tapmışdır. Bunu arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi mədəniyyət abidələri də sübut edir. 1988-ci ildə Ağsu rayonunda Qırlartəpə abidəsində aparılmış arxeoloji qazıntılar zamanı ağ daşdan zərif yonulub düzəldilmiş qab tapılmışdır. Bu daş qabın ağzının kənarına yaxın hissəsindən iri batıq cızıqla çevrələnir. Cızıqların arasında maral, şir və zebu–öküz rəsmləri, habelə onların arasında cızılmış naxışlar aydın bilinir (57, 128). Adı çəkilən abidədən həm də dəmir gəm və at yüyəninin bəzək şeyləri tapılmışdır (57, 128).

Qeyd etməliyik ki, Ağsu rayonu ərazisində aparılmış qazıntı işləri zamanı üzə çıxarılmış abidələrin demək olar ki, əksəriyyətində at skeleti və ələhəsi tapılmışdır Bu yerli camaatın ata totemik baxımdan inancından irəli gəlir. Dəmir əşyalar xüsusilə, at nalı demək olar ki, bütün Şirvan bölgəsində bəd ruhları qorxudan, xoşbəxtlik xoşbəxtlik gətirən amil hesab olunurdu. Bundan başqa, at el arasında murad, mətləb və xoşbəxtlik rəmzi hesab olunduğu üçün məhz bu əqidənin təsiri altında at nalı da bolluq, bərəkət, xoşbəxtlik və göz dəymədən qorunmaq üçün əsas vasitə sayılırdı. Aparılan tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, keçmişdə, Ağsu, Şamaxı, İsmayıllı, Göyçay, Kürdəmir rayonlarında dükan və evlərin əksəriyyətinin astanasına at nalı vurulardı. Camaatın inancına görə evə və yaxudda dükana gələn bir bədnəzər şəxsin gözü nala sataşan kimi nal onun gözünə təsir edər, onun bədnəzəri isə zərərsiz olar.
Bölgədə bu inanclardan irəli gələn bəzi ayin və mərasimlər də icra olunurdu. Ümumiyyətlə, bölgə əhalisinin dini inanclar sistemində ata inam, ehtiram mühüm yer tutur.

Qədim Türklərin yaşayışında atın böyük rol oynaması dini inanclar sistemində də önəmli yer tutmasına səbəb olmuşdur. Arxeoloji araşdırmalar zamanı başçı qəbirlərində at adətən, avadanlıqla birgə basdırılmış vəziyyətdə tapılmışdır. Sənət nümunələrində əksini tapmış at əfsanəvi və mifoloji şəkildə ifadə olunmuşdur.

Şirvan bölgəsinin mənəvi mədəniyyətinin tədqiqi kökləri çox qədimlərə gedib çıxan müxtəlif məzmun və mahiyyətli xalq inamlarının özündə bəzi məsələlərinin ehtiva etdiyini göstərir. Bu yerlərdə dini inam və etiqadlar bir qayda olaraq məişət səviyyəsində fəaliyyət göstərmiş və həyatın bütün sahələrinə nüfuz etmişdir.

Müxtəlif istiqamətli xalq inamları Şirvan bölgəsi əhalisinin mənəvi dünyasında , məişətində daima əhəmiyyətli və ənənəvi, xüsusi səciyyə daşımışdır.
Məsələni kompleks şəkildə araşdırmamız bölgə əhalisinin məişətində və düşüncə tərzində əsrlərdən bəri dərin kök salmış xalq inamlarının zəngin mənəvi mədəniyyətə malik əhalinin təxəyyülü olduğunu bariz şəkildə sübut edir.

Şamaxı əhalisinin inamına görə hər bir ailənin özünəməxsus (həmin ailəyə düşən) qiymətli daş və metalı vardır. Bu sıraya əsasən, qızıl, gümüş, yaqut, almaz və s. qiymətli daşlar daxildir. Bu daşlar insanı pis gözdən, bədnəzərdən və xəta bəladan qoruyur. Bölgənin bəzi rayonlarında astral təsəvvürlərlə bağlı inamlara rast gəlmək mümkündür. Səma cisimlərinə sitayiş təsəvvürlərinin izlərinə Tunc dövrü abidələrində təsadüf olunur.

Yuxarıda göstərdiyimiz kimi astral dini təsəvvürlər müxtəlif səma cisimlərinə, günəşə, aya və ulduzlara sitayiş formasında özünü göstərir. Göyçay və Ağsu rayonlarında yaşlı qadınların verdiyi məlumata görə aya baxarkən mütləq salavat çevirmək lazımdır. Bu ənənə Şirvan bölgəsinin digər rayonlarında da–Şamaxı, İsmayıllı, Ağdaş və Kürdəmirdə geniş yayılmışdır.

Şamaxı rayonundakı Dədəgünəş piri Şirvan camaatının birbaşa astral təsəvvürlərilə bağlıdır. M.Nemətovanın verdiyi məlumata görə Dədəgünəş XII əsrdə yaşayıb – yaratmış şair və mütəfəkkir Əfzələddin Xaqaninin əmisi Kafiəddin Ömər ibn Osmanın ləqəbi olmuşdur. Dədəgünəş məşhur alim, təbib və filosof idi. Rəvayətə görə onu “Yerin və insanların günəşi” adlandırmışlar. Dədəgünəş kəndinin adı da onunla əlaqədardır (53, 108).

Şamaxı rayonunun Dədəgünəş kənd sakini, Dədə Günəş pirinin mücaviri Bağça Abdullayevanın verdiyi məlumata görə Dədə Günəş pirinə Azərbaycanın − Ağsu, Kürdəmir, Lənkəran və b. rayonlarından ziyarətə gələnlər olur (148).

Xalq inamları sırasına astral təsəvvürlərlə bağlı digər maraqlı inamlar da daxildir. Camaatın inamına görə ay kişi, günəş qadındır. Bir dəfə ayla günəş mübahisə edirlər. Mübahisə onlardan hansının gündüz, hansının gecə çıxmasından ibarət olur. Ay günəşə deyir: “Sən qadın olduğun üçün çıxmağın eyibdir, səni kişilər görə bilər.” Lakin günəş deyir: “Mənə baxmaq çətin olduğu üçün bu mümkün deyil.” Bundan sonra günəş gündüzlər çıxmağa başlayır. Astral təsəvvürlərlə bağlı digər inam ayla bağlıdır. Şamaxılıların inamına görə ayın üzərindəki ləkə anasının onun üzünə atdığı xamırın ləkəsidir. Deyilənə görə bir dəfə ayın anası xəmir yoğururmuş

Anasının onu məzəmmət etməsinə baxmayaraq ay yenə də nadinclik edir, anasına mane olurmuş. Bundan hirslənən ana ayın üzərinə bir parça xəmır atır, o zamandan ay üzündəki xəmır ləkəsini hələ də yuyub təmizləyə bilmir (120, 206).

Ümumiyyətlə, Şirvan əhalisinin mistik təsəvvür və inamlarında ay, günəş və ulduzlarla bağlı bir xeyli sınamalar və inanclar var. İnama görə günəşin və ayın tutulması, quyruqlu ulduzun çıxması yaxınlaşan bədbəxtlikdən xəbər verir.
Günəşin və ayın tutulmasının əsas səbəbi yerdə insanların işlətdikləri günaha görə allahın onlara qəzəblənməsindən irəli gəlir. İnama görə günəş tutulması zamanı insanlar mütləq süni səs − küy salmalıdırlar: Qaval çalır, dəyənəklə mis qablara vurur və evlərinin damına çıxıb silahdan atəş açırdılar. Onlar belə hesab edirdilər ki, bu səslərlə günəşi və ayı "tutub saxlayan" qüvvələri qorxudacaqlar. Və nəticədə bu qüvvələr günəş və ayı buraxıb qaçacaqlar. Günəşin tutulması başa çatdıqdan sonra insanlar Allaha dua edirdilər. Digər bir inama görə günəşin və ayın tutulması iki ölkə arasında müharibənin başlanmasına səbəb olacaqdır.

Günəşin, ayın tutulması ilə bağlı mifoloji inam və təsəvvürlər Azərbaycanın Şirvan bölgəsindən başqa demək olar ki, müasir Türk xalqlarının məskunlaşdıqları bütün ərazilərdə mövcud olmuş, həmçinin fərqli yönləri ilə seçilmişdir:
"Türk kosmoqonik görüşlər sistemindəki Günəş və Ayın yaradıcı funksiyası köhnə Türk miflərindən nağıla keçməsi zamanı da qorunmuşdur. Türklər astral varlıqlara əhəmiyyət verir və bu varlıqların ulu Tanrı tərəfindən yaradıldığına inanırdılar.
Türk inanc sistemindəki inamlardan biri də belədir; Ay və Günəşin qaralması onların önünə mələklərin qanad tutmaları ilə olur. Bu mələklərin Tanrı tərəfindən göndərildiyinə inanan Türklər sözü keçən qaralmaların döyüşə işarə etdiyinə inanırdılar" (65, 133).
Altaylar, xakaslar, tuvalar və yakutların şaman törənində dəf, qaval (tüngür) önəmli yer tuturdu. Cənubi Sibirdə də şamanların qavalları çox fiqurlu kompozisiyadan ibarətdir. Bu qəbildən olan şaman qavallarını nəzərdən keçirərkən astral təsəvvürlərlə bağlı məlumatlara (çəkilmiş rəsmlər əsasında) rast gəlmək olar. Qavalın birin-

ci üz tərəfindəki rəsm iki hissəyə ayrılır: böyük yuxarı və kiçik aşağı. Kənar hissələrində aralarında ziqzaqlı ikili xətt gedir. Yuxarı hissədə günəş, ay, sabah ulduzlu Venera, axşam ulduzu, günəşi ve yeri birləşdirən göyqurşağı rəsimləri çəkilmişdir (114,140). Türk xalqlarının mənəvi aləmində, dini təsəvvürlərində Günəş və Ay kultlarının ayrıca yeri vardır. Xeyirxah kult hesab edilən Günəş və Ay kultları bir çox sənət nümunələrində geniş yayılmış mövzulardan biridir. Türk dərgilərini nəzərdən keçirərkən belə nəticə hasil olur ki, kosmoqonik inamlar Azərbaycan, ümumiyyətlə, Türk xalqlarının xalq inam və etiqadları sistemində mühüm yer tutmuş, nəinki etnoqrafiya, hətta folklor mətnlərində də öz geniş əksini tapmışdır:

"Kultlaşmış astral varlıqların (Günəş, Ay və s.) Türk inam sistemindəki əhəmiyyətini və Türk həyat tərzinə göstərdiyi təsiri ortaya qoymağa çalışaraq, belə qənaətə gəlmək olar ki, günəş, ay və ulduzlar, o cümlədən göylər aləmi − astral sfera ilə əlaqədar bütün ünsürlər və onlarla əlaqədar astral hadisələr Türk mifologiyasında, inanclar sistemində bu və ya digər səkildə öz əksini tapmışdır. Astral − mifoloji tiplər hər şeydən əvvəl kosmoqonik inanclarla əlaqədar olmuşdur. Başqa sözlə, qədim Türklərin yaranması haqqındakı təsəvvürlər birbaşa astral elementlərlə əlaqədar olmuşdur. Mifoloji təsəvvürlər inkişaf etdikcə astral tiplər ətrafında kult (pərəstiş sistemi) qurulmuş və bu da öz əsnasında inancların daha da zənginləşməsi ilə birgə, onların Türk düşüncə sistemindəki rolu və funksiyasını da çətinləşdirmişdir. Türk cəmiyyətinin inkişaf tarixi boyunca mifoloji təsəvvürlərdə çox ciddi dəyişmələr olmuş, tanrıçılıq İslam və digər monoteist dinlərlə əvəz olunmuşdur. Bu halda astral kultlarla bağlı inamlar aktual ideologiya əhəmiyyətini itirərək folklor mətnlərinə çevrilmişdir. Bu isə öz növbəsində Azərbaycan folklorunun təbiət kultları, o cümlədən astral kultlarla bağlı inamlarının öyrənilməsindəki rolu və önəmini bir daha bəlli etməkdədir" (65, 141-142).

Dadalı Türkmənlərində, günəşdən sonra, günəş batdıqdan sonra, quşlar yuvaya dönən vaxtında dəfn olmaz, sabahı günə saxlayarlar. Bənzər bir çox işlər də təxirə salınır. Bu saatlarda tikiş tikmək, saqqız çeynəmək olmaz. Bu inanclar Anadolunun

digər yerlərində də yaşamaqdadır. Günəşin batma vaxtına dar vaxt deyilir. Bu saatdan sonra yerlərin bağlandığına inanırlar (71, 6).

Ümumiyyətlə, günəş və ayla bağlı xalq inam və etiqadları nəinki Şirvan bölgəsində, demək olar ki, Azərbaycanın əksər bölgələrində dini amillərdən doğan bir etiqad hesab olunur. Verilən məlumata görə, qayalarda (Qobustan) qayıqların burun tərəfində çəkilmiş günəş şəkli, günəşin təsviri ona sitayişlə bağlıdır (6, 82).

Qeyd olunmalıdır ki, astral təsəvvürlər və onunla bağlı olan maraqlı xalq inamları təkcə Şirvan bölgəsi və Azərbaycan üçün səciyyəvi olmayıb, digər xalqlar üçün də səciyyəvi olan din – ideoloji məsələ hesab olunmuşdur: buryatların gerbinin yuxarı hissəsində şar şəkilli günəş, günəşin aşağı hissəsində böyrü üstə uzanmış ay rəsmi diqqəti cəlb edir (86, 11). Slavyan xalqlarında keçmişdə formalaşmış xalq inamına görə, günəşin və ayın tutulması canavarın onları yeməsi ilə əlaqədardır. Onlar günəşin və ayın tutulmasını canavarla bağlayırdılar.

Şirvan əhalisinin inamına görə axan (və ya düşən) ulduz yer üzündə hansısa insanın həyatla vidalaşmasından xəbər verir. Belə ki, inama görə yer üzündəki hər bir insanın göydə öz bəxt ulduzu, həyat ulduzu vardır. İnsan öləndə onun göydəki ulduzu da ölür və yerə düşür. Bölgədə göy qurşağı bolluğun, bol məhsulun göstəricisidir. İnama görə hansı ildə tez – tez göy qurşağı görünərsə həmin il bol məhsul olacaq, insanlar bol məhsul götürəcəklər.Yaşlı qadınlar isə göy qurşağının rənglərini qarı nənənin ceciminin rəgləri hesab edirlər. Elə ki, göy qurşağı çıxdı, kənd qadınları deyirlər ki, qarı nənə cecimin iplərini uzatdı. Ümumiyyətlə, insanlar təbiətin bütün şıltaqlıqlarını Allahın qüdrəti və əzəməti ilə bağlayırdılar (38, 206-207).

Bölgənin xalq inamları sferası yalnız astral təsəvvürlərdən ibarət deyildir. Xalq inamları sferasına müxtəlif qəbildən olan inam və təsəvvürlər daxildir.

Camaatda belə bir inam vardır ki, qaranlıqda həyətə isti su tökmək olmaz, inama görə bilmədən cin balalarını yandıra bilərlər, bu da nəticədə onların insanlardan qisas alması ilə nəticələnər.

Qeyd etmək yerinə düşərdi ki, bölgə əhalisinin ağac və meşə ilə bağlı inamları sırasında qoz ağacı mühüm yer tutur. Camaatın inancına görə qoz ağacının altında və budaqlarında ziyanverici ruhlar məskən salmışdır. Bu səbəbdən də qoz ağacının altında yatmaq olmaz, günəş çıxanda və batanda da ağacın altında durmaq qadağandır. Ağsu kəndlərində apardığımız etnoqrafik müşahidələrə görə qoz ağacının altına və ətrafına isti su tökmək olmaz.Ümumiyyətlə bölgə kəndlərində hökm sürən inama görə qoz ağacını əkib çoxaltmaq olmaz.

Bölgə əhalisinin inam və etiqadlarında heyvanlarla bağlı müxtəlif arxaik təsəvvürlərə və bundan doğan xüsusi münasibətə şübhəsiz ki, dövrümüzdə də təsadüf olunur. Bu inam və təsəvvürlərdə daha çox ilanla bağlı məsələlər öz əksini tapmışdır. Ümumiyyətlə, etnoqrafik ədəbiyyat ilanla bağlı inamları və bu istiqamətdə əks olunmuş səciyyəvi özünəməxsusluqları görməyə, öyrənməyə imkan verir:
...İlana da müqəddəs heyvan kimi sitayiş olunmuşdur. Camaatın inamına görə, hər bir evin (ailənin) öz ilanı var və bu ilan ailə üzvlərini şər qüvvələrdən qoruyur.
İlanlı pirlərin mövcudluğu, xalça naxışlarında ilan təsvirləri qədimdə ilanların müqəddəs sayıldığını sübut edir. Qədim totemi təmsil edən, həm də məhsuldarlıq rəmzi olan müxtəlif heyvanlara aid təsvirlər, insanların arxaik təsəvvürlərinə görə, həm həyatda, həm də axirət dünyasında şeytanlardan mühafizə vasitəsi sayılırdı(3, 409). Yeri gəlmişkən, Şirvan bölgəsində elə pirlər, ocaqlar vardır ki, ilin bütün fəsillərində ilanlar bu pirlərdə dolaşır. Xalq inamına görə isə bu ilanlar elə həmin pirin özünün ilanlarıdır.

Tədqiq olunan bölgənin istər yaşlı, istərsə də gənc nəsli göyərçini həmişə müqəddəs hesab etmişlər. Bu inanc və etiqad Şirvan bölgəsində qədimdə və indi də mövcud olmuşdur. Şirvan camaatı göyərçini aydınlıq, sülh və həyat rəmzi hesab etmişlər. “El içində belə bir sınama da var: “Gec dil açan uşağa göyərçin yumurtası yedizdirsən, tezliklə danışar”. Uşağın dil açıb danışmasında əsas rol oynayan onun anasıdır. Bəs necə olur ki, göyərçin yumurtasındakı güc bu qüvvəni üstələyir.
Məsələ burasındadır ki, bu sınama insanların göyərçinə olan etiqadları nəticəsində

yaranmışdı. Ta əski çağlardan başlayaraq göyərçini nəinki ovlamaq, hətta ona daş atmaq, yuvasını dağıtmaq yasaq olub. Əks halda göyərçinin qarğışından fəlakət törəyə bilər.Yenə də etiqada görə müqəddəs bilinən, toxunulmaz sayılan, yuvasının dağılması ilə küsməsi, bununla da bədliyin başlanğıcı düşünülən göyərçin guya elə qadındır, anadır“ (3, 382).

Xalq inam və etiqadlarında təbiətdəki varlıqlara, xüsusən də bitki və heyvanlara münasibət çox çeşidli olmuşdur. Bunların bəzilərinə uğur, xeyir gətirən kimi baxılmış, bəziləri isə zərər, şər rəmzinə, simvoluna çevrilmişdir.

XIX və XX əsrin əvvəllərində bölgənin demək olar ki, hər bir kəndində, şəhərində xalq inamları sferasına, sırasına müxtəlif məzmunlu ovsun və fallar daxil olmuş, məişət və mənəvi mədəniyyətinin din − ayinlər və mərasimlər sahəsində önəmli yer tutmuşdur. XIX əsrə aid ədəbiyyat materiallarını nəzərdən keçirərkən Şamaxıda qadınların ovsun və fala inandıqlarını və bu məqsədlə falçıdan istifadə etdiklərini aydınlaşdırmaq olar: “Şamaxıya ətraf kəndlərin birindən falçı gəlmişdi. Övladı olmayan qadınlar kömək məqsədilə ona müraciət edirdilər. Falçı da bu məqsədlə onlara öz məsləhətini verirdi. Gələn qadınlar ilk növbədə ona beş qəpiklik pul verməli idilər, belə ki, pulsuz ruhlar falçıya heç bir məlumat vermirlər. Falçı pulları balışının altına qoyub yatırdı və yuxuda ona övlad arzu edən qadının övladı olub − olmaması əyan olurdu. Falçılar bəzən onlara müraciət edən xəstələrdən lazımı duanı toyuğun qanı ilə elə həmin toyuğun sümüklərinə yazılması üçün qara toyuq tələb edirdilər. Hətta, falçılar bu məqsədlə varlı xəstələrdən duanın qoyunun kürək sümüklərinə yazılması üçün ətinə bıçaq dəyməmiş qoyun tələb edirdilər. Belə ki, dua üçün tələb olunan qoyun bütöv olmalı idi” (120, 212- 213).

Kürdəmir, Şamaxı, İsmayıllı, Göyçay rayonlarında gözdəymə, bədnəzər, ovsun və bunlarla bağlı qorunmaq vasitəsi kimi icra olunan xüsusi mərasimlər xalq inamları əhatəsinə daxil idi. Bölgədə uzun əsrlər boyu formalaşmış inama görə bəzən “göz dəymədən” qorunmaq üçün tüstülənən üzərliyi “göz dəymiş” adamın başının üzərində üç dəfə hərləyib atır və lazımi sözləri deyirlər.

Ağsuda isə mövcud inama görə “göz dəymədən” qorunmaq üçün icra edilən mərasimdə yalnız duz və üzərlikdən istifadə edirdilər. Bunun üçün duz və üzərliyi “zərərçəkmiş”in başı üzərində hərlədib, ocağa atardılar. Şamaxı camaatının xalq inamları sferasında da “göz dəymə” ilə bağlı bəzi inamlar vardır. Ümumiyyətlə, xalqın inam və təsəvvürlərində belə bir fikir formalaşmışdır ki, bəzi ailələrdə “göz dəymə” irsi xarakter daşıyaraq, valideynlərdən uşaqlara keçir. İnama görə, bəzi hallarda bütöv bir evə belə göz dəyə bilərdi. Belə ki, ev sahibi öz uşaqlarını göz-dəymədən qorumaq üçün başmaqlarının altından torpaq götürür, suda həll edir və uşaqlarının bədənlərinin müxtəlif hissələrinə sürtürdülər (120, 211-212).

Rus mənbələrində verilən məlumata görə gözdəymədən və xəstəliklərdən qorunmaq üçün bölgə əhalisi öz boyunlarından və sevimli atlarının boyunlarından Qurandan yazılmış ayələr asırdılar (87, 460).

Qeyd edildiyi kimi əkinçilik və maldarlıq, sənətkarlıq bölgə əhalisinin başlıca məşğuliyyəti sayılmış, bağçılıq və üzümçülük, arıçılıq kənd təsərrüfatının əsasını təşkil etmişdi. Məlumdur ki, bölgə əhalisinin mənəvi mədəniyyət sistemində formalaşan xalq inamları əsasən əhalinin təsərrüfat fəaliyyəti ilə bağlı olmuşdur. Bəzi xalq inamları isə çarəsizlikdən və ümidsizlikdən yaranmış, bu inam və etiqadlarda insanların fövqəltəbii qüvvələrin gücünə, təsirinə inamı ifadə olunmuşdur.

Şirvan əhalisinin tarixən başlıca məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur, bu isə təsərrüfatın bəzi sahələri ilə bağlı xalq inamlarının, xüsusən, maldarlıqla bağlı bəzi inamların təcəssüm etməsinə gətirib çıxarmışdır. Bu qəbildən olan inamlar sırasına heyvandarlıqla bağlı ovsun və mərasimlər daxildir. Şirvan bölgəsində çöldə qalmış və tapılmayan ev heyvanlarının qurda – quşa, canavara yem olmaması üçün yırtıcı heyvanların ağzını bağlamaq üçün xüsusi ovsun mərasimi icra olunurdu. Bölgənin bir çox yerlərində bu məqsədlə ağzı açıq bıçağa “qurd ağzı” ovsununu oxuyub, bıçağın ağzını bağlayırdılar. Heyvan tapılmayana qədər bıçağın ağzını açmamalı idilər. Əks halda ovsun öz təsirini itirərdi. Ovsun mərasimi zamanı mahnısayağı sözlər deyilirdi.

İnsanlar bu ifadələrdə sehirli güc hiss edir, onun təsir gücünə inanırdılar. Mərasim zamanı "qurd ağzı" deyilən ovsun xüsusi əhəmiyyət kəsb edir.

Şamaxı rayonunda mərasim zamanı "qurd ağzı" ovsununu tək – tək adamlar bilir və icra edirdilər. Şamaxıda şifahi xalq yaradıcılığında "qurd ağzı" ovsunu müxtəlif cürə oxunurdu:

Aslan ağızlı Qurd,
Qaflan ağızlı
Qurd,
Ağ qurd
Qara qurd
Boz qurd
Bozurd qurd.
Gözüvə
Pərdə gəlsin.
Dilin
Dərdə gəlsin.
Cənglərin
Qurusun.
Ağzın
Qapansın.
Ağzıva qara
Qıfıl vurdum.
Yolunda
Tələ qurdum.
Tuşladım
Qara gülləni
Sənə.
Babam kiriş

Pay göndərib mənə.

Nənəni kirişlədim.

Atəşpərəstliyin qədim izləri Şirvan bölgəsində hələ də qalmaqdadır.Bu izlər bəzən, bilavasitə heyvandarlıqla bağlı olub, şifahi xalq yaradıcılığında bəzi xalq inam və etiqadlarının təcəssüm etməsinə gətirib çıxarmışdır. Belə ki, Novruz bayramı ərəfəsində və bayram günü maldarlar ilin ruzili, bərəkətli keçməsi üçün öz heyvanlarını qoşa tonqal arasından keçirir, özləri də tonqal üzərindən atılırdılar. Etnoqrafik müşahidələr göstərmişdir ki, Şirvan ərazisində ümumi heyvandarlıqla bağlı olan xalq inamları çox – çox əvvəl təşəkkül tapıb formalaşmışdır.

Heyvandarlıqla bağlı xalq inamları sırasına süpürgə ilə də bağlı sınamalar da daxildir. Süpürgə ilə bağlı olan inamların Şirvan zonasında qeydə alınan başqa bir variantında qeyd edilir ki, heyvanları həyətdən uzaqlaşdırarkən, onları örüşə qovarkən süpürgə ilə vurmaq yaramaz;bu hal həyət bərəkətinə süpürgə çəkmək kimi qiymətləndirilir (38, 231).

At ta qədimdən Şirvan əhalisinin təsərrüfat həyatında mühüm yer tutmuş, müsbət məziyyətlərinə görə onların şuur və təsəvvürlərində müqəddəs heyvan obrazı kimi formalaşmışdır. Demək olar ki, at bölgənin hər bir guşəsində insanların məişət və mənəvi mədəniyyətində, inam və etiqadlarında yüksək təsir gücünə malik olmuş, onların dünyagörüşündə müqəddəs və mifoloji obrazın yaranmasına səbəb olmuşdur. Məlumdur ki, bütün Türk xalqlarının dini inamlar kompleksində atla bağlı inamların müstəsna rolu, müstəsna əhəmiyyəti olmuşdur. Qədim Türklərin həyatında atın böyük rolu dini inanclar sistemində də əhəmiyyətli yer tutmasına səbəb olmuşdur. Arxeoloji araşdırmalar zamanı başçı qəbirlərində at adətən, avadanlıqla birgə basdırılmış vəziyyətdə tapılmışdır. Ayrıca sənət nümunələrində at əfsanəvi və mifoloji şəkildə ifadə olunmuşdur. Keçmişdə Qırğız toplumunda qəbir yanına uzun ağac parçasına mərhumun ən sevimli atının quyruğunu bağlamaq adəti mövcud idi. Belə ki, ağac parçasına bağlanmış at quyruğu xüsusi qoruyucu kult təsiri yaradırdı (64, 52). Tədqiqatlar göstərir ki, bu dövrdə Şirvan bölgəsi əhalisinin

xalq inamları sistemində at xüsusi, həyati əhəmiyyətli varlıq hesab edilmiş, ata müqəddəs obraz kimi həmişə böyük diqqət yetirilmişdir. Zəngin tarixi ənənələrə malik Şirvan torpağının inam və etiqadlar kompleksində at nalı da müqəddəs hesab edilmiş, evin və həyət – bacanın pis nəzərlərdən, gözdəymədən "qoruyucusu" rolunda çıxış etmişdir.

Türk xalqlarının qədim tarixinə aid zəngin maddi mədəniyyət tapıntıları içərisində at nalı əhəmiyyətli yer tutmaqdadır. Belə ki, at qıpçaqların həyatında əhəmiyyətli yer tutduğu üçün at nalı da müqəddəs hesab edilmiş və əsasən gözdəymədən mühafizə vasitəsi kimi istifadə olunmuşdu. Arxeoloji qazıntılar əsasında da qıpçaqların dəfn adətlərində atın əhəmiyyətli yer tutması haqqında müəyyən təsəvvür meydana gəlir. Arxeoloqlar açılan qəbirlərdə mərhumla birgə atının da öldürülüb dəfn edilməsinin dəfələrlə şahidi olmuşlar.

Bölgədə xalq inamına görə, Su çərşənbəsində süfrəyə su qoymaq lazımdır. Qədim xalq etiqadlarına əsasən, bu gündə evdən özgəyə su vermək yaxşı əlamət sayılmır. Əhalinin əsrlər boyu inandığı və dəfələrlə sınaqdan keçirtdiyi inanca görə, Novruz çərşənbələrində evdən bərəkət sayılan nemətlər – duz, od, çörək, su vermək olmaz. Belə ki, inama görə bu vaxtlarda adı çəkilən nemətlər evdən çıxarsa həmin evdən ruzi, bərəkət əksilər.

Şirvan ərazisində qədim tarixə malik olan və el arasında geniş yayılmış mərasimlərdən biri də Xıdır İlyas və ya Xıdır Nəbi adlandırılan bayram mərasimi və bununla əlaqədar olaraq yaranmış inamlar məişətdə xüsusi yer tutur. Belə ki, bayramda buğda qovrulub, üyüdülür, qovut hazırlanardı. Bayram axşamı qovutdan çəkib, evin bir küncünə qoyardılar. Şirvan camaatının inamına görə gecə Xıdır Nəbi gəlib qovutun üstünə əlini basardı, bununla da il boyu evdə bolluq, bərəkət yaranardı. Şirvan əhalisi bayramda Xızır peyğəmbərə olan inamını dilə gətirərək "Xızır Ilyas haqqı", "Xızıra and olsun" deyə and içir, "Xızır payını versin", "Xızır köməyinə yetsin", "Xızıra rast gələsən" deyə alqış edərdilər.

Lahıcda xalq inam və etiqadları içərisində sınamalar insanların qədim dini təsəvvürlərindən biri olmuşdur, demək olar ki, hələ də onların şüur və düşüncə sistemində qalmışdır. Lahıclıların təsəvvürünə görə bəzi sınamalar və bununla bağlı olan mərasimlər onların arzularının həyata keçməsinə kömək edə bilər. Belə ki, Lahıc camaatının məişət və mənəvi mədəniyyətində çoxdan formalaşan inamına görə əgər ev sahibi səyahətə yollanarsa və ya qonaq gedərsə, tez və sağ – salamat geri qayıtması üçün sadə bir mərasim icra edirdilər: torpağa kəskin iynə sancardılar

Burada xalq inamından irəli gələn və sınama xarakteri daşıyan başqa bir sadə mərasim də icra olunurdu: uzaq səfərə gedən ailə üzvlərindən birinin sağ – salamat və tezliklə geri qayıtması üçün arxasınca su atır və ya güzgü tuturdular (83, 355).

Oda sitayiş qədimdən Şirvan camaatının dini inanclarında mühüm yer tutmuş, müxtəlif inam və mərasimlərin yaranmasına rəvac vermişdir, bu inam və mərasimlər indiyə qədər də qalmışdır. Hazırda Şirvan bölgəsində hər bir kənddə, hər bir evdə od, ocaq müqəddəs hesab edilir, ocaq haqqı deyə and içərlər. Keçmişdə mövcud olmuş inama görə oda hörmət əlaməti olaraq odu söndürmək və külünü atmaq olmazdı.

İnformatorun məlumatına görə Ağsuda insanların şüurunda odun, ocağın üzərinə isti su tökməyin yasaqlandığı hələ də qalmaqdadır. Bu hal həmin ailənin ruzi – bərəkətinə, bolluğuna və rifahına mənfi təsir edə bilərdi (140).

Keçmişdə Azərbaycanda, Türkiyədə və onun ətraf bölgələrində xəstəlik, müvəffəqiyyətsizlik, mənfi xarakterli və əksinə möhkəmlik, müvəffəqiyyət, uğur, yaxşılıq kimi xüsusiyyətləri daşıyan dini, sehirli bir qüvvənin kult varlığına inanılırdı. Mənşə və mahiyyətinə görə fərqli cəhətlərlə seçilən bu “qüvvət” inamı insanlar tərəfindən acizlikdən uydurulmuşdur.

Bəddua ifadələri də acizlikdən meydana gəlmişdir.

Toplanan məlumatlara əsaslanaraq söyləyə bilərik ki, nəzər, nəzərdən qorunmaq vasitəsi ilə əlaqədar olaraqTürkiyə türkləri ilə Azərbaycan türkləri (Şirvan bölgəsi) arasında bənzərliklər mövcuddur. Nəzərdən qorunmaq üçün “Nəzər duası” yazılır.

Bu dua uşağın boynuna asılır. “Nəzər daşı” isə uşağın sinəsinə və ya çiyininə tikilir (72, 70).

Şirvan Azərbaycanın ən qədim məskənlərindən biridir. Bu məkanın dini inanclar, xalq inamları məsələlərini hərtərəfli tədqiq etməkdən ötrü mütləq dini dəyərlərin yarandığı zamanlardan başlamaq lazımdır. Bu səbəbdən Azərbaycan tarixində yaranan ilk dini dünyagörüşün, xalq inamlarının yaranma səbəblərini və bu dinlərin sayəsində müxtəlif zamanlarda ölkəmizdə yaradılmış dini memarlıq abidələrindən söhbət açılmalıdır.

## 2. İslam və onun lokal xüsusiyyətləri

İslamın ilk dövrlərindən başlayaraq Azərbaycan, o cümlədən Şirvan torpaqları da ərəblər tərəfindən zəbt edilmişdi. Vaxt keçdikcə İslam dini yerli əhali tərəfindən könüllü olaraq qəbul edildi. Belə ki, ilkin ərəb yürüşləri keçirilərkən Quzey, Güney Azərbaycan torpaqlarında köklü sosial – siyasi – mənəvi sarsıntılar yapılması nəzərdə tutulmurdu. Ərəblər hələ yerli dini görüşlər üzərinə barışmaz yasaq qoyub İslamın sözsüz qəbul edilməsini tələb etmirlərdi. Ələ keçirilən bölgələrdə onlar ilk öncə Xilafət ağalığını hərbi – siyasi baxımdan qəbul etdirmək, bir də yendirilən xalqı torpaq (xərac) və can vergisi (cizyə) ödəməyə məcbur etmək istəyirdilər (2, 132). Lakin zaman keçdikcə bəşəriyyətin ən mükəmməl və sivil dini olan İslam dini Azərbaycanda geniş intişar tapmış, əsrlərin mədəni mərhələlərindən ta bu günümüzədək istər məişət, istər mənəviyyat və istərsə də mədəniyyət sahəsində əsaslı yer tutmuşdu.

Tədqiq olunan bölgənin XIX-XX əsrin əvvəllərində dini təsəvvürlər və dini dünyagörüş dairəsi bəzi spektrlər və səciyyəvi cəhətləri ilə müşahidə olunur.

Göstərilən dövrdə Şirvan camaatı İslam dininin demək olar ki, bütün qayda və qanunlarına əməl edirdi. Toplanılan materiallar əsasında belə qənaətə gəlmək olar ki, İslam dini əhalinin həyatına əsaslı şəkildə nüfuz etmiş, müəyyən həyat tərzini formalaşdırmışdır. Hər bir müsəlmanın beş əsas vəzifəsi vardır ki, bu vəzifələr müsəlmanın bütün həyatını idarə edən əsas prinsiplər hesab olunmalıdır: Vahid Allaha inam, namaz, oruc, həcc, zəkat. İslam dinində iman gətirməyin birinci əsas hökmü Allaha inanmaqdır. Bir yeganə allaha iman– "la ilahə illəllah" düsturu şəklində ifadə edilir. Əsas ehkamlar Quranın iki ayəsində ifadə edilmişdir: "Siz ey dindarlar! Allaha inanın, onun rəsuluna inanın, öz rəsuluna nazil etdiyi kitaba inanın, daha əvvəlcə nazil etdiyi kitablara inanın; kim Allaha inanmırsa, onun mələklərinə, onun kitablarına, onun rəsullarına və axirət gününə inanmırsa, çox dərindən səhv edib yolunu azmışdır" (42, 14). "Namaz dinin dirəyidir" – demişdir Həzrəti Məhəmməd. İslam yer üzündə Allahın hökmranlıq şəraitini yarada bilmək

qayğısı ilə hər gün beş dəfə namaz qılmağı əmr etmişdir. Gündə beş dəfə namaz qılmaq müsəlmanlara Həzrəti Peyğəmbərin Allah qatına yüksəlişi (merac) sırasında fərz qılınmışdır. Belə ki, gündəlik beş dəfə qılınan namaz ən başlıca və ən məcburi bir vəzifədir (42, 14).Bir möminin ikinci dini vəzifəsi hər il bir ay surətilə oruc tutmaqdır. Oruc, digər dinlərdən olanlar üçün çox çətin görünən, olduqca sərt bir vəzifədir, ancaq əgər yaxşı niyyətli olarsa yüz illərin təcrübəsinin sübut etdiyi kimi, dinə yeni girənlər belə buna çox az bir zamanda alışırlar. Oruc tam bir ay sürər.

Oruc tutulan Ramazan ayının sıra ilə ilin bütün mövsümlərinə: payız, qış, bahar və yay aylarına tən gəlir. Qaydaya görə Ramazan ayında hər bir müsəlman 30 gün ərzində sübh tezdən gün batana qədər heç nə yeməməli, heç nə içməməlidir (42, 15).

Həcc söz olaraq həm (Rəbbə doğru) yönəlmə hərəkəti, həm də bir şeyə sahib olma cəhdi mənasına gəlir. Həcc müsəlmanın dini vəzifələrindən üçüncüsüdür. Allahın evini ziyarət asanlıqla izah edilir: İnsan itaətkarlığını göstərmək üçün oraya nöqsansız bir hörmət və ciddiyət ilə gedər. Kəbədəki Qara Daş bir göy daşı deyildir, əksinə, qara rəngli bir daşdır. Onun praktik faydası Allahın evi olan Kəbə ətrafında kı dönmələr (tavat) üçün başlanğıc nöqtəsi olmasıdır (42, 15). Bu səyahəti edəcək, maddi imkanlardan yoxsul olanlar isə həccdən azaddırlar. Zilhiccə ayında başlanan Həcc mərasimi zamanı ziyarətçilər ibadət sırasında normal paltarlarını çıxardır, ağ paltar geyinirdilər. Yuyunub pak olduqdan sonra Kəbə ətrafında dövrə vurur, Zəmzəm çeşməsindən su içirdilər. Həzrəti Peyğəmbər və ilk dörd xəlifə dövründə İslam dövlətlərində müsəlmanlardan zəkatdan başqa alınan vergi yox idi. Bu ödəmələrin əhəmiyyətini möminlərin ağıllarına yaxşıca yerləşdirmək üçün Həzrəti Peyğəmbər bunların da Allahın birliyinə iman, namaz, oruc və ya həcc kimi ibadətlərlə bərabər dəyərdə dini bir vəzifə və ilahi bir əmr olduğunu bildirdi. Zəkat əmlak və gəlirdən tutulan vergi idi. Beləliklə, təsərrüfat, məhsullar, ticarət, otlaqlarda otlayan heyvan sürüləri, mədənlər, dəniz məhsulları və s. zəkata tabedir (42, 15).

Gündə beş dəfə namaz və illik orucdan ayrı olaraq müsəlmanların bəzi ibadətləri də etmələri əhəmiyyətli sayılırdı. Bu ibadətlərdən ən əhəmiyyətlisi Quranı davamlı

oxumaq və yazılanları gündəlik həyata keçirmək idi (42, 15).
XIX-XX əsrin əvvəllərində Şirvan bölgəsinin əhalisi də bu əsas prinsipləri bilir, özlərinin mənəvi borcu və vəzifələri hesab edir, yetərincə onlara əməl etməyə çalışırdılar. Bölgədə evlənmə və ölüm hallarında da İslam dininin adət və mərasimlərini davamlı olaraq müşahidə etmək olar. Bölgədə hər bir kəndin böyük nüfuza malik mollası olurdu. Evlənmə zamanı nikah mollalar tərəfindən kəsilirdi.
Şirvan bölgəsinin yas mərasimlərində də İslam dininin səciyyəvi özünəməxsusluq cizgilərini görmək olar. Ölüm döşəyində olan hər bir müsəlman kəlimeyi – şəhadətini oxumağa çalışacaqdır: "Şəhadət edirəm ki, Allahdan başqa Allah yoxdur. Yenə şəhadət edirəm ki, Məhəmməd Allahın qulu və Rəsuludur". Ətrafındakı insanlar o can verərkən kəlimeyi − şəhadəti yüksək səslə oxumağa başlayırlar. Cənazə dəfindən əvvəl yuyulur.Üzərindəki paltarlar çıxarıldıqdan sonra üç hissə bez ilə kəfənlənir. Bədəni yumaq üçün ilk səfərində sabunlu su, ardından ikinci səfərində sabun izlərini yox etmək üçün şəffaf su tökülür. Üçüncü dəfəsində də bütün vücuda kamforlu su tökülür. Kəfənlənib hazırlandıqdan sonra cənazə namazı qılınır. Dəfn üçün mümkün olduğu qədər Məkkəyə paralel olacaq şəkildə qazılır. Ölünün üzü Kəbəyə dönmüş şəkildə olmalıdır, başı isə azca sağ tərəfə çevrilməlidir (42, 15).

Bütün Yaxın və Orta Şərqdə olduğu kimi, Azərbaycanda, o cümlədən Şirvan bölgəsində də İslam dini ictimai – siyasi həyatda mühüm rol oynayırdı. XIX-XX əsrin əvvəllərində Şirvan bölgəsində fəaliyyət göstərən mədrəsələr təhsil, təlim və mədəniyyət ocaqları hesab olunurdu. S.Əliyarlı qeyd etmişdir ki, ərəb işğalından və İslamın qəbulundan sonra Azərbaycanda yeganə təhsil müəssisələri olan məktəb və mədrəsələr XIX əsrdə də qorunub saxlanılırdı. Məktəb isə bir növ mədrəsəyə hazırlıq rolunu oynayırdı. Şagirdlər əlifbanı öyrəndikdən sonra Quranın mexaniki surətdə öyrənilməsi başlanır, yalnız bundan sonra ana dilində oxu və yazı təliminə keçilirdi. Molla, mirzə, yaxud da axund adlandırılan müəllimlərin əksəriyyəti din xadimləri idi. Məktəblərdə dini və dünyəvi biliklərin öyrənilməsi əsas yer tuturdu. Məktəb şagirdlərinin bir qismi təhsillərini ali müsəlman təhsil müəssisəsi sayılan

mədrəsədə davam etdirirdilər. Mədrəsə binaları daha böyük və abad idi. Mədrəsəyə 16 yaşından yuxarı, türk və fars dillərini bilən və ruhani olmağa hazırlaşan gənclər qəbul edilirdilər. Burada tədris edilən əsas fənlər ərəb dili, ilahiyyat və müsəlman hüquqşünaslığı idi. Tam olmayan məlumata görə, 1842- ci ildə Azərbaycanda 713 məktəb və mədrəsə vardı. 1858-ci ildə Şamaxı quberniyasında 4700 şagirdin təhsil aldığı 299 məktəb və mədrəsə fəaliyyət göstərirdi (2, 719-720). Bu 299 məktəb və mədrəsənin 262-si kənddə, 37-si isə şəhərdə idi (1, 590). XIX əsrin ikinci yarısında Azərbaycanda əsas tədris ocaqları məktəblər və mədrəsələr idi.Azərbaycanda onların sayı 500 - dən 700- ə çatırdı. Dərsləri əsasən mollalar aparır və uşaqlara əlifbanı (ərəb hürufatını) və Quranı bir neçə ilə öyrədirdilər. Xüsusi ruhani məktəbləri – mədrəsələr də var idi. Onlar ancaq məscidlərin nəzdində təşkil olunurdu. Buraya fars və ana dillərini bilən 16 yaşdan yuxarı uşaqlar qəbul olunurdular (1, 590). Mədrəsələrdə təhsil pulsuz idi (1, 616). Şiələrin və sünnilərin ayrılıqda təhsil almasını nəzərdə tutan bu maarif ocaqları tezliklə "Əli məktəbi" və "Ömər məktəbi" adları ilə tanındı. Məktəbin proqramına türk, fars və ərəb, rus dilləri, hesab, tarix, coğrafiya, islam, rus qanunşünaslığı və s. daxil idi. Şərq dilləri və şəriətə dair dərsləri azərbaycanlı müəllim, qalan dərsləri yerli dilləri bilən ruslar və b. aparırdılar (2,721). Mənbələrin verdiyi məlumata görə göstərilən dövrdə Göyçay qəzasında 20 dini məktəb və müvəqqəti məktəb var idi və bu məktəblərdə 20 müəllimin dərs verdiyi 200-dən çox şagird təhsil alırdı. Verilən məlumata görə mədrəsələrdə cəmi 30 tələbə təhsil alırdı. Lakin bu təhsil ocağında qış fəslində cəmi 3- 4 ay təhsil verilirdi. Şamaxıda 11 dini məktəbdə 11 müdərrisin təhsil verdiyi 356 şagird təhsil alırdı, qəzada isə 5 dini məktəbdə 5 müdərris təhsil verirdi. Bu məktəblərdə 174 şagird təhsil alırdı. Kürdəmir rayonunda 4 ali dini məktəb fəaliyyət göstərirdi ki, onlarda da cəmi 21 tələbə oxuyurdu (102, 73-75).

V.Quliyeva arxiv materiallarına əsaslanaraq yazmışdır:

Şamaxı, ...Göyçay qəzalarında 666 sünni məscidləri və 582 prixod fəaliyyət göstərirdi. Bu illərdə Şamaxı məscidində 11 prixod, 4 müəzzin, qəzada 31 kiçik məscid,

11 axund var idi (102, 54).

XIX əsrin axırları XX əsrin əvvəllərində Basqal mədrəsəsində dərs demiş Məşədi Əlibala Əzizov öz həmyerliləri Axund Əhmədin və Axund Dadaşın yazılarına istinad edib danışardı ki, "Basqalda hələ XI-XII əsrlərdə ruhani məktəbləri mövcud olub. XIX əsrdə Basqal mədrəsəsini bitirən onlarca gənc Nəcəfi – Əşrəfdə uğurla ali dini təhsil almışlar. Basqalda uşağın ruhani məktəbinə qəbul yaşı 7-8 yaş hesab edilirdi. Şagirdlər hərflərlə tanış olmazdan əvvəl mexaniki olaraq dua əzbərləyirdilər. Sonra əlifba ilə tanışlıq başlayırdı. Əlifba təlimi qurtardıqdan sonra Quranın oxunmasına başlanırdı". Dövlət məktəbinin açılması heç də ruhani təhsilinin əhəmiyyətini kölgədə qoymamış,Sovet hakimiyyətinin ilk illərinə kimi Basqalda mədrəsə fəaliyyət göstərmişdir.

Şirvan bölgəsində hər bir müsəlmanın qarşısında duran vəzifələr, gündəlik həyat və ümumu vərdişlər göstərilən dövrdən çox – çox əvvəl də mövcud olmuş, indi də davam etməkdədir.Belə ki, Ağsuda tədqiq edilmiş epiqrafik abidələrdən aydın olmuşdur ki, yas və dəfn adətlərində də İslam dininin demək olar ki, bütün qayda – qanunlarına riayət olunurdu. Ağsu şəhəri ətrafında aparılan epiqrafik tədqiqatlar nəticəsində çox maraqlı ərəb və farsdilli kitabələr oxunmuşdur. Qəbir başdaşıları daha çox tarixi əhəmiyyət daşısa da, etnoqrafik baxımdan da müfəssəl məlumatlarla zəngindir. Oxunmuş başdaşılara istinadən yerli camaatın sidq ürəkdən Allaha və Peyğəmbərə olan inamını, bir müsəlman kimi Qurani–Kərimin bütün ayə və surələrinə əməl etdiklərini, məişətlərinə İslam dininin geniş şəkildə nüfuz etdiyini öyrənmək olar:

Bir saylı qəbiristanlığa aid kitabələrdən 15№- li inventar. Sənduqənin uzunluğu 1.46 m, eni 0.37, hündürlüyü 0.23 m- dir. Baş hissəsinin üzərində ərəb dilində nəsx xəttilə mərhumun adı və ölüm tarixi həkk olunub. Tərcüməsi: Bu qəbir rəhmətlik, bağışlanmış Hacı Əli Muxtar ibn Abdullahındır (32, 266).

35 №- li inventar. Başdaşının hündürlüyü 1.52 m, eni 0.45 m-dir. Başdaşı tağ formasında olub, Qurani–Kərimin “Əl–Bəqərə” surəsinin 255- ci ayəsi (dillər əzbəri olan məşhur “Ayətül Kursiyyə”) ərəb dilində gözəl nəsx xəttilə yazılmışdır. Daşın kənarlarından başlayaraq ortada xüsusi yonulmuş tağın üstündə və içində axırıncı kəlmələrindən sonra kitabə yenə Ər – Rəhman surəsinin 26- cı ayəsi ilə davam edir (32, 265-266).

38 №- li inventar. Başdaşının hündürlüyü 2.43m, eni 0.53 m-dir. Başdaşının üzəri naxışsız tülpan gülü formasında yonulmuş və orta hissəsinin kənarları çox zərif və nəfis formada nəsx xəttilə ərəb dilində Qurani – Kərimin “Əl – Bəqərə” surəsinin 255-ci ayəsi həkk olunub. Tağın içində mərhumun adı və ölüm tarixi ərəb dilində nəsx xəttilə işlənilib. Tərcüməsi: Bu qəbir rəhmətlik, bağışlanmış Baba üçündür. Allah ona rəhmət eləsin. Yer üzündə olan hər kəs fanidir (ölümə məhkumdur). Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir (Ər – Rəhman surəsi 26, 27-ci ayələr). Başdaşının arxa tərəfində üzəri naxışsız tülpan gülü və yaxud günbəz formasında təsvir var (32, 259).

41 №-li inventar. Başdaşının hündürlüyü 1.92, eni 0.53 m- dir. Başdaşının yuxarı hissəsi nəbati naxışlanmış, orta hissəsində tağ formada haşiyədə Qurani–Kərimdən “Əl–Bəqərə” surəsinin 255-ci ayəsinin sonuncu kəlmələri xüsusi yonulmuş tağın içində davam edir, kitabə və mərhumun adı gözəl nəsx xəttilə ərəb dilində həkk olunub. Kitabənin tərcüməsi: Rəhmətlik, bağışlanmış Hacı Kərbəlayi Əli ibn Səfi .......... (32, 258).

51 №-li inventar. Başdaşının hündürlüyü 1.64, eni 0.48 m- dir. Başdaşı günbəz formasında olub üzəri tülpan gülünə bənzər şəkildə yonulmuşdur. Tülpan formasında olan hissə tam nəbati rəsmlərdən ibarət naxışlar ilə işlənilmiş və orta hissəsinin kənarlarında gözəl nəsx xəttilə ərəb dilində Qurani – Kərimdən ikinci surə 255-256-cı ayələr ilə haşiyələnmiş və ayənin axırıncı sözləri tağın içində davam et-

dirilmişdir. Bu sözlərdən sonra kitabə mərhumun adı və ölüm tarixi ilə bitir. Tərcüməsi: Bu qəbir rəhmətlik, bağışlanmış.......... (32, 275).

Oxunmuş kitabələr belə deməyə imkan verir ki, Qurani – Kərim bu yerlərin əhalisinin müqəddəs kitabı olmuş, onun bütün müddəalarına sözsüz əməl olunmuşdur. Bunu başdaşılara həkk olunmuş Əl– Bəqərə, Ər – Rəhman surələri belə deməyə əsas verir. Onu da qeyd edək ki, başdaşılardakı“Bu qəbir rəhmətlik, bağışlanmış Hacı Əli Muxtar ibn Abdullahındır”, “Rəhmətlik, bağışlanmış Hacı Kərbəlayi Əli ibn Səfi” yazıları onu deməyə imkan verir ki, rəhmətə gedənlər Həcc ziyarətində olmuş, Məkkə şəhərindəki müqəddəs Kəbəni ziyarət etmişlər.
Ümumiyyətlə, kitabələr camaatın dini – mənəvi dəyərlərində möminlik düşüncələrinin üstünlük təşkil etdiyini bariz şəkildə nümayiş etdirir.
Qeyd etmək yerinə düşərdi ki, əzəmətli və gözəl memarlıq quruluşuna malik olan məscid və mədrəsələr qeyd olunan dövrdən əvvəldə elm, mədəniyyət ocaqları hesab olunurdu. Hələ, üç əsr əvvəl Övliya Çələbi Şamaxıda olmuş, başdan – başa Şamaxını gəzmiş, gördüklərini heyranlıqla qələmə almışdır: “...Yetmişə qədər mehrabı, o cümlədən, ən qədim tikinti olan Div Əli cümə məscidi vardır. ...Şəhərdən kənarda xeyli adam tutan böyük Cümə məscidini Şah Səfi tikdirmişdir. Çox yaraşıqlı binadır. Həyətində şəfiilər üçün hücrələr vardır. Vəqfi olmadığından Fərhad paşa Cümə məscidinin qapıları bağlı qalmışdır. Lakin Osmanlı memarlığı üslubunda tikilmiş çox gözəl Cümə məscididir. Göydəmirzadə Cümə məscidi indi mədrəsədir. İçərisində şəhərin müftisi tədris işi ilə məşğuldur. Yeddi mədrəsə, bir ictimai yeməkxana binası Şah Xudabəndənindir” (1, 152).
İslam dini həmçinin xalqın mədəniyyətinə də nüfuz etmiş,indi də varlığını qoruyub saxlamış, müsəlman memarlıq quruluşunu özündə əks etdirən məscid və pirlərin tikilməsinə rəvac vermişdir. Ağsu şəhəri yaxınlığında “Şeyx Dursun” piri, həmçinin rayonun Qaraqoyunlu kəndində “Ağ Günbəz” və “Qırmızı Günbəz”, Şamaxı rayonunda “Pirsaat piri”, Dədə Günəş kəndində “Dədə Günəş” piri, Göylər kəndində

“Piri Mərdəkan”, Mərəzə rayonunda “Diribaba” piri, Kürdəmir rayonunun Şahsevən kəndində “Şeyx Hacı Mahmud” piri Şirvan bölgəsində əhali arasında müstəsna olaraq ziyarət edilən və şəfa dilənən ziyarətgahlar idi.

İsmayıllı rayonunda (Aşıqbayram, Diyallı, Mican, Yeniyol, Topçu və Tağlabiyan kəndlərində) XIX - XX əsrin əvvəllərinə aid məscidlər öz memarlıq üslubuna görə müsəlman Şərq sənətinin klassik nümunəsi hesab olunur. Zeyvə kəndində XIX əsrə aid türbə, Ərəgit kəndində XIX əsrə aid “Yuxarı Ərəgit”, “Aşağı Ərəgit” məscidləri də bitkin müsəlman abidələridir.

Hazırda Ağsuda mövcud olan Şeyx Dursun, Pir Bəxtiyar, Şeyx Əhmədli türbələri, Bilal Əfəndi məscidi ölkə və yerli əhəmiyyətli abidələrdən hesab olunur (4, 1).

Basqalda qiymətli memarlıq abidəsi Hacı Bədəl məscidi 1854- cü ildə bənna Allahi və Məşədi Səttar tərəfindən tikilmişdir. Şamaxı rayonunda Pirmərdəkan məqbərəsi, Qoşa minarəli Cümə məscidi, şəhərin mərkəzində, İmamlı küçəsindəki İmamzadə piri, Şahixəndan məqbərəsi, Kələxana kəndindəki türbələr kompleksi, Yeddigünbəz türbələr kompleksi tarixi əhəmiyyətli abidələr olmaqla bərabər, keçmişdə və müasir dövrdə müsəlman camaatının hörmət və ehtiramla ziyarət etdikləri ocaq – pir yerləri olmuşdur. Verilən məlumata görə, vaxtilə şəhərdə 36 məscid var idi, lakin tez– tez baş verən zəlzələlər nəticəsində əksəriyyəti dağılıb getmişdir. Ərəblər işğal etdikləri ölkələrdə İslamı yaymaq üçün ilk iş olaraq məscid inşa edirdilər.

VII əsrdə Azərbaycana gələn ərəblər Qafqazdakı ilk məscidi 733-cü ildə Dərbənddə, ikincisini isə 743-cü ildə Şamaxıda tikdilər. Ərəblər ilk dəfə şəhərdə çox da böyük olmayan məscid inşa etmişdilər. Şəhərdə məşhur olan Cümə məscidinin dörd minarəsi, üç yarusu vardır.Şamaxıda 1902-ci ildəki zəlzələdən sonra yaradılmış xüsusi komissiya burada qazıntı və araşdırma işi apararkən məsciddən qabaq bu yerdə Atəşgah və İslama qədər dini mərasimlərə aid elementlər aşkarladı. Bütün bunlar məscidin atəşgah üzərində inşa olunduğunu təsdiq edir (1, 152). Dövrümüzə gəlib çıxan məscid Əhmədbəyovun layihəsi ilə qədim məscid özülü üzərində tikilib.

Cümə məscidi tarixin ən böyük yarasını 1918- ci il martın 18- də də aldı (1, 152). Həmin gün erməni daşnaklar şəhərin ən hündür təpəsində yerləşən Lalayanlar məhəlləsindən məscidi top atəşinə tutdular. Mərmilərin izləri hal– hazırda da qalmaqdadır (1, 152).

Şəhərin mərkəzində Cümə məscidinin yaxınlığında, İmamlı küçəsindəki İmamzadə məscid– kompleksi Şamaxının ən qədim abidələrindəndir. Burada IV imam Zeynalabdin övladlarından biri Əlləma Seyid Məhəmməd Saleh Əl Müdərris dəfn edilib. 1910-1917-ci illərdə Şamaxılı məşhur memar Zivərbəy Əhmədbəyovun layihəsi əsasında yenidən tikilib. 1918- ci ilin mart qırğınında erməni daşnaklar İmamzadənin içərisinə 200-ə yaxın insanı dolduraraq diri – diri yandırıblar (1, 152).

Yeddigünbəz türbələr kompleksi mərkəzdən 3 km aralıdadır. Şamaxı xanı Mustafanın ailə üzvləri üçün salınan məzarlıqdır. Burada xan nəslinə aid olan 7 qədim türbə var. Səkkizguşəli formada tikilmiş türbələrdən sadəcə bir dənəsinin üzərindəki yazılı daş kitabə salamat qalıb. Kələxana kəndi türbələr kompleksi ilə məşhurdur. Hündürlüyü və formaları eynidir. Hamısı səkkiz guşəlidir. Əvvəl 9 olan türbələrdən bir dənəsi tamamilə dağılıb. Birincisi 1663- cü ildə tikilib. Ərazi vaxtilə Şirvanşah hökmdarlarının ailə məzarlığı olub. Üzərində ərəbcə yazılar olan sənduqələr vardır.

XIX-XX əsrin əvvəlllərində Şirvan bölgəsində (Ağsu, Şamaxı və Kürdəmir) dini ideoloji dünyagörüş və kontekstində sufizm müəyyən dərəcədə rol oynamışdı. Orta əsr İslam Şərqində təşəkkül tapan sufizmin nəzəri qaynaqları İslamla bağlı olmuşdur. Belə ki, Məhəmməd peyğəmbərin təşəbbüsü ilə Mədinədə tikilmiş məscidin bir küncündə peyğəmbərə sadiq olan evsiz – eşiksiz və kimsəsizlərin gecələməsi üçün bir damaltı "əs– suffa" tikilmişdi. Həyatlarını peyğəmbərə qulluq etməyə həsr etmiş, əmlakı və ailəsi olmayan bu fanatik dindarlar gecələdikləri yerin adı ilə (əs– suffa) sufi adlanırdılar. Peyğəmbərə sadiq olan və suffada gecələyənləri sonralar İslamda böyük bir cərəyan təşkil edən sufilərin sələfləri hesab etmək həqiqətə daha yaxın bir haldır. Peyğəmbərin vəfatından sonra Ərəbistanı gəzib Rəsulillahın həyat

tərzini, dediyi kəlamları, xasiyyətini və əməllərini təbliğ etməklə məşğul olan bu şəxslər (sufilər) dərvişlik edərək böyük bir dini istiqamətin – ət - təsəvvüfün (sufiliyin) təməlini qoyurdular (42, 129). Məlumdur ki, sufiliyə altmış altı dini birlik və təriqətlər daxil idi. Bunlardan demək olar ki, Yəsəviyyə, Xəlvətiyyə, Bayramilik, Əxilik, Nəqşibəndiyyə, Bəktaşiyyə, Çişdiyyə, Mövləviyyə, Kubraviyyə geniş yayılmışdır. Araşdırıcıların məlumatlarına görə orta əsrlərdə təsəvvüflə bağlı olan 95-ə qədər təriqət və onlardan doğan məzhəblər fəaliyyət göstərmişdir. Təriqətlərin bir çoxu mənsub olduğu zümrənin bir araya gəlməsində rol oynamış, təşkilatlanaraq dövrün fəlsəfi, mənəvi kriteriyalarını müəyyənləşdirmişdir. Heç də təsadüfi deyildir ki, 45-ə qədər Türk sultanı bu və ya digər nüfuzlu təriqətlərin üzvü olmuşdur (17, 11). Qeyd etdiyimiz dövrdə bölgədə teoloji – fəlsəfi baxışlar içərisində nəqşibəndilik təriqəti daha güclü vüsət alaraq geniş intişar tapmışdır. Sufiliyin əsas cərəyanlarından və dərviş ordenlərindən biri olan nəqşibəndiyyəlik təriqəti həm ictimai – siyasi, həm mənəvi mədəni, həm də tərbiyəvi əxlaqi təsir gücünə malik idi.

Mənbələrin verdiyi məlumata görə, təriqətin əsası XIV əsrdə Övliya Buxaralı şıx Bəhaəddin Məhəmməd tərəfindən qoyulmuşdur. Əsas ideya qaynağını sufizm ünsürlərindən əxz edən nəqşibəndilik XIV-XIX əsrlərdə mövcud olmuşdur.

Tarixi mənbələrdən aydın olur ki, nəqşibəndilik hərəkatı Anadoluda formalaşmışdır. Bəzi mənbələr isə nəqşibəndiliyin Təbrizdə formalaşdığını, oradan da Buxaraya keçdiyini iddia edirlər. Bəhaəddin Məhəmmədin ailəsi və özü naxışlı taxta toxuduğu üçün ona Nəqşibənd adı verilmişdi. Digər din tarixçiləri isə iddia edirlər ki, bu ad Buxara şəhəri yaxınlığında yerləşən Nəqşibənd kəndinin adından götürülmüşdür.Şıx Bəhaəddin Məhəmməd həmin kənddən olduğu üçün təriqət "Nəqşibəndi" adlanmışdır. Bu təriqət ilk dövrlərdə müsəlmanlara tərkidünyalığı və ilahi məhəbbət ideyalarını təbliğ etmişdir. O, yoxsulluğun əleyhinə olmuş, onu aradan götürmək istəmişdir (75, 5). Əslində "nəqşibəndiyyə" qardaşlıq cəmiyyəti şəhərlə, sənətkarlıqla bağlı olmuşdur.

Tədqiqatlardan aydın olmuşdur ki, Orta Asiya, Qazaxıstan, Başqırdıstan və Qafqazda, Kiçik Asiyada, Afrikada, İran, Suriya, Çinin Qansu əyalətində və s. ölkələrdə nəqşibəndiyyə qardaşlıq cəmiyyətləri fəaliyyət göstərirdi.

N.A.Smirnov qeyd etmişdir ki, sufilər Orta Asiyada "işan", "pir", Qafqazda "mürid", İranda "sufi", Türkiyədə "dərviş" adlanmışdır. Hazırda bütün müsəlman aləmində 70 dərviş ordeni mövcuddur. Orta Asiyada isə "işan" adlanan sufilər sufizm metodları və məktəbi ilə yaxşı tanış idilər (115, 16).

Azərbaycanın Qax, Zaqatala, Vartaşen (Oğuz), Yevlax rayonları ərazisində, eləcə də Şirvan zonasındakı bir sıra abidələr bu cəmiyyətin burada XIX-XX əsrin əvvəllərində fəaliyyətdə olduğunu sübut edir (54,16). M.Nemətovanın təsdiq etdiyi epiqrafik abidələrdən məlum olmuşdur ki, nəqşibəndilik təriqəti Azərbaycanda – Şəki, Qax, Qazax, Laçın rayonlarında və Şirvan bölgəsində mövcud olmuşdur.

Sovet ədəbiyyatının sufiliyi sultan Türkiyəsinin Qafqazda möhkəmlənmək üçün istifadə etdiyi bütün vasitələrdən biri – agentura şəbəkəsi kimi təqdim etməsi və real gerçəklikləri olduğu kimi təsvir etməməsi fikrini nəzərdən qaçırmaq olmaz. N.A. Smirnov yazırdı ki, "Türkiyə Qafqazda müridlərin simasında öz agentura şəbəkəsini yerli camaatın köməyi ilə genişləndirir. Bu məqsədlə, Qafqazın müxtəlif yerlərində, xüsusilə Şirvan və Dağıstanda çox illər Türkiyədə yaşamış müridlər fəaliyyət göstərir. XIX əsrin əvvəlində Türkiyə Azərbaycana başda İsmayıl Əfəndi, Məhəmməd Əskəri olmaqla böyük qrup göndərmişdi. Onlar müridizm təbliğatçılrı idilər. Orta Asiya, İran və Türkiyədə müridlər sufi və ya dərviş adlanırdılar. Onlar şeyx – rəhbərin ətrafında qruplaşmış və dərviş ordenində birləşmişdilər " (115, 13-14).

Əslində sufi təriqətinin fəaliyyəti Azərbaycanda əhalinin çar Rusiyasına qarşı milli – azadlıq mübarizəsində mühüm rol oynamışdır. Nəzərə almaq lazımdır ki, hər bir dövrdə mənəvi mədəniyyətin tərkib hissəsi olan dini ideoloji təbəddülatların xalqın şüuruna böyük təsiri olmuşdur. Görünür, sufi şeyxlərinin camaat arasında təsir gücü də əhəmiyyətli dərəcədə idi. Onların toplaşdığı xanəgahlar isə müqəddəs

yerlər hesab olunmaqla bərabər, həm də elm vəmədəniyyət mərkəzi kimi də diqqət cəlb etmişdir.
Mənbələrin verdiyi məlumata görə XIX əsrin birinci yarısında ... Ağsuda müridizm ideyasının təbliğatçıları, müəllim – ilahiyyatçı sayılan şeyxlər milli – azadlıq hərəkatına başçılıq edirdilər (102,65). Hər bir təriqətə mürşid (şeyx, pir) rəhbərlik edir. O, təriqətin şöbələrinə rəhbərlik üçün öz səlahiyyətini özünün nümayəndələrinə həvalə edir. Mürşid cəmiyyətin üzvü olan adamlar üzərində qeyri – məhdud hakimiyyətə malikdir.Təriqət başçısı sirli ruhani hakimiyyətə malikdir ki, bu hakimiyyət də həmişə müqəddəs sayılan təriqət banisindən başlayaraq ilahi qüvvə ilə bir başçıdan digərinə keçir.

Bəlli olduğu kimi Şirvanda nəqşibəndilik təriqəti Kürdəmir rayonunda meydana çıxmış və formalaşmışdır. Özünəməxsus doktrinası olan nəqşibəndilik təriqətinin ideya rəhbəri İsmayıl Siracəddin Şirvani olmuşdur. Kürdəmirdə anadan olan İsmayıl Siracəddin Şirvani ilk dini təhsilini Şamaxıda almış, sonradan Türkiyəyə – Amasiyaya gedərək orada bu fikir cərəyanının mənəvi dəyərlərini mənimsəyərək öz bilik dairəsini genişləndirmiş, mükəmməl bir sufi şeyxi dərəcəsinə yüksəlmişdir. Həmin dövrdə Amasiyada xanəgahlar, təkkələr və zaviyələr elm mərkəzi olmaqla yanaşı təsəvvüfçülərin təşkilati cəhətdən birləşdikləri məkan olmuşdur.
Bunlardan Gülabi, Şeyx Abdal, Abdulbaki-i Hicabi, Şamlar, Ya Vedud və s. təkkələri göstərmək olar. Mənbələrdən məlum olmuşdur ki, Şeyx İsmayıl Siracəddin Şirvaninin müridi Seyid Nigari olmuşdur. XIX əsrdə Qafqazda, daha sonra Orta Asiya və Türkiyədə məşhurlaşan, Nəsimi və Füzulinin mənəvi varisi Mir Həmzə Əfəndi İbn Mir Paşa Seyid Nigari (Seyid Nigari) əslən Laçın rayonunun Cicimli kəndindəndir. O, 1795-ci ildə tarixi Qarabağın Cicimli kəndində, Mir Paşa təxəllüsü ilə məşhur olan Mir Rüknəddin Əfəndinin ailəsində dünyaya gəlmişdir. Təəssüf ki, Şirvan bölgəsində Şeyx İsmayıl Siracəddin Şirvaninin xanəgahı haqqında heç bir bilgi əldə edə bilmədik. M.Nemətovanın verdiyi məlumata görə o, ali silsilədə 23-cü yerdə olmuş İmam Rəbbani Sirhindinin müridi Xalid Bağdadinin müridi

olmuşdur. Onun xanəgahı Kürdəmirdə olmuşdur. Şeyx İsmayıl Siracəddin Şirvaninin xanəgahından əsər – əlamət qalmasa da, onun müridlərinin bölgədə fəaliyyət göstərməsi haqqında fikir söyləməyə imkan verən abidələr qalmışdır.

Bu abidələr əsasən Kürdəmir və Ağsu rayonları ərazisindədir. Kürdəmir rayon qəbiristanlığında Hacı Şeyx Zərbəli türbəsi 1904-1905-ci illərdə inşa edilmişdir. Ağ daşdan tikilmiş türbə səkkiz künclü və hündür gümbəzlidir. Hacı Şeyx Zərbəli türbənin içərisində dəfn olunmuşdur. Adı çəkilən müqəddəsə aid olan qəbirüstü sənduqənin üzərində və ətrafında ərəbcə yazılmış müxtəlif məzmunlu bir neçə kitabə həkk edilmişdir. Kitabənin mətnindən aydın olmuşdur ki, qəbir mərhum Hacı Zərbəli bin Şeyx Osmanındır. Hacı Şeyx Zərbəli Şeyx Həsən Zərbəli övladlarındandır (46, 12-13).

Kürdəmir rayonu ərazisindəki ikinci türbə Şahsevən kəndindədir. Hündür günbəzi olan bu türbə bişmiş kərpicdən tikilmişdir. Ərəb dilində yazılmış iki sətirlik birinci kitabənin mətnindən aydın olmuşdur ki, qəbir mərhum Qiyasəddin Şeyx Hacı Mahmudundur. İkinci kitabənin ərəbcədən tərcüməsi belədir: “Ya bağışlayan, bu türbə Mövlanə Siracəddin Şirvaninin müridi (şagirdi) Mövlanə Hacı Mahmud bin mərhum Hacı Tahir Kürdəmirlinindir. 1281 hicri ili (1864-1865)” (46, 13-14).

Qeyd etmək lazımdır ki, İsmayıl Siracəddin Şirvaninin Azərbaycanda Mir Həmzə Seyid Nigari, Hacı Mahmud Baba Kürdəmirli, Xas Məhəmməd Şirvani, Hacı Yəhya bəy Qutqaşınlı, Molla Məhəmməd Yaraqlı kimi davamçıları olmuşdur.

Ağsu rayonunun Qaraqoyunlu kəndində nəqşibəndilik təriqəti ilə bağlı olan günbəzlər öz memarlıq quruluşuna görə mükəmməl bir kompleks təşkil edir. Ağ günbəz Ağsu rayonunda Qaraqoyunlu kəndi ərazisindədir. 1897- ci ildə inşa edilmiş abidəni bir giriş qapısı və üç pəncərəsi vardır. Günbəzin divarları əl üslubu ilə kəsilib, yonulmuş və səliqə ilə cilalanmış daşdan hörülmüşdür. Divarları səkkiz bucaqlı formasındadır. Qapı və pəncərə boşluqlarının üstü cilalanmış daşlardan hörülmüş, tacvari bağlanmışdır. Abidənin fasad hissəsində olan tinlər və çıxıntılar qədim şərq üslubunda daş üzərində oyma naxışlarla bəzədilmişdir.Giriş qapısının üstündə ərəb

əlifbası ilə yazı yazılmışdır. İki sətirlik ərəbcə yazılmış kitabədə deyilir:“Bu ali türbə Nəqşibəndiyyə Şeyxi arif, ali əl–Hac Hüseyn Əfəndi üçün bina olmuşdur. Vəfatı h. 1297 (1879-1880)” (55, 117).

Qaraqoyunlu kəndi ərazisində digər ziyarətgah Qırmızı günbəzdir. Qaraqoyunlu kəndinin cənub‒ şərq tərəfində yerləşən Qırmızı günbəz 1909-cu ildə inşa edilmişdir. Qırmızı kərpicdən tikilmiş abidə Qaraqoyunlu kəndinin qəbiristanlığında yerlə -şir. Günbəz tikinti formasına görə səkkiz bucaqlıdır. Giriş qapısının üstündə ərəb əlifbası ilə yazı yazılmışdır (102, 19). Ərəb dilində yazılmış kitabədə məqbərənin Övliya Hacı Soltan Babaya aid olduğu qeyd olunmuşdur. Övliya sünnülərə məxsus çox böyük ruhani alimlərin yüksək dərəcələrini göstərən istilah olmuşdur. Övliya Hacı Soltan Baba bölgənin iqtisadi ‒ siyasi, sosial ‒ mədəni həyatında mühüm rol oynamış xanəgah şeyxi olmuşdur (55, 117).

Sufilərin əsas ideyası mənəvi təmizlik idi.

Tarixə nəzər saldıqda aydın olur ki, Azərbaycanda mövcud olmuş sufi təriqətlərindən biri də xəlvətilik olmuşdur. Xəlvətilik Azərbaycanın Şamaxı, Bakı və Təbriz şəhərlərində, geniş şəkildə deyil, müəyyən bir çərçivədə yayılmışdır.

Şirvan bölgəsində əsası Şirvanlı Ömər Xəlvəti tərəfindən qoyulmuş xəlvətilik sufi məktəbinin fəlsəfə və ədəbiyyat sahələrinə müəyyən dərəcədə təsiri olmuşdur. Xəlvətilik təriqətinin əsası kəlimeyi ‒ tövhid və gizli ‒ açıq əsmayi‒ səba üzrə zikrə davam etmək, yuxunun təbir və təvili, hadisələrin nəfsə və qəlbə təsirini nəzərə alaraq, könlü masivadan təmizləmə üzərində qurulmuşdur. Xəlvətilik təriqətində bu mühüm xüsusiyyətlərdən başqa bir sıra digər özəlliklər də vardır:

1. Xəlvət və xəlvət üsulu
2. Seyri ‒ süluk üsulu
3. Zikr və zikr şəkilləri
4. Tac (əmmamə) və paltarlar
5. Təriqət ədəbi (53, 39).

M. Nemətova göstərmişdir ki, Şirvanşahlar ruhanilərə, xüsusilə müqəddəslərə çox ehtiramla yanaşır, onları dövlətin əsas sütunlarından hesab edirdilər. Ümumiyyətlə, Şirvanşahlar dövlətində övliyalar ictimai – siyasi həyatda böyük nüfuz sahibi olmuş, cəmiyyətdə baş vermiş bir sıra ziddiyyətli məsələləri həll etmək iqtidarında olmuşlar.

Qeyd olunduğu kimi Şamaxıda sufizmin xəlvətilik təriqəti mövcud olmuşdur. Onun ikinci piri Seyid Yəhya Əl – Şirvani Əl – Bakuvi Şirvanşahlar sarayında və cəmiyyətdə böyük nüfuz sahibi idi. Böyük sufi şeyxi və xəlvətiyyə təriqətinin banisi Seyid Yəhya Bakuvi Şamaxıda anadan olmuş, 1464- cü ildə Bakıda vəfat etmişdir. Seyid Yəhya Bakuvi kimi şöhrət tapmış görkəmli alimin təriqətin bütün İslam dünyasında yayılmasında çox böyük rolu olmuşdur. Məhəmmədəli Tərbiyət və Abbasqulu ağa Bakıxanov onun Bakıda məscid, mədrəsə, zaviyəsi və qəbrinin olmasını yazsalarda yerini göstərməmişlər. Seyid Yəhya Şirvani həzrətlərindən soruşanda ki, təsəvvüf yoluna necə nail olmaq olar. O, "təsəvvüf yoluna aclıq, təfəkkür və heyrətlə qovuşulur"– buyurdu (53, 39 - 41).

Xəlvətilik sufi məktəbi Şirvan bölgəsində XIX-XX əsrin əvvəllərində mövcud olmuşdur.

Qeyd olunmalıdır ki, 2013- cü ildə Seyid Yəhya Əl – Şirvani Əl – Bakuvinin vəfatının 550 illiyi münasibəti ilə "Seyid Yəhya Bakuvi: Tolerantlığın ifadəsi" adlanan simpozium keçirilmişdi. Yunesko 2013- cü ili "Bakuvi ili" elan etmişdi.

**Nəticə**

Azərbaycanın Şirvan bölgəsi tarixən zəngin mədəniyyət ənənələrinə malik olmuş, min illər ərzində yaratdığı maddi və mənəvi irsi, özünəməxsusluğu ilə fərqlənmişdir. Tədqiq olunan bölgənin etnoqrafik səciyyəsi ümumAzərbaycan xüsusiyyətləri daşısada, oxşar və fərqli cəhətləri ilə başqa bölgələrdən fərqlənir.

Qeyd olunmalıdır ki, Şirvan bölgəsi özünəməxsus xüsusiyyətləri daşıyan qədim mədəni irsə malik bir bölgədir. Bunun əsas səbəbi bölgənin qədim mədəni ənənələrə malik olmasından irəli gəlirdisə, digər səbəbi əlverişli iqtisadi– coğrafi və regional yerləşmə xüsusiyyətlərinin üstünlüyü ilə bağlı idi. Həmçinin daxili və xarıci siyasi amilləri də əsas rol oynayan amillərdən hesab etmək olar.

Monoqrafiyanın yazılması zamanı Şirvan bölgəsinin diyarşünaslıq muzeylərində qorunub saxlanılan arxeoloji və etnoqrafik səciyyəli, müxtəlif səpgili maddi və mənəvi mədəniyyət nümunələri nəzərdən keçirilmişdir. Bu nümunələr istər Şirvanın tarixi etnoqrafiyasını, istərsə də mədəni irsini öyrənmək baxımından xeyli maraq doğurur. Mənəvi və maddi mədəniyyətin öyrənilməsində bölgənin diyarşünaslıq muzeyləri müəyyən rol oynayır. Şirvan daima ipək, pambıq, yun parça, gön – dəri istehsalı və xalça toxuması ilə məşhur olmuşdur. Orta əsrlərdə Şirvanda xalçaçılıq sənəti özünün yüksək inkişaf mərhələsinə çatmış, qədim nümunələr dövrümüzədək gəlib çatmışdır. Şamaxı Tarix – Diyarşünaslıq Muzeyində rast gəlinən müxtəlif naxışlı və rəngarəng xalçalar dövrün inkişaf tarixini təcəssüm etdirən əyani nümunələrdir.

Antropomorf və zoomorf məmulatları, əcdad kultu ilə bağlı daş heykəllər, ənənəvi toxuculuq sənətinə məxsus ipək məmulatı, müxtəlif qablar, silahlar, milli geyim elementləri və s. maddi mədəniyyət nümunələri bölgənin sənət ənənələrinin güclü təsirini özündə əks etdirmişdir.

Ismayıllı rayonu Tarix–Diyarşünaslıq Muzeyində maraqlı eksponatlar içərisində iri həcmli sandıq diqqəti cəlb edir. Muzeydə müxtəlif ölçülü və müxtəlif dövrlərə aid

məişət əşyaları xalqın həyat tərzini, onun məişətinin ənənəvi formalarını işıqlandırmağa və şərh etməyə imkan yaradır.

